
AVŞAR EYVAZ
KİM KİMDİR

**Avşar Eyvaz**

Baf- 275432

# KİM KİMDİR

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

**Bakı-2013**

**Kitab abidədir**
**Yaxşılar daha da yaxşı olsun!**

Avşar Eyvaz. "Kim kimdir"- Bakı, "Araz" nəşriyyatı
256 səh.

Rəyçilər:

***Asif Rüstəmli***
AMEA-nın Nizami adına Ədəbiyyat İnstitunun elmi işçisi, Filologiya elmləri doktoru, professor.
***Gülşən Kəngərli***
AMEA -nın Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi, professor.
***Vaqif Yusifli***
filoloq, tənqidçi-ədəbiyyatşünas

**Avşar Eyvaz (Həsənalıyev Eyvaz Muxtar oğlu) 1961-ci ildə Ağcabədi rayonunun Avşar kəndində doğulub. İxtisasca iqtisadçıdır. O, bədii yaradıcılığa gənc yaşlarından başlamışdır.**

**İstedadlı şair Avşar Eyvaz üçüncü dəfədir ki, oxucuları ilə görüşür. A.Eyvaz "Qızıl Qələm" Mükafatı Laureatıdır.**

**Sistemləşdirilərək "namələr" adı altında bir neçə hissədən ibarət "Kim Kimdir" kitabına daxil olan əsərlərdə vətənə, xalqa, torpağa bağlılıq, ülvi eşqə, saf məhəbbətə böyük sevgi hissi və həyatı məsələlərə şüurlu yanaşma prinsipi ilə aşılanır. Mövzüsu muasir ictimai həyatdan götürülmüş "Çağırış" poemasında isə nəyin nə, kimin kim, haranın hara olduğu səlis və dürüst çalarlarla, müasir ictimai-siyasi durum xüsusi rənglərlə, həyatın görkəmi oxunaqlı, rəvan dillə əks olunur. Bu baxımdan "Kim Kimdir " kitabı müasir dövrlə səsləşir və xüsusi əhəmiyyət kəsb edir.**

***Müəlliflə əlaqə: 050 517-25-14***

A $\frac{4965487123}{050\text{-}2013}$ qrifli nəşr

© **A. Eyvaz**



## ŞAİRİN POETİK DÜŞÜNCƏLƏRİ

Poeziya nədir və o necə olmalıdır? Haqqında konkret bir fikir söyləmək mümkün deyil. İnsanların bir qisminə verilən bu fitri istedad və yaradıcılıq qabiliyyətinin hansı səviyyədə bədii təfəkkür hadisəsinə çevrilməsi ədəbi tənqidin tədqiqat predmetini təşkil edir. Əslində hər hansı bir poetik əsər ictimai faktor kimi nəzəri cəlb etsə də, eyni zamanda fərdi yaradıcılıq məhsuludur. Hər bir şeirdə konkret bir şairin sevinci, kədəri, ictimai həyata münasibəti öz əksini tapır. Bu mənada Avşar Eyvazın lirik şeirləri çox böyük maraq doğurur. Onun şeirlərində təbiilik, səmimi hisslər, duyğulu misralar üstünlük təşkil edir. Hiss olunur ki, şair poeziyaya namuslu bir yaradıcılıq sahəsi kimi baxır, daim öz üzərində işləyir, sözün böyüklüyünü duyur və onun xidmətində dayanır:

***Varlıya cənnətdir, yoxsula zindan,***
***Güclüyə arxadır, gücsüzə böhtan.***
***Gələni-gedəni tutub bir ucdan,***
***Dəyər-dəyməzinə satandır dünya.***

Avşar Eyvaz həmişə haqqın yanındadır, daim öz vicdanının səsinə qulaq asır. Ona görə də bir haqsızlıq, pislik, namərdlik görəndə buna dözə bilmir, qələmə müraciət edir, nifrətini poetik bir dillə qələmə alır:

***Düşmənlə namərddə fərq axtarırsan***
***Düşməndə kişilik, mərdilk tapırsan.***
***Cəmiyyət içindən pisi atırsan,***
***Namərdə dəymirsən tayı çoxalır.***

Avşar Eyvaz insanı böyük görmək istəyir. İnsanın, insanlığın mahiyyətinə enir, humanist prinsipdən çıxış edir. Həyatı sevən,

özünə hörmət edən hər kəs insanlığın ucalığına xidmət etməlidir. "Varlı kimdir?" şeirindəki suala şairin özü çox düzgün cavab tapır. Bildirir ki, hamıya əl tutan, insanlara məhəbbət bəsləyən, insanlığa qiymət verən ən varlı adamdır:

***İnsanlıq böyükdür, ölçüyə gəlməz,***
***İnsanlıqdan çıxan yüksələ bilməz.***
***İnsan varlığını ikiyə bölməz,***
***İnsanın dəyəri insanlıqdadır.***

Şairin "Kim Kimdir" şeirlər kitabındakı şeirlərin bir qismi xeyir, şər, yaxşılıq, pislik, bədbəxtlik, xoşbəxtlik kimi fəlsəfi kateqoriyalarla bağlıdır. Buradakı şeirlərdə xeyirxahlığa güzgü tutulur. Yamanlığa, pisliyə qarşı çıxılır. Bu da təbiidir. Çünki hamını xoşbəxt görmək istəyən şair məhz bu cür misralar yaza bilər:

***Mərdimazar kimdir? Necə adamdır,***
***Şeytana şükür! – deyib onu söyərlər.***
***Mərdimazarı ha yandır, ha qandır,***
***Qanan deyil... ondan uzaq gəzərlər.***

Təbiət, onun gözəllikləri əsrlər boyu şeirimizin əsas ilham mənbəyi olub. Xüsusən baharın gözəlliyi, onun insanlarda yaratdığı sevinc hissləri daha çox tərənnüm olunub. Avşar Eyvaz "Kim kimdir?" şeirlər kitabında biz təbiət poeziyamızın bir sıra maraqlı lövhələrini görürük. Əsərdən görünür ki, şair təbiəti duyur, hər çiçəyin, hər otun ətrini hiss edir, hətta bu mövzuda yazdığı şeirlərində belə ictimai həyatımızın reallıqlarını əks etdirməyi bacarır:

***Bahardır... təbiət gözəlləşibdir,***
***Torpaq da oyanıb qış yuxusundan***
***Busatlı ellərə bahar gəlibdir***
***Çöllər ətirlənib gül qoxusundan***





Maraqlıdır ki, şair təbiətin rəngini poeziyaya gətirir, bu cür şeirində təbiət və insan vəhdətdə verilir. Çiçəklərin rəngi ilə insanların əhvali-ruhiyyəsi arasında müəyyən vəhdət üzə çıxır:

***Çəhrayi, qırmızı, sarı çiçəklər,***
***Ulduz tək sayrışır naxışlı çöldə,***
***Ən gözəl arzular, yeni diləklər,***
***Şüylər tək oyanır hər bir könüldə***

Avşar Eyvaz məhəbbətlə bağlı şeirlərini "Eşqnamə" hissəsində vermişdir. Şairin bu tipli şeirləri də onun yaradıcılığının ümumi istiqamətini bir daha müəyyənləşdirir. O məhəbbəti ülviləşdirməyə can atır, məhəbbəti ən ülvi, uca bir məfhum kimi tərənnüm etməyə çalışır. "Eşqimi söndürə bilməz" şeirində bunun bir daha şahidi oluruq:

***Səninlə alıram həyatda nəfəs,***
***Qəlbim səndən ayrı yaşaya bilməz.***
***Ən qorxulu olan hər hansı bir səs.***
***Mənim bu eşqimi söndürə bilməz!***
***Mənim bu eşqimi söndürə bilməz!***

Şair oxucuları eşqin ülviliyini, müqəddəsliyini qorumağa çağırır, daim vəfalı, ağıllı, dar gündə sevgilisinə arxa olmağı bacaran yar axtarışındadır:

***Eşqimi bir zaman demişdim sənə,***
***Odur ki, etibar etmişdim sənə.***
***Bələmi əzərlər sevən ürəyi-***
***Sevəndə bir ürək vermişdim sənə***

Avşar Eyvazın "Kim Kimdir" kitabındakı şeirlərin demək olar ki, əksəriyyəti şairin uğurlarından xəbər verir. Görünür, şair sözün poetik qüdrətinin nə demək olduğunu çox gözəl dərk edir və bundan sonra da əsərlərinin daha təmiz, poetik cəhətdən yüksək səviyyədə olmasına çalışacaq.

***Məhəmmədəli MUSTAFAYEV***

***AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya elmləri doktoru***





**I Bölüm**

# TƏSVİRNAMƏ

## Əllər var dünyada

Əllər var dünyada
əllər içində...
cürbəcür əllər
Ağappaq,
qapqara,
həm incə,
həm zərif,
çox etibarlı,
çox bacarıqlı
Daş yonan,
ot çalan,
əkib becərən,
qurub yaradan,
Mehriban,
qayğıkeş,
yaralı,
qabarlı,
cadarlı-
insan əlləri.
Əllər var dünyada əllər içində...
tək barmaqlı,
cüt barmaqlı,
üç barmaqlı.
Axı beşdir...
insan əlində barmaq
Bəs niyə?...
nə üçün tək olmuş,
cüt olmuş,
üç olmuş





əllərdə barmaq?
Vətən yolunda,
xalq yolunda,
haqq yolunda,
güllə atmış,
Dava illərindən yadigar kimi
nişanə qalmış...
Atalarımızın barmaqlarıdır!...
Babalarımızın barmaqlarıdır
Qardaşlarımızın barmaqlarıdır
həmin barmaqlar...
Güllədən ,
mərmidən,
topdan yaralı-
ata əlləri,
baba əlləri,
qardaş əlləri...
Əllər var dünyada əllər içində...
sağaldan,
şəfqətli,
şəfalı-
həkim əlləri...
Əllər var dünyada əllər içində...
mehriban, incə
qayğıkeş, zərif
ağappaq, yumşaq
həm də məlhəmli
həzin laylalı-
qadın əlləri,
ana əlləri...
Əllər var dünyada əllər içində...

Vətən şöhrətini
hünər şöhrətini,
el şöhrətini
uca göylərə
yazıb ucaldan
min bir mənalı-
şair əlləri...
Əllər var dünyada əllər içində...
tozlu-torpaqlı
belli-kürəkli
Tikanlı,
cadarlı-
kəndli əlləri...
Əllər var dünyada əllər içində...
ağlı –qaralı,
adı şərəfli,
özü şərəfli,
oraq-çəkicli,
işdən qabarlı-
fəhlə əlləri.
Ölməzdir bu əllər...
çünki bu əllər
hünər yolunda bərkimiş,
əmək yolunda qaralmış,
zəhmət yolunda qabarmış
Dünyadakı bütün əllər içində
Olsa da qapqara,
olsa da qabarlı
Ən təmiz,
ən xoşbəxt,
ən gözəl əldir





qabarlı-
fəhlə əlləri...
Çünki yeni-
azad dünya qurandır
qabarlı-
fəhlə əlləri!

*Fevral 1980*

## Xəstə taleyi

Bu cavan çağımda — xəstə günümdə
Həyat da mənasız görünür mənə
Ax... könlümdə varmış yeri qəmin də
Nə deyim taleyin qara hökmünə?

Üzümə gülmədi bircə kərə də
Küskündür taleyim əzəldən mənim
Ah, sevinc də yaddır mənə, nəşə də
Həyatda bir yaxşı gün də görmədim

Alanda əlinə tale qələmi
Başdan-başa qara yazdı bəxtimi
Ah, qaragünlüyəm əzəldən bəri
Sayıram ömürdən gedən günləri

*Mart 1980*

## Həkim

Yanımda yoxdur ah!...
O qardaşım da
Ana həsrəti var bu göz yaşımda
Fəqət...xəstə düşdüm cavan yaşımda
Fələk də cavana qıyarmı, həkim?!

Həyat mənasızdır xəstə yatana
Dərd içində ikən qəmə batana
Yaman dərddir əlin yetməz atana
Belə də ayrılıq olarmı, həkim?!

- Mən xəstəyəm...səndən bir diləyim var
Ürəyimdə arzum—xoş niyyətim var
Gözü yolda qalan bir sevgilim var
O, mənsiz kamına çatarmı, həkim?!

Dayanmır yaramda—
Isti qan sızır
Tükənir taqətim, səbrim azalır
Ümidim, ey həkim, bir sənə qalır
Sönən ocaq bir də yanarmı, həkim?!

Həkim dedi: "Qorxma sən də yaşarsan
Çəkdiyin əzabı tez unudarsan
Həm bu əllərimlə şəfa taparsan
Sağlamlıq yolunda yatarmı, həkim?!"

Xəstəyə dərmandır şirin sözlərin
Necə şəfalıdır cərrah əllərin
Mənə həyat verən o əməllərin
Eyvazın yadından çıxarmı, həkim?!

***Fevral 1980***





## Taleyim mənim

Həyatda nədirsə qismətim mənim
Söz yox ki, onu da görməliyəm mən.
Belədir: nə edim? Taleyim mənim
Bəxti-taleyimdən küsməliyəm mən?

Çörək əvəzinə dəmir yemişəm
"Vərəm, çor" - deyiblər, qəbul etmişəm
Heyvan tək döyüblər yenə dözmüşəm
Görünür yenə də dözməliyəm mən

Bir dünya sığışar mənim könlümdə
Sevinib - gülmüşəm"sınıq"qəlbimdə
Gizli ağlamışam öz ürəyimdə
Bu dərdimi kimə deməliyəm mən?

Mənim əvəzimə daş-dəmir dözməz
Acı sözlər heç vaxt dilimə gəlməz
Günüm qəmlə keçsə, ürəyim gülməz
Söyləyin bəs nə vaxt gülməliyəm mən?

Həmdəmimdir dağda daşlar,qayalar
Sirdaşımdır mənim ağaclar, kollar
Dostum, yoldaşımdır qoyunlar, mallar
İnsanlardan qaçaq düşməliyəm mən?

Üz döndəribdir küskün taleyim
Atam yoxdur dərdi ona söyləyim
Ana qəlbi kövrək olur... neyləyim?
Göz yaşımı özüm silməliyəm mən

Zay olar həyatım, yanar ürəyim
Qəm üzər qəlbimi ağırdır qəmim
Sönməz bu dünyada eşqim, həvəsim
Yaşamaq çəmini bilməliyəm mən

*1978-ci il*

**İnşaallah, Şükrallah, Maşallah!**

Doğuldum—
dünyaya gəldim
İnşaallah!
Acdım,
ana südü əmdim
Şükrallah!
Mışıl-mışıl yatdım,
dincəldim
Maşallah!
Tezdən durdum,
oyandım
İnşaallah!
Böyüdüm,
boy atdım
Şükrallah!
Axşam
bir də yatdım
Maşallah!
Səhər açıldı
gözümü açdım
İnşaallah!
Uşaqlarla oynadım





qaçdım
Şükrallah!
Axşam yoruldum,
yatdım
Maşallah!
Səhər qalxıb
Günəş gördüm
İnşaallah!
Lazımlı çox iş gördüm
Şükrallah!
Axşam mürgülədim
huş gördüm
Maşallah!
Səhər durdum
gəzdim yelləndim
İnşaallah!
Sevdim-sevildim,
şənləndim
Şükrallah!
Axşam həyat qurdum
evləndim
Maşallah!
Sabah o başdan oyandım,
oyatdım
İnşaallah!
Yaşadım,
yaşatdım,
yaratdım
Şükrallah!
Axşam yerimdə
çox rahat yatdım

Maşallah!
Səhər durdum
çox darıxdım
İnşaallah!
Gün ərzində
çox iz buraxdım
Şükrallah!
Axşam evə
salamat qalxdım
Maşallah!
Səhər durdum ki,
ucalmışam
İnşaallah!
Günorta duydum ki,
güc almışam
İnşaallah!
Axşam hiss etdim ki,
qocalmışam
Maşallah!
Səhər qalxmağa
can atdım
İnşaallah!
Günorta gəlib
əcələ çatdım
Şükrallah!
Axşam gedib
qəbirdə yatdım
Maşallah!
Səhər -cənnət gördüm
hər tərəf gül-çiçək İnşaallah!
Hərəkət yox-



Ad - 275432



baxma,
yemə,
yatma,
kef çək
Şükrallah!
Doğum doğru,
yaşam dürüst,
ölüm gerçək
Maşallah!
Səhər mən:İnşaallah!-söylədim
çox oldum!
Günorta Şükrallah-dedim
tox oldum!
Axşama Maşallah!-
deyə bilmədim
yox oldum!
Axşama Maşallah!-
deyə bilmədim
yox oldum!

*2008*

**Avşar tayfası**

Səfəvi dövləti olduğu vaxtlar
Orada yaşamış xeyli avşarlar
Xüsusi geyimdə: -qırmızıbaşlar
İşdə hökmrandı Avşar tayfası

Sərkərdəsi olub... ordu saxlayıb
Güclü ordusuyla yurdu saxlayıb
Buraxıb nankoru, mərdi saxlayıb
Sözünü tutandı Avşar tayfası



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Hansı düşmən gəlsə Qançanağına
Düşərdi Avşarın qan yığnağına
Qan udub dönərdi öz oylağına
Bil ki, qana-qandı Avşar tayfası

Boylara bölünmüş qədim elatdı
Bir neçə boylarla birgə soy atdı
Dostu Qıyamadın, bir də Bayatdı
Üçlükdə başqandı Avşar tayfası

Nəsili artırıb indiki Avşar
On milyon sayıyla dünyada yaşar
Eyvazsa şəninə şeirlər qoşar
Dillərdə dastandı Avşar tayfası

## Kim kimdir?

Dünyada əvvəlcə Adəmin özü
Ardınca şairin düz görən gözü
Birinci "Qurani-Kərim"in sözü
İkinci aqilin sözü gəlir, bil!...

Nəzər sal tarixə... gör nələr olur
Nahaqdan Nəsimi diri soyulur
Cəngavər Babəkin qolu vurulur
Vüqarı düşməndən qisas alır, bil!...

Dədə Qorqud dağda tonqal qaladı
Vətənsevərləri hey harayladı
Yadellini yurddan o qovaladı
Qoş Koroğlu misri qılınc çalır, bil!...





Nigar dəlilərə analıq edir
Həcər qazamatın dalını dəlir
Dəli kimi Əsli Kərəmi sevir
Ərəbzəngi şahı atdan salır, bil!...

Nizami "Xəmsə"də hikmət söyləyir
Füzuli aşiqi Məcnun eyləyir
"Hop-hopnamə" yazır...Sabir neyləyir?
Cəlil: Molla Nəsrəddin doğulur, bil!...

Məhsəti, Nətavan şairlik edir
Nüşabə fatehi sülhə gətirir:—
-Yeməyə cəvahir, ləl, qızıl verir
İsgəndər süfrəyə lap mat qalır, bil!...

Üzeyir —yurdunda dahi bəstəkar
Xan əmi şikəstə, muğam oxuyar
Səttar bu dünyanı tabloya yığar
Daş heykəl qurur Ömər, yorulur, bil!...

"Rüstəm Zal", "Şahnamə" yazan Firdovsi
Böyük alim olan Nəsrəddin Tusi
Bir də Ağcabədi yazarı İsi
Yaddaşlarda hərə bir cür qalır, bil!...

Oğuz ellərindən Ulduz xan Avşar
Şahlıq eyləyibdir Nadir şah Avşar
Bir istedad da var... Məzahir Avşar
Dolur, tarix yavaş-yavaş dolur, bil!...

Müşfiq, Səməd Vurğun, Vahid, Şəhriyar
Zəlimxan, Xəlil Rza, Rüstəm, Bəxtiyar
Hər kəsin öz rəngi, öz çaları var
Ələsgərlə dastan, saz qurulur, bil!...

Məmməd Əmin qalxıb bayraq götürdü
Zeynalabdin milyon bina hördürdü
Əbülfəz Elçibəy qurdu, ötürdü
Durmur, zaman axır, su durulur,bil!...

Yerini kim bilir, desin harda var
Müslüm kimi, Rəşid kimi sənətkar?
Sərhəd keçib gəzən diyarbadiyar
Sənətin sahibi soruşulur, bil!..

Namiq, Hafiz, İbad Vətən uğrunda
Qəhrəman oldular döyüş yolunda
Tanındı ölkədə Avşar soyunda
Hər işdə avşarlar qoçaq olur, bil!...

İz qoymuş tarixdə döyüşkən Avşar
Təzkirəçi-rəssam Sadıq bəy Əfşar
Yaddaşa yazılsa tarixi daşar
Tarixi yazmasan tez dağılır, bil!...

Qarmonun nitqini Aslan bildirir
Ədalətin sazı ruh sevindirir
Kamilin qaboyu könül dindirir
Habil qeyri-adi kaman çalır, bil!...





Siyasi xidməti sonsuz ..".en" qədər
Ölkənin rəhbəri O ulu öndər
Həsr etdi ömrünü Xalqına Heydər
İndi də anılır... O duyulur, bil!...

Muğamı çaldı tar-kaman qəh-qəhi
Rübabəylə "Heydər baba" bəh-bəhi
Zeynəblə nəğməkar bülbül cəh-cəhi
Alimlə, Mənsumla səs yayılır, bil!...

Yaqub "Mənsuriyyə", Mütəllim "Segah"
Qədir "Sona bülbül", Bülbül "Çahargah"
Ehtiram,Güllü "Rast", Elnarə "Dügah"
Oxuyarkən yatan ruh ayılır, bil!...

Milyondan birinə verdim izahı
Bu gün də yaranır sənət dəsgahı
"Bismillah", "Qülf-Allah" :-Haqqın dərgahı
Danılmaz,danılsa Haqq danılır, bil!...

İgidlər sözünü əməldə deyir
Şəhidlər canını Vətənə verir
Satqın namərd –nankor zindanlar geyir
Xainlərdən ötrü gor qazılır, bil!...

Vətənlə ucalar vətənpərvərlər
Torpaqdan güc alar torpaqsevənlər
Adı çəkilənlər, çəkilməyənlər
Hamısı ürəkdədir...sayılır, il!...

Avşar Eyvaz sözü deyər aşikar
Vətəni hər şeydən çox üstün tutar
Vətənə hərənin öz xidməti var
Hər kəsin əməli düz yazılır, bil!...

## Olan olacaq

Qalma get, durma gəl, gör nə var, nə yox
Bax öyrən, bil öyrət, nə az var, nə çox
Bir yeyir, beş deyir, nə ac var, nə tox
Qarmaqarışıqlıq olacaq hər an!..

Bu o, bu sən, bu mən, bu yüz, bu min
O dağ, o bağ, o kol, o yol, o da tin
Say iş gör, ya dam tik, ya ev, ya da hin,
Saysan, bulaşıqlıq olacaq hər an!..

Nə ad ol, nə cod ol, nə qıy, nə də gön
Nə su ol, nə od ol, nə yan, nə də sön
Nə dost ol, nə yad ol, nə get, nə də dön
Dönsən, alışıqlıq olacaq hər an!..

Can ver, can al, cüt ol, cüt dur, cüt gəz sən
Bir əl ol, bir dil ol, sirr ver, sirr al tən—
Yar sev, söz al, söz ver, and iç, toy et sən
Küssən barışıqlıq olacaq hər an!..

Əl ver, əl tut, pul yığ, o ki var xərc çək
Su tök, zığ qat, daş hör, iş gör, bir ev tik
Baş sal, yük qur, göz qoy, bir söz de nər tək
Olsa, yaraşıqlıq olacaq hər an!..





Ya gəl, ya get, ya din, ya sus, ya da küs
Ya əl ver, ya əl çək, ya düz, ya da üz
Ya qal, ya öl, ya köç, ya düş, ya da düz
Qalsa, yapışıqlıq olacaq hər an!..

Nə it ol, nə qurd ol, nə dərd ye, nə qəm
Nə şit ol, nə küt ol, nə tək ol, nə cəm
Nə daş ol, nə baş ol, nə çaş ol, nə dəm
Çaşsan, dolaşıqlıq olacaq hər an!..

Ya ək, ya sök, ya sol, nə kal qal, nə dəy
Nə vaxt al, nə taxt tut, nə xan ol, nə bəy
Nə qul ol, nə pul gəz, nə bic ol, nə səy
Qan... qan anlaşıqlıq olacaq hər an!..

Nə qaş ol, nə göz, nə diş, nə əl, nə qol
Nə ot ol, nə gül, nə qum, nə sağ, nə sol
Nə dil ol, nə fil ol, nə vur, nə baş yol
Yolsan, pırtlaşıqlıq olacaq hər an!..

İy al, tam bil, dad duy, hiss et, bir əl vur
Nə var yığ, nə ac qal, bir yer tut, dinc dur
Ya dərk et, ya tərk et, ya elm al, ya nur
Duysan, gur işıqlıq olacaq hər an!..

Ay Av-şar Ey-vaz! Sən yaz, poz, bir söz de
Yol tap, qaç tut, dil tök, bir şey de, düz de
Vaxt yox, zənn et, ömür az, gün dar, döz...döz de
Dözsən, pay qaşıqlıq olacaq hər an!..

## Ana anadır

Başqa ad yaraşmaz, anadır ana
Dünyanı dəyişməz öz balasına
Qıymaz balasına, qıyar canına
Götürər ölümü, ömrünü verər!..
Ən isti nəfəsi analı görər!

Dünyanın ən həlim məxluqu—Ana!
Dünyamız möhtacdır sənin laylana
Nəfəsinlə gərək həyat canlana
Bitirər çiçəyi, gülləri dərər!..
Ən isti nəfəsi analı görər!

Dünyada ən ağır yükü götürər
Xalqına bəşəri övlad yetirər
Əzablı həvəslə bala böyüdər
Ötürər zülümü, dövrünü sürər!..
Ən isti nəfəsi analı görər!

Həyatın mayası sülhlə yoğrulsun
Dünyanın başında qoy ana dursun
Çünki, müharibə o qoymaz olsun
İtirər zalımı, birliyi hörər!..
Ən isti nəfəsi analı görər!

Gücünü göstərdi ana duası—
Eyvaz, dünya oldu insan yuvası
Ana südü—halal həyat mayası
Gətirər çörəyi, süfrəni sərər!..
Ən isti nəfəsi analı görər!





## Adəm ailəsi

Sən bilirsənmi niyə hər kəs bir-birlərinə
Qardaşım, bacım deyə müraciətlər edir?!
Fərqinə var bunların, bir bax, səbəblərinə
Sualların cavabı uzaq tarixə gedir!..

Əzəl ilk yaranışdan məxluqatlar içində
Bütün bu insanların əcdadı var bir nəfər...
Lap qədim tarixlərin uzaq əsrin köçündə
Xəlq olmuş, yaranmışdır Adəm adlı peyğəmbər

İndi doğub törəyən—adı insan olanın
Nəsli-kökü bir: Adəm onun ilkin babası
İrqə bölünüb yeni-yeni nəsil salanın
Hər bəşər övladının Həvva olub anası

O vaxt qardaş qardaşı doğru əməldə, canlı
İndi quru söz kimi onu sözdə yaşadır
Qardaş qardaşa qarşı qırğın törədir, qanlı
Tökür qardaş qanını dərya-dərya boşaldır

Övlad az olan dövrdə--tarixin o üzündə
Doğma, mehriban olmuş, Eyvaz, Adəm övladı
Adəmdən üzü bəri tarixlərin izində
Yerüstü ailədə indi doğma da yaddı!

## Gələcəyə gedirik biz

Səs yayıldı bu dünyaya
Gələcəyə gedirik biz.
Gələcəkdir ən gözəl gün
Gələcəyə gedirik biz!

Sülh məqsədli adamlarla
İti, mətin addımlarla
Ürək dolu arzularla
Gələcəyə gedirik biz!

Poladdandır biləyimiz
Arzuludur ürəyimiz
Partiyadır dirəyimiz
Gələcəyə gedirik biz!

Qayğıkeşdir partiyamız
Onçun açıqdır alnımız
Sülhdür böyük amalımız
Gələcəyə gedirik biz!

Partiyamız mayaq olub
Sülhə böyük dayaq olub
Partiyadan ilham alıb
Gələcəyə gedirik biz!





## Dünya

Bir dili şirindir, bir dili acı
Yaşı bilinməyən zamandı dünya
Dağı da qocaldır...özü qocalmır
Elə hey durduqca durandı dünya

Ömürlük birinə sevinc bəxş edər
Birinə qəm verər, birinə kədər
Birini güldürüb-nəşələndirər
Birini ağladan kamandı dünya

Birinə əbədi cah-cəlal verir
Birini birinə möhtac eyləyir
Bilmirəm bəs, onun diləyi nədir
Özü də çox möhtac olandır dünya

Varlıya cənnətdir, yoxsula zindan
Güclüyə arxadır, gücsüzə böhtan
Gələni-gedəni tutub bir ucdan
Dəyər-dəyməzinə satandı dünya

Əlində qələmi verir fərmanı
Qılıncı əlində kəsir başları
Gələrək insafa tökür yaşını
Bəzən hamıyla ağlayandı dünya

Həyatda yaxşılar, yamanlar olur
Açılan-deyiblər-bir dəfə solur
"Bir yandan boşalır, bir yandan dolur"
Dolduqca boşalıb dolandı dünya

Eyvaz, cəh-cəlalı kimdir yaradan?-
İnsandır əzəldən düşünsən bir an
Dünyada əmanət olsa da insan
İnsan əməlinə heyrandı dünya

*Yanvar 1980*

### Elimizə bahar yaraşır

Gözəllik yaraşır al yanaqlara
Göyçəklik yaraşır ağ buxaqlara
Yaraşır təbəssüm gül dodaqlara
Bahardır yaraşıq verən onlara
Onlardır yaraşıq verən bahara.

Çatmalıq yaraşır qara qaşlara
Yumşaqlıq yaraşır ipək saçlara
Yaraşır sırğalar o qulaqlara
Bahardır yaraşıq verən onlara
Onlardır yaraşıq verən bahara.

Ucalıq yaraşır göy çinarlara
Yaşıllıq yaraşır tər budaqlara
Yaraşır çiçəklik yaşıl bağlara
Bahardır yaraşıq verən onlara
Onlardır yaraşıq verən bahara.

Əzəmət yaraşır uca dağlara
Zümzümə yaraşır saf bulaqlara
Yaraşır vüqarı o qayalara
Bahardır yaraşıq verən onlara
Onlardır yaraşıq verən bahara.





Mavilik yaraşır göy ümmanlara
Kükrəmək yaraşır coşğun çaylara
Yaraşır şəffaflıq büllur sulara
Bahardır yaraşıq verən onlara
Onlardır yaraşıq verən bahara.

Qəşənglik yaraşır o ceyranlara
Əlvanlıq yaraşır bu torpaqlara
Yaraşır nəğmələr bütün quşlara
Bahardır yaraşıq verən onlara
Onlardır yaraşıq verən bahara.

Bayramlar yaraşır bu analara
Şənliklər yaraşır bu atalara
Yaraşır gülüşlər gül balalara
Bahardır yaraşıq verən onlara
Onlardır yaraşıq verən bahara.

Həm günəş yaraşır bizim diyara
Həm gülüş yaraşır bizim diyara
Yaraşır bahar da bizim diyara
Bahardır yaraşıq verən onlara
Onlardır yaraşıq verən bahara.

Min alqış, min əhsən bu ilk bahara-
-Bu dünyanı belə yaradanlara
Yaraşır bahar, bax, mərd insanlara
Bahardır yaraşıq verən onlara
Onlardır yaraşıq verən bahara.

***

Bu vaxt bir söz üçün sinəmdə qəlbim
Az qalır dillənsin döyünür yaman
Bəlkə rahat ola bir az ürəyim
Onu da qeyd edim baharda tamam.

*May 1980*

## Odlar yurdu

Arzusu qol-qanad verir insana
Zülmətin cövhəri hopur canına
Üç dəfə alıbdır "Lenin ordeni"
Min alqış baharlı Azərbaycana!

Buruqlar ruh verib igid oğluna
Mil düzü güc verib igid qızına
Tutubdur əlində on al bayrağı
Min alqış vüqarlı Azərbaycana!

Bir fikir verin siz odlar yurduna,
Sabaha atılan addımlarına
İndidən dünyaya düşüb sorağı
Eşq olsun bu varlı Azərbaycana!

*May 1980*





## Azadlıq nədir?

Dünyada
kədərdən
qüssədən
uzaqsa
bir insan-
bax, odur
azadlıq...

Həyatda
həmişə
hər zaman
daima
gül açan
nur saçan
arzudan
diləkdən
sevincdən
fərəhdən
gülərsə
bir insan-
bax, budur
azadlıq...

Bu uca
o sonsuz
göylərdə-
həm yerdə
həm göydə
yamyaşıl
ağacda
yarpaqlı
budaqda
o yalçın
dağlarda
kölgəli
bağlarda
bir gözəl
yuvada
bu ondan
o bundan
gözəl, şən
nəğmələr
oxuyan...
harada
istəsə
orada
özünə
yurd, yuva
toxuyan
heç zaman
heç harda
nə göydə
nə yerdə
nə qorxu
nə ürkü
bilməyən
təhlükə
duymayan
həmişə
nəğməli
nəğməkar
bir quşdur-
azadlıq.

"Heç zaman
satılmaz
Həmişə
alınır
azadlıq"

İndi sən
bildinmi
bax, nədir
azadlıq?

*Aprel 1980*

## Bayatılar

İndi bizdən uzaq olan
Keçib getmiş o əsrlərin-
Zəmanənin ağ aynası
Bayatılar, bayatılar!

Yaxşını yaxşı, pisi pis
Şirin dillə bizə deyən
Həm tutarlı, həm mübariz
Hər an bizə öyüd verən
Babaların ən yaşlısı-
Bayatılar, bayatılar!

Ataların söz baltası-
Bayatılar, bayatılar!
Bacıların, qardaşların
Ən sevimli xoş mahnısı-
Bayatılar, bayatılar!

Xəstələrin hər dəvası-
Bayatılar, bayatılar!
Pis dərdlərin hər çarəsi-
Bayatılar, bayatılar!
Qoşquların, şeirlərin
Oxşamanın, həm nəğmənin-
Mahnıların öz anası-
Bayatılar, bayatılar!

Müdrik sözlər ordusunun
Müdrik kəlam yığımının





Gözəl fikir toplusunun
Şirin xəyal karvanının
Dürlü-dürlü, çox mənalı
Danışıqlar cəmisinin
Qalmaqallı, çox cəfalı
Deyişmələr hamısının
Canlı sözlər incisinin
Dadlı söhbət topasının
Duzlu kəlmə kisəsinin
Bütün dillər bağlısının
Ən qiymətli—bahalısı-
Bayatılar, bayatılar!

Qələbənin, həm zəfərin
Uğurların tən yarısı-
Bayatılar, bayatılar!

İldırımın,qığılcımın
Alovların od balası—
Bayatılar, bayatılar!

...Qılıncların, nizələrin
Qalxanların, dəbilqənin
Baltaların, həm bellərin
Oraqların, çəkiclərin
Qəzəblərin, nifrətlərin
Təpiklərin, güllələrin
Qəlpələrin, mərmilərin
Yaraqların bir parçası-
Bayatılar, bayatılar!

Yağılara mərd ellərin
Düşmənlərə obaların
Xainlərə igidlərin
Azğınlara babaların
Zülmkarlara məzlumların
verdikləri cavabları:-
vurduqları kötəkləri
söydükləri söyüşləri
içirtdiyi zəhərləri
saldıqları pis dərdləri-
Zalımların başlarına
xalqların verdikləri
Ən dözülməz baş ağrısı-
Bayatılar, bayatılar!

Əmək sevən, zəhmət sevən
El yolunda, iş başında
Hünər üçün yol göstərən
Pak ürəkli, saf diləkli
Od sinəli, od biləkli
Mətanətli, cəsarətli
Xoş amallı, xoş əməlli
Sədaqətli, səxavətli
Xoş niyyətli, xoş diləkli
Məhəbbətli, səadətli
Həm namuslu, həm vicdanlı
Həm qayğıkeş, həm inadkar
Həm mübariz, həm döyüşkən
Həm əyilməz, həm yorulmaz
Düşüncəli, əqidəli
Həm ağıllı, həm kamallı





Sülh arzulu, sülh məqsədli
Həm zəkalı, həm dühalı
Toy-büsatlı, şən,bəxtiyar
Gözəl-göyçək, həm bəxtəvər
Həm fədakar, həm nəğməkar
İnsanpərvər, Vətənpərvər
Qoçaq, comərd insanların-
Yeni dünya, azad dünya
Quranların səs-sədası-
Bayatılar, bayatılar!

*May 1980*

## Yazın gəlişi

Bahardır...
təbiət gözəlləşibdir
Torpaq da oyanıb qış yuxusundan
Büsatlı ellərə bahar gəlibdir
Çöllər ətirlənib gül qoxusundan

May ayı—baharın ən gözəl anı
Bürünüb təbiət bir yaşıl dona
Açmış güllər valeh edir insanı
Ətrini çiçəklər yayır hər yanı

Çəhrayı, qırmızı, sarı çiçəklər
Ulduz tək sayrışır naxışlı çöldə
Ən gözəl arzular, yeni diləklər
Şüylər tək oyanır hər bir könüldə

Təbiət, qoynunda nə canlanma var?
Heyrətlə dinləyir torpaq hər səsi
Dillənib qayalar, dil açıb daşlar
Həvəslə oxuyur həyat nəğməsi

**Təbiətlə insanın yarışı**

İlk bahar hər şeyə naxış vurubdur
İnsanla yarışır ana təbiət
Qayalar onlara hakim durubdur
Kim udsa, alacaq qızıl mükafat

Təbiət insanla bəhsə giribdir
Daşlar istəyir ki, gül-çiçək açsın
İnsan təbiətlə bəhsə giribdir
Zəhmət istəyir ki, zirvələr aşsın

Günəş yer üzünü nura boyayıb
Bu bahar bağlara bar verəcəkdir
Baharın gəlişi eli oyadıb
Qələbə nəğməli gün gələcəkdir

*May 1980*

**Məhsul bayramı**

Böyük töhfəsidir qızıl əllərin
Ellərə yaraşan məhsul bayramı
Hər günü xoş keçən gözəl günlərin
Ətrini duyaraq şadlanır hamı





Bu gün sevincindən, öz fərəhindən
Gülür insan... görüb min bir neməti
Yox, yox... insan deyil
zəhmətdir gülən
Zəhmətkeş insanın halal zəhməti

...Hələ açılmamış səhərin gözü
Tarlalardan gəlir insanın səsi
Ağ gün gətirəndir zəhmətin özü
Göylərə yüksəlsə əmək nəğməsi

Günəşdən alarsa gur şəfəqləri
Yer üzü nurlanıb nura boyanar
Can versə torpağa insan əlləri
Torpağın məhsulu göyə dayanar

Əkiz-əkiz doğub, çoxlu yun verib
Böyrək tək bəslənən qoyunlar bu il
...Zəhmətin şöləsi ömrü bəzəyib
Hamı istəyinə olubdu nail

Qələbə çalmışlar öz əlləriylə
İnsanlar ən böyük zəfər qazanmış
Əməkçi insanlar alın təriylə
Adını tarixə əbədi yazmış!

İşıqlı sabaha aparır bizi
Qələbə bayraqlı əllərə alqış!
Ən böyük arzuya çatdırır bizi
Min əhsən bu günə!...
Zəhmətə alqış!

*May 1980*

## Xoşbəxtlik

***Dahi rəhbər H.Əliyevə həsr olunub***

Əlilə saldığı bağdan gül dərən
Qurduğu dünyada yaxşı gün görən
Boz səhranı gülüstana döndərən
Xoşbəxtdir dünyada, xoşbəxtdir hər an
Ömrünü zəhmətlə yaşayan insan!

Xalqıyla fəxr edib ondan güc alan
Şərəfli işiylə daim ucalan
Adı min-min könüllərdə qocalan
Xoşbəxtdir dünyada, xoşbəxtdir hər an
Xoş əbədiyyətə qovuşan insan!

Ürəyini ürəklərə göndərən
Ülvi məhəbbətə qəlbini verən
El ilə yas tutub, el ilə gülən
Xoşbəxtdir dünyada, xoşbəxtdir hər an
Qeyrətli dostuna can qıyan insan!

İlk sözündən danışanı anlayan
Darda qalanların əlindən tutan
Yaralının yarasını bağlayan
Xoşbəxtdir dünyada, xoşbəxtdir hər an
Həyatda mehriban yaranan insan!

Həqiqət yolunda canından keçən
Xəyanət görəndə doğru yol seçən
Ədalət eşqinə sülhə and içən
Xoşbəxtdir dünyada, xoşbəxtdir hər an
Azadlıq uğrunda can qoyan insan!





Yırtıcı düşməninə qan udduran
Nəfəsini kəsib bağrını yaran
Zalımı yuvasında ikən boğan
Xoşbəxtdir dünyada, xoşbəxtdir hər an
Anadan qəhrəman doğulan insan!

Kosmosa ilk dəfə yerdən yol açan
Göylərdə ikinci bir məskən salan
Torpaqdan güc alıb ora nur saçan
Xoşbəxtdir dünyada, xoşbəxtdir hər an
Hünərdə Günəşlə yarışan insan!

Yerində əyləşib, yerində gəzən
Yerində ağlayıb, yerində gülən
Yerində kiriyib, yerində dinən
Xoşbəxtdir dünyada, xoşbəxtdir hər an
Sözünü mənalı danışan insan!

Ay Eyvaz! İnsanın qədrini bilən
Xoş vaxtda doğulub ağ günə gələn
İşıqlı sabaha şəst ilə gedən
Xoşbəxtdir dünyada, xoşbəxtdir hər an
Qəlbini Vətənə bağlayan insan!

***İyun 1981***

## Dağ çayı

Sellər coşan vaxtdır-
dağda bahardır
Dağdan gələn bir çay
kimsəsiz dərəylə
sakit gəlirdi
Birdən sahildə o,
vüqarlı qayanı,
daşları gördü
Ağzı köpükləndi...
hirsləndi birdən,
Dinməz, lal dərədə
bir dəli nərə
çəkdi dağ çayı
Dağlara səs düşdü
onun səsindən
Özünü onların üstünə atdı-
Parçaladı onları
Yerindən oynatdı
aşırtdı qayanı...-
sıldırımdan atdı
Parça-parça edib
sulara qatdı,
çünki onlara
gücü çatırdı...
Dağ çayı hirslidir...
hirslidir hələ
Bu dəm dağ döşündə
yaşıl otları,
yaşıl kolları,





Bir də əzəmətli bir qoca palıdı
gördü dağ çayı
Görünən kimi
bunlar gözünə
nə düşündü bir an...
nə fikrə daldı,
birdən atıldı
Ayaqladı otu, kolları əzdi
ağacı qoparıb
ağzına aldı...
O, bu qüvvətiylə qürrələnirdi-
lovğalanırdı...
Əsirdi, coşurdu-
çalxalanırdı...
Qəzəbindən
şahə qalxırdı dalğası—
dalğalanırdı
İndi o, özünü
güclü,
qüvvətli aslan sanırdı
Aslana dönmüşdü çünki
dağ çayı
...Bir az da getdi o-
qudurmuş aslan
Nəhayət, dağ çayı
dənizə çatdı-
geniş sinəli
nəhəng dənizə.
Elə ki, dağ çayı
dənizi gördü
Qorxudan qurd görmüş quzuya döndü...

Dəyişmək istədi yolunu,
lakin...
bacarmadı, yox...
Dənizdə sularla-
yad dalğalarla
çox çarpışdı, çox...
ancaq nə fayda...
Qarışdı sulara—mavi sulara,
göy ümmanlara
Dənizin əlində...
güclü,
qüvvətli-
O lovğa dağ çayı dalğaya döndü...
hər bir dalğası
damcıya döndü...
Hər bir damcısı
damlaya döndü...
Sonra da,...
sonra da itdi sularda-
mavi sularda,
göy ümmanlarda
O, itdi büsbütün
itdi sularda
O, nəhəng dənizdə görünməz oldu
Bir iz də qalmadı,
qalmadı ondan
Adı dildən düşdü bilinməz oldu,
tanınmaz oldu...
Sonra da...
sonra da itdi sularda,-
mavi sularda,





göy ümmanlarda
O, itdi büsbütün
itdi sularda
O, nəhəng dənizdə görünməz oldu
Bir iz də qalmadı,
qalmadı ondan
Adı dildən düşdü bilinməz oldu,
bilinməz oldu...

***Fevral 1980***

## Qurtuluş

***Dünya hərəkatı haqda***

Öyrəşdiyin zamanda
gah irəliyə,
gah geriyə
tarazlıq...
bir müvazinət yoxsa,
Çalxanan dövranda
ətalət varsa
Azadlıq olmayacaq
İnsan əlindən
bu dünya qurtulmayacaq!

Qaynar həyata baxarkən
Haqqı nahaq yaxarkən
narazılıq...
mühafizət yoxsa,
Göz -görəti
sükunət varsa
Azadlıq olmayacaq
İnsan əlindən
bu dünya qurtulmayacaq!

...Dünyanın baş tacında
Qanun bir deyilsə
dünya təlatümdədir...
insanların sığındığı
saxlandığı qucunda
haqqın tapdağına
bilə-bilə
hökm verilsə
qayda-qanun nədir,
haqq nədir
dünyanın lap o biri ucunda
bir azlıq,
mülahizət yoxsa,
istismar, qəsd ilə
zorakılıq
və ...
əsarət varsa
Azadlıq olmayacaq
İnsan əlindən
bu dünya qurtulmayacaq!

Dünyanın harasında
olursa-olsun
Dünya lap sevinclə dolsun...
təbəssümlə
qəh-qəhə qopsın
dünya
lap gülüşlə dolsun
...Dünyanın harasında
olursa-olsun





Dünyanın lap azca
bir parasında
o ətalət,
o sükunət,
o əsarət varsa
Azadlıq olmayacaq
Neyləyirsən elə
Dünya qurtulmayacaq
Əsir kimi bu dünya
insan...
insan
əlindədirsə hələ
bu dünya qurtulmayacaq
Azadlıq olmayacaq!

## Azadlıq

Yerindən tərpənsə güclü külək tək
İstədiyi səmtə əsər azadlıq!
Zamanın hökmünü silkələyərək
Tələbi yerbəyer düzər azadlıq!

İstəməz təsiri, asılılığı
Sevməz bağlılığı, dayanaqlığı
O ancaq çox sevir çalxalanmağı
Dolaşar dünyanı gəzər azadlıq!

Önündə köləlik tablamaz daha
Son qoyar fəryada, son qoyar aha
Qaranlıq gecədən nurlu sabaha
Yol açar zülməti əzər azadlıq!

Sevinci, gülüşü, sülhün dayağı
Ulduzu, Günəşi sübhün çırağı
Əməli, məqsədi birlik bayrağı
Bütün yer üzünü bəzər azadlıq!

Canında yaşamaq var ki, həvəsi
Güc verər qoluna ən son nəfəsi
Dağıdar zindanı, qırar qəfəsi
Doğrayar dəmiri kəsər azadlıq!

DEKRETİ qaynadar qır qazanında
Qurğuşun əridər şah boğazında
Edam edər zülmü dar ağacında
Haqsızın başını üzər azadlıq!

Eyvazla birləşər yuzlərcə insan
Yəqin ki, dəyişər gördüyün dövran
Etiraz aləmi bürüyən zaman
Meydanda qalib tək süzər azadlıq!

## Gözlər görürəm

Hər şey var insanın xəritəsində
Onların gözündə sərvət görürəm
Yaşayan çox şey var göz didəsində
Gözdə qorxu, təlaş, heyrət görürəm!

İnsan var dərdlidir gülə bilməyir
Gözündən məlalı silə bilməyir
Ümidlə yaşayır ölə bilməyir
Mən onun gözündə möhnət görürəm!





Lalın da, korun da məhəbbəti var
Onun məhəbbəti gözdə oxunar
Gözlərə gözlərlə ilmə toxunar
Gözdə eşq, sevgi-məhəbbət görürəm!

İnsan bir-birinə etibar edər
Gözündən kədəri silinər gedər
Yaş tökər gözündən sevinci qədər
Ağlayan gözlərdə ülfət görürəm!.

İnsanı insana düşmən eyləyən
Qəzəbdə öldürüb, kinə bələyən
Baxışda intiqam, qisas söyləyən
Çox insan gözündə nifrət görürəm!

Köksünə didərgin dərdi əkilən
Talanan sərvətlə bağrı sökülən
İllərlə gözündə dara çəkilən
Yurduna boylanan həsrət görürəm!

Hər bacı gözündə şəfqət, mərhəmət
Hər qardaş gözündə hünər, sədaqət
Hər ata gözündə qayğı, dəyanət
Hər ana gözündə cənnət görürəm!

## Azəri xalqının Avşar elləri

Gücüylə sınanar Avşar bölgədə
Qorxarsa qınanar Avşar kölgədə
Adıyla tanınar Avşar ölkədə
Azəri xalqının Avşar elləri!

Orduda san verməz dava günündə
Yatağa yan verməz dava günündə
Düşmənə can verməz dava günündə
Azəri xalqının Avşar elləri!

Bol-bol çörək verər yoldan gələnə
Böyük kömək verər eldən gələnə
Yüksək dəstək verər beldən gələnə
Azəri xalqının Avşar elləri!

Qorxusuz söyləyər sözünü... ötkəm
Dostuna güc verər, düşmənə sitəm
Qaçmağı ar bilər, saxlamaz matəm
Azəri xalqının Avşar elləri!

Göz götürməyənə bıçaqdı, bıçaq
Pis, namərd əməldən qaçaqdı, qaçaq
İntiqam almaqda qoçaqdı, qoçaq
Azəri xalqının Avşar elləri!

Köhnədən götürər özünə tayı
Dəhnədən götürər içməyə çayı
Təhnədən götürər dostuna payı
Azəri xalqının Avşar elləri!





Dilinə səbəbsiz ağı gətirməz
Yurdunda düşməndən yağı bitirməz
Sərhəddə gözünə yuxu yetirməz
Azəri xalqının Avşar elləri!

Seçər... evi otaqlıya boz verər
Seçər... əli yaraqlıya duz verər
Seçər... başı papaqlıya qız verər
Azəri xalqının Avşar elləri!

Ocağı yaş yarar yaşa dəyəndə
Çomağı baş yarar başa dəyəndə
Yarağı daş yarar daşa dəyəndə
Azəri xalqının Avşar elləri!

Məcbur təslim edər dilanlamazı
Tənbeh edər fərsiz başqanlamazı
Məhrum edər ovdan... ov ovlamazı
Azəri xalqının Avşar elləri!

Dost tutmaz ağlı yox göyçək bənizdən
Alanda qız almaz südü qəlizdən
Yeznə tutsa, tutar qanı təmizdən
Azəri xalqının Avşar elləri!

İstəsə qılıncı qından sivirər
Cəhd etsə çevrilməz çayı çevirər
Qəsd qoysa dağılmaz dağı devirər
Azəri xalqının Avşar elləri!

Bir Avşar oğluyam: mən Avşar Eyvaz
Avşarın tarixi qəti danılmaz
Həqiqət söylədim Avşardan bir az
Azəri xalqının Avşar elləri!

**Möcüzələr**

Dünyanın mürəkkəb sirli gərdişi
Qoca təbiətin zərli çeşnişi
Bilikli alimin ixtira işi
Məəttəl qalmalı möcüzədir, bil!...

Kainat sütunsuz necə dayanır
Günəşlə Yer üzü nura boyanır
Yer ox ətrafında daim fırlanır
Məəttəl qalmalı möcüzədir, bil!...

Təbiətin yeddi möcüzəsi var
Dünyanın "Çin səddi" möcüzəsi var
İnsanın çox ciddi möcüzəsi var
Məəttəl qalmalı möcüzədir, bil!...

Bir cisim yüngüldür, bir əşya ağır
Üzür gəmi suda, qum suda batır
Tüstü göyə qalxır, qar yerə yağır
Məəttəl qalmalı möcüzədir, bil!...

Bir tərəf istidir, bir tərəf buzlaq
Bir tərəf dəryadır, bir tərəf torpaq
Bir tərəf meşədir, bir tərəf çılpaq
Məəttəl qalmalı möcüzədir, bil!...





Soxulcan sürünür, quş qanad gərir
İlan zəhər yığır, arı bal verir
Qarışqa işləyir, zəli qan çəkir
Məəttəl qalmalı möcüzədir, bil!...

Hər bir görüntünün yeddi rəngi var
Hər bütün canlının yeddi bəndi var
Hər cür məsləhətin yeddi gəndi var
Məəttəl qalmalı möcüzədir, bil!...

Tarixi qədimdi, zamanı qoca
Heç nə...heç nə yoxdur Allahdan uca
Allahın sirləri sirli tapmaca
Məəttəl qalmalı möcüzədir, bil!...

Yüz iyirmi dörd min böyük övliya
Məhəmməd peyğəmbər, xeyli əshaba
On iki imamla dini –İslama
Məəttəl qalmalı möcüzədir, bil!...

Bütün canlıların içərisində
Məxluqların ali mərtəbəsində
Tək insan dayanır şah kürsüsündə
Məəttəl qalmalı möcüzədir, bil!...

Bir yanda üstəgəl, bir yanda çıxaq
Bir yanda bölək var, bir yanda vuraq
Bir yanda bir məxrəc, bir yanda ortaq
Məəttəl qalmalı möcüzədir, bil!...

Həyat başdan–başa möcüzə qurur
Çox vaxt ağla, qara üz-üzə durur
Bəzən olur...qovan qaçanı yorur
Məhəttəl qalmalı möcüzədir, bil!...

Maraqlı çox şey var yerin təkində
Qəribə çox şey var göyün üstündə
De, nə yoxdur insan əməllərində
Məəttəl qalmalı möcüzədir, bil!...

Növbəylə on iki heyvan səsləşir
On iki ildən bir illər dəyişir
Bürclərə bölünür—onikiləşir
Məəttəl qalmalı möcüzədir, bil!...

Heç bir güc zamanı saxlaya bilmir
Hərəkət etməyən dünyaya gəlmir
Həyatın qanunu heç dəyişilmir
Məəttəl qalmalı möcüzədir, bil!...

Hər şeydən qüvvəli bir eşq yarandı—
Onun üstündə dünya dayandı
Onunla bir həyat nura boyandı
Məəttəl qalmalı möcüzədir, bil!...

Güllər arasında şahdı qızılgül
Azadlıq carçısı yaranıb bülbül
Bir dəndən yarandı gör neçə sünbül
Məəttəl qalmalı möcüzədir, bil!...





Gör, necə aşiqdir pərvanə şama
Bacarsan!...həyata gəl!..Öl!...yaşama...
Qarışmaz heç zaman səhər axşama
Məəttəl qalmalı möcüzədir, bil!...

Suyun arasından yanacaq çıxır
Vulkan od püskürür, lavalar axır
Su cərəyan verir, lampalar baxır
Məəttəl qalmalı möcüzədir, bil!...

Cihazlar növbənöv, yol çeşid-çeşid
Uzaqda pıçılda, yaxında eşit
Bu əməl o qədər deyildir bəsit
Məəttəl qalmalı möcüzədir, bil!...

Tarixdə yaşanan yaddaşa süzür
Yaxşı da, yaman da illərlə dözür
Yaradan hər şeyi yerbəyer düzür
Məəttəl qalmalı möcüzədir, bil!...

## Ovqat bulağı

***Televiziyada gedən "Ovqat" və "Səhər sovqatı" verilişlərinə həsr edirəm***

Duyğumla bağlıyam söz hikmətinə
Çox məftun olmuşam söz-söhbətinə
Lap çoxdan vurğunam söz sənətinə
Bir bulaq qaynatdın, duyğulu məclis!

Məclisin hər kəsi təsirləndirir
Hər hikmət idrakı qüvvətləndirir
Sözü söz sərrafı qiymətləndirir
Alana söz satdın, duyğulu məclis!

Ruhların ecazkar tilsimlərini
Qəlblərin tərpənməz lal simlərini
Musiqi diliylə səs tellərini
Yerindən oynatdın, duyğulu məclis!

Sən ürəyimi ov... ov, qat eşqinə
Ovçu tək ovla ov, qat nizənə
Yeni ovqat verir "Ovqat" elinə
Sən ovqat yaratdın, duyğulu məclis!

Danışsam sonadək sözüm qurtarmaz
Xeyirli məsləhət faydasız olmaz
"Ovqat"da olmasa bu Avşar Eyvaz
Sıradan çıxartdın, duyğulu məclis!





## II Bölüm

# HİKMƏTNAMƏ

## İradlı maral

Bir-birini hamı sevər
Könüllərdə məlal olmaz!
Ovçu məni vursan əgər
Bu yerlərdə maral qalanız!

Təbiətin düşməni var
Əllər qalxıb silahlanar
Bir gülləylə dünyam yanar
Nanəciblər fikrə dalmaz!

Kaftar tapıb leşi pusar
İlanların zəhmi basar
Sar özünü göydən asar
İlanları ilan çalmaz!

Aslanları bezikdirdin
Ömrümü sən gecikdirdin
Bir balamı perikdirdin
Balan saçın niyə yolmaz?!

Ağrı varsa bu dağlarda
Gülüş yoxsa dodaqlarda
Nalə qopsa... insanlar da
Bu diyarda bunə salmaz!

Ölsəm, balam qəmgin olar
Balam sənə qarğış salar
Ovçu! Balan yetim qalar!
Eyvaz duyar rəngi solmaz!





## Şair fitrəti

Çağlayıb çoşanda şairin təbi
İstəyir dünyanı yığa gözünə
Fərəhli hisslərlə dolanda qəlbi
İstər sevinc səpə bu yer üzünə

Könlümdən keçəni heç kəs anlamaz
Sevgisiz bir könül heç duyğulanmaz
Könüldə duyğusuz bir eşq oyanmaz
Hərdən baxmır könlü şair sözünə

Şairə vergisi göylərdən gələr
Vergini paylayar bərabər bölər
Hər yerdə hər zaman hər şeyi bilər
Şairin qələmi yazar düzünə

Tarix sözü seçər, möhrünü vurar
Tanrı da şairlə ünsiyyət qurar
Eyvaz yer tutarsa, cərgədə durar
Tutmaz... qalıb düşər şair közünə

## Halallıq

Halaldan harama meyli olan çox
Haram yolla haram yeyib doyan yox
Halal yeyən kəsin qarnı, gözü tox
Halallıq insana ucalıq verər!

Hər kim mayasına haram mal qatar
Haramla yığılan var-dövlət batar
Haramçıl batana vaysınar yatar
Halallıq insana toxtaqlıq verər!

Haramzada, Yarəbb, adamdır nədən?!
Haram mal yeyibsə murdardır bədən
Hətta, ölsə ona haramdır kəfən
Halallıq insana üzağlıq verər!

Hallallıq mayası dünya qədərdir
Hallallıq başa tac, qəlbə təpərdir
Hallallıq Tanrıdan gəlmə nəmərdir
Hallallıq insana dayaqlıq verər!

Haram yeyən "mən də varam" deyəcək
Halal yeyən hər gün halal yeyəcək
Hər biri beş arşın kəfən geyəcək
Halallıq insana HALALLIQ verər!

## Daş atan

Hər yerdə
hər zaman
Hamıya, hər kəsə
daş atan insan
Bu səfər bir daşı
bir gölə atdı...
...daş batdı
daşı loppadan uddu
güldü göl...
Hər tərəf güldü insana
tamaşaya durdu
hətta güldü çəmən, güldü çöl...
Daş düşən yerdən
göl ləpələndi
Onun gülüşü
göl boyu səpələndi...





Daş təsir etmədi
gölün cansızlığına
əksinə o güldü
insanın ağılsızlığına
Bu hadisədən,
bu olaydan
diksindi o peşəkar-
o daş atan insan
Göl necə güldüsə,
güldüsə ona
Gülüşü dərs verdi
həmin o,
həmin o
daş atan insana!

## Qardaş hiyləsi

Ölməsəm, sağallam yad gülləsindən
Qohumun silləsi yandırır məni
İsindim qohumun hər bədliyindən
Qardaşın satqını dondurur məni!

Qurd girib ağacı içindən yeyir
Adamın pisini düşməni deyir
Qardaş ki qardaşın qəddini əyir
Bax, o əsl namərddir: qandırır məni!

Dayağam qardaşa qardaş öcüylə
Qartalam zirvədə qardaş gücüylə
Zərbə vurur soyuq qardaş veciylə
Qaratikanlığa qondurur məni!

Özgə zəhər versə əsəri keçməz
Ölüm nöqtəsinə zəhəri keçməz
Düşmən məni kəssə təsiri keçməz
Qardaşın hiyləsi sındırır məni!

Kim kimə baxırsa hər an çəpəki
Allahı Eyvazı əyməsin təki
Əməlçili tutsa əməlindəki
Naçar işiylə sevindirir məni!

## İnsan konseri

Ağlı, qaralı bu dünyada
Adam qara da olur, ağ da
Hətta hərəkət edir
bir bədəndə
bir damarda
ağ qan da, qara qan da
...birdən hərəkətə keçir...
Ağ qan qara qanı
didir,
parçalayır,
yeyir
Əslində ağ qan...
heç özü də bilmir
neyləyir...
Çünki, çalışır
qaranı məhv edir!
Bilmir ki, bununla
özü də ölümə gedir!
...Bu xəstəlikdir-
qan qanı necə yeməsin?





buna heç kəs
heç nə deməsin...
Aman!
İnsanlardan aman!
əti bir,
qanı bir,
canı bir
müsəlmandan aman!
Namusu, qeyrəti, arı,
adı bir, sanı bir,
insandan aman!
Yol verməyin!...
yol verməyin,
İnsan insana qənim kəsilə
xələl gələr
zaval gələr
gələcək nəsilə...
Yol verməyin
insan insana
badalaq ata,
qıçalaya
Aman!
Qoymayın
insan bir-birini
didə, parçalaya...
Qoymayın!
qoymayın
insan insana acı bir söz desin
Aman!
Qoymayın qudursun
axırda...
İnsan ətini insan yesin...

Hazır vəziyyətdə
startda durun
aradan su keçməz
səmimi ünsiyyət qurun
Çalışın
vuruşun
özünüzü
özünüzü ancaq və ancaq
qardaşlıqda
dostluqda yorun...

**Gətirməyən aparmaz**

Dünyaya çağrılan insan
Ana bətninə
əlvida dedi...
...dünyaya gəldi
Yuvasından ayrıldı
ayrılığa ağladı
Onu qarşılayanlar,
başına yığışanlar
şənləndi, sevindi
Dünyaya doğulan insan
lüt-üryan gəl—
ağ mələfədən paltar geyindi.
...Yaşadı, özü bildi neylədi
və bilənlər bildi,
bilməyənlər bilmədi...
Dünyadan
gedəsi insan
vaxt gəldi ömrü bitdi...
Dünyadan





itəsi insan
öldü, həyatdan getdi...
Bu dəfə tərsinə
bir-birinin bəhsinə
Onu yola salmağa gələnlər
o ki var ağladı,
sinə dağladı
O dəfə sevinənlər, gülənlər
O isə nə ağladı,
nə danışdı, nə dindi
Sakitcə yenə ağa büründü...
paltar geyindi...
Necə gəldi lüt-üryan
eləcə getdi lüt-üryan
Dünyaya gələndə
geyindi ağ mələfəni
Dünyadan gedəndə
geyindi bir ağ kəfəni
Həyata
əlvida dedi
dünyadan getdi
...öləndə o özüylə
Dünyadan havayı
nə qopardığını
bilənlər bildi...
Gedəndə o özüylə
özündən savayı
nə apardığını
görməyənlər də bildi...
Hətta,
bilməyənlər də bildi...

## Zamanın dərdi və çarəsi

Yüngül fikirli
ağır zamanın
əhatə dairəsində
çoxdur, doludur insan!
Naşı həkimli
xəstə dövranın
qapalı çərçivəsində
bir-birinin quludur insan!
Zalımın biri
durub aləmi yaxır-
fəqət,
ədalətdən danışır...
əyrilər həzz alır—
dəstək verir,
gəlib, icazəsiz düzlərin
düz işlərinə çox qarışır...
Yalançılar cürbəcür donla
əlində kəndir
özünü çatdırıb
həqiqəti boğur
Bunu görən bəzi qadınlar—
hünərin var onu dindir
o acığa
gündə bir iblis,
bir şeytan doğur...
...Qara ləkəli
və arsız xəcalətli
nə bilir şərəf, ləyaqət nədir
onlarda ləyaqət





on qəpiklik—çox ucuz
bir sarı qəpik qiymətinədir...
Bunu bütün dünya bilir...
Atalar çox gözəl deyir:
"Oğru elə bağırır
doğrunun bağrı yarılır"
Harın, zəngin daha çox
hamısının da qarnı tox...
ac-yalavaclar saysız, hesabsız...
Bir zamanlar necə yaşayacaq, bilmirəm?
zənginlər kasıbsız!..
Qullar yaman artıb
get-gedə qul bazarında
Zəmanəyə təsiri yoxdur
belə bir azarın da
Elə pozulub ki,
hər şeyin nizam-tərəzisi
Qəti qoymaz düzələ
bu işlərin qərəzçisi
çünki, xainlərin
sədaqətdən xəbəri yox...
Nahaqqın haqq qarşısında
artımı, qədəri çox...
Bir də görürsən...
alimin elminə,
aqilin əməllərinə
oturub nadan rəy yazır,
cahil rəy verir...
Bir də görürsən...
mərdə məzarı namərd qazır...
kamilə,

min ağıllıya isə
dərsi bir səy verir...
Mən nə dedim ki?!...
Bu hələ harasıdır?
Bunlar...
Avşar Eyvazın dediklərinin
hələ mində bir parasıdır!

**Zəmanə, yoxsa insan?**

Adamın problemi nə qədər olar
Zəmanə dönükdür, yoxsa insanlar?
Dərdlilər daha çox dözüb oturur
Zəmanə çevikdir, yoxsa insanlar?

Doğmalar get-gedə yadlaşır indi
Yadlar isə çaş-baş qalıb deyindi
Dərdlilər nə güldü, nə də sevindi
Zəmanə sönükdür, yoxsa insanlar?

Əyin-baş cır-cındır, tör-tökülüntü
Daxma sınıq-salxaq, sör-sökülüntü
Maraq yox, çıraq yox, nur bükülüntü
Zəmanə çürükdür, yoxsa insanlar?





**Kölgə**

Doğanda Günəşimiz
göydə gün olanda
Göy üzü tər-təmiz
aydın olanda
Gəlirsən yanıma
az qalırsan
sarılasan canıma
...Hara gedirəm
mənlə gedirsən
Dörd tərəfimə keçirsən
Hərlənirsən...
elə bil nə isə
ölçüb-biçirsən...
gah uzanırsan,
gah qısalırsan
Gün ərzində neçə şəklə düşürsən
Hara gedirəm
mənlə gedirsən
elə bil mənlə əlləşirsən...
...İzləyirsən məni
qarabaqara...
Sanki, güdürsən məni
bəlkə bir niyyətin var?
Mənimlə nə isə dara-bara
salmaq istəyirsən
Niyə məndən əl çəkib
öz xoşunla, öz əməlinlə
niyə ayrılıb getmirsən uzaqlara?
...Qara geyinirəm qara geyirsən

Ağ da geyinirəm qara geyirsən
Hər hansı rəngdə geyim geysəm
sən elə həmişə
öz rəngində
qara qalırsan...
Bilmirəm niyə qarasan
qara rəngi hardan alırsan...
Əl çəkmirsən məndən
mən artıq bezirəm səndən
Bu rəngdə çox dəyanətlisən
sədaqətin var,
qara rəngdə çox sədaqətlisən
Az qalıram heyran olam sədaqətinə
Az qalıram vurulam dəyanətinə...
...İstərəm özümə
həmdəm seçəm səni
sınayam sədaqətini
...Hünərin varsa
göy üzü tutulanda
mənim üstümü qara bulud alanda
hava tutqun olanda
izlə məni qəzadan, xətadan
dərddən, bəladan
qoru, gözlə məni
Qara bulud gəlib
qara gün gətirəndə
axtarıram yoxa çıxırsan
tapmıram səni...
Heç olmasa
öz rəngində
gözümə görün





görüm rəngini ...
...Üstümü tutqun hava-bulud alanda
yanımdan qaçırsan?!...
mən dost kimi
səni yada salanda
arxamdan qaçırsan!...
...Neynirəm sənin tək qorxağı?!...
heç nədən darda etibar itirəni?
...Neynirəm içi boş dayağı?!...
yanımdan qaçıb mənə xəcalət gətirəni?

**Yaş dəyişir**

Çarpışır zamanla, hər şey döyüşür
Əlində əriyir daş yavaş-yavaş...
Gözlərə tor gəlir, saça dən düşür
Görür öz işini yaş yavaş-yavaş...

Gəncliyi qocalıq əvəz eyləyir
Qocalıq dərdini qəmə söyləyir
Göz qoyur... sevinir uşaq neyləyir
Qarışır nəvəylə baş yavaş-yavaş...

Vaxt gəlib yetişir qayıda bilmir
Keçdiyin yollardan izini silmir
Eyvaz! Ötən günlər heç ələ gəlmir
Aşası yolları aş yavaş-yavaş...

## Ayıbdı

Adı iki olmur... mərd adı birdir
Sən mərdi namərdə satma, ayıbdı!
Bu dünya bil, başdan-ayağa sirrdir
Qohumu, qardaşı atma, ayıbdı!

Qaydadır... həmişə dəyişir dövran
Tərəqqi, tənəzzül olacaq hər an
Qalib olar darda dözüb-dayanan
Çalış vurhavurda batma, ayıbdır!

Özü öz işini bilməyən insan
Heç zaman utanmaz öz günahından
Haqqını düz alar Haqq divanından
Qəflət yuxusunda yatma, ayıbdı!

Hesab çəkən gəlib çəkər hesabı
Düz qoyar, düz alar sual-cavabı
Günahlıya çatmaz cənnət savabı
Dünyanı dünyaya qatma, ayıbdı!

Sən bunu gəl, irad tutma Avşar Eyvaza
Eyvaz fikir verməz hər cür qanmaza
Aslanı çaqqalla boğaz-boğaza
Qaynaqlı zəncirlə çatma, ayıbdı!





## Hayıfdı!

Bəyənməzlik edib ayrılma eldən
Yalan söz işlədib buraxma dildən
Küyə düşüb vermə insafı əldən
Yaxşını yamana satma, hayıfdı!

Yox yerdən əlinə maya salanda
Nəfsinin əlində aciz qalanda
Hətta, nəfəs verib-nəfəs alanda
Halalı harama qatma, hayıfdı!

Qəddarlıq eyləyib düşsən də dilə
Eyvazı günahkar tut bilə-bilə
Nahaqqın aşiqi olsan da belə
Haqqı inkar edib atma, hayıfdı!

## Olarsan

Bəxt çəksə göyərər göyərməz daşın
Çatsa arzuların sayına yaşın
Ürəyin sevinsə dərd çəkməz başın
Şad olub gözündən gülən olarsan!

Sevincə tapınıb qəmə bürünsən
Əl üstə oynayıb dizlə sürünsən
Ağlar gözlə, gülər üzlə görünsən
Bivec tək ortada ölən olarsan!

Gününü çarəsiz günə yetirsən
Dərdlidən bir dərdi borca götürsən
Sinəni deşdirib qəlbə ötürsən
Dərdlinin dərdini bilən olarsan!

## Körpə gülüşü

Uşaq himni çalır qığıltısıyla
Dövlətlərə bu səs ip ucu verib!
Körpə himn oxuyub qaqqıltısıyla
Ölkələr bu notu himnə çevirib!

Orijinal muğam—ana laylası
İlk muğam yaranıb beşik başında
Ən ucqar nöqtədə körpə dünyası
Abidə yaradır bir yurd daşında

Oğlan–arxa-dayaq; oğlan–qol-qanad;
Qız–huri-mələk; qız–Günəş-zümrəsi;
Oğlan–qeyrət rəmzi; oğlan–güc, inad;
Qız–ismət rəmzi; qız–həyat çeşməsi:

Oğlan bir əsgərdir, qız da bir əsgər
Oğul Vətən oğlu, qız elin qızı
Sərt qışa, çovğuna oğlandı səngər
Qızdır təbiətin baharı, yazı

Qız ana olub bir ev isidəcək
Oğlan ata olub daş daşıyacaq!
Analar yol kəsib sülh istəyəcək
Atalar yol açıb kol qaşıyacaq!

Atanı, ananı bir-birlərinə
Möhkəm, sıx tellərlə bağlayan körpə
Gələcək sənindir...
Müdriklərinə
Bel bağla!...Bəşəri saxlayan körpə!





Simfoniya çalar "inqə" bu səfər
Bol sevinc gətirər çağa gəlişi
Uşağa qoşulub Eyvaz da gülər
Dünyanı güldürər körpə gülüşü

## Haqq işığı

Haqq istəyənlər arxamca gəlsin
Biz gedək peyğəmbər yoluna düşək!
Hər insan paklığı tək meyar bilsin
Haqqın ziyasında, nurunda bişək!

Yüz iyirmi dörd min peyğəmbər adı
Yaşayıb... yaşayır... on iki imam
Hər kəsdən, hər şeydən uca Tanrıdı
Haqqın dərgahında kürsüdü İslam!

İbrahim peyğəmbər dostluq rəmzidir
Öyrən insanlığı, səbri Əyyubdan...
Paklığı Yusifin həyat tərzidir
Öyrənin zəhmətlə tədbiri Nuhdan!...

Məhəmmməd peyğəmbər "Quran" elmini
Çevirib maddələr məcəllәsinə
Toxuyub... yüksəldib hər bir ilməni
Bax... Hava, Su, Günəş dərəcəsinə!...

Nəzarət edənin Pərvərdigardır
Elə işlər tut ki, Haqq olsun yarın
Allahın qərarı-qəsəmi vardır...
Sən çalış Eyvaz tək paklıqdan barın!...

## Niyə bölündün?!

*(əvəzlik formasında)*

Billəm... mənə dünya əzab, işgəncə
Bil ki... sənə dünya oyun, əyləncə
Bilsin... ona dünya zindan, məngənə
Dünya, niyə sinif-sinif bölündün?

Biz... çoxuq, ağ, qara... adımız insan
Siz birsiniz, kürə... adınız zaman
Onlar təkdir başçı... adları tufan
Dünya, niyə sinif-sinif bölündün?
Mən... Biz—məzlum tayfa: ələbaxanlar
Sən... Siz—qəddar hakim: qanunsıxanlar
O... Onlar—zalım şah: odayaxanlar
Dünya, niyə sinif-sinif bölündün?

Mən... Allah yanında yazıq bir bəndə
Sən... şeytan donunda saldın kəməndə
O... quduz qanında getdi kəfəndə
Dünya, niyə sinif-sinif bölündün?

Biz... nəçiyik axı, günahımız nə?
Siz məmur... etdiniz yüz cür həngamə
Onlar... hökmlü padşah qoyur viranə
Dünya, niyə sinif-sinif bölündün?

Mən... ömrün bir günü, ömrüm qısadır
Sən... ömrün bir ayı, yerin masadır
O... ömrün bir ili, bəxti tasadır
Dünya, niyə sinif-sinif bölündün?





Biz... əməkdar işçi, başımız dərddə
Siz... oyunbaz ağa, zikriniz nərddə
Onlar... qanyeyən it, gözləri mərddə
Dünya, niyə sinif-sinif bölündün?

Mən, Sən, O çörəklə qidalanırıq
Biz, Siz, Onlar birgə silahlanırıq
ŞÜURU öldürüb günahlanırıq
Dünya, niyə sinif-sinif bölündün?

Mən... Avşar Eyvazam, Sən...Qəmbərqulu
O... dövran balası, Biz... Azər oğlu
Siz... siyasi övlad, Onlar... şər qulu
Dünya, niyə sinif-sinif bölündün?

## De ki...

Dünya kinə dolanır
Dünya çirklə bulanır
Dünya qanla sulanır
De ki... "Evi" boşaltsın!..

Dünya gəlsə özünə
Dünya getsə düzünə
Dünya baxsa sözünə
De ki məni yaşatsın!..

Dünya dursa pul üstə
Zindan qursa pul üstə
Boyun vursa pul üstə
De ki sənə daş atsın!..

Dünya haqqı itirsə
Yoxdan bəla gətirsə
Gücü şaha yetirsə...
De ki ona baş qatsın!..

Dünya Yerdən tikilir
Odu Göydən tökülür
Eyvaz! Həyat sökülür
De ki... İnsan çaş yatsın!..

### Şəhid olsam...

*Vətənin unudulmaz şəhidlərinə*

Kaş bir şəhid ömrü qədər
ömrüm olaydı...
Vətən yolunda şəhadətə yetəydim
qanım axaydı,
torpağımı qan sulayaydı
Vətən gülü adında
Vətən torpağında
mən də bitəydim...
Çünki, şəhid məzarı önündə
and içirlər...
Vətənin ən dar günündə
candan keçirlər!..
Qürrələnsə də...
Şəhid üstünə şəhid versə Vətən
onları anıb sarsılır!
Kədərlənsə də...
Yağı düşməni
üzərində gəzən görsə Vətən
pörşələnib için-için





yanıb qarsılır...
... Vətən!.. Vətən!..
ölməmişəm, bil ki varam...
şəhid olmadan mən
düşməni ayaq altda yalvardaram
axı, mən bayraq götürüb
Şəhid önündə and içmişəm...
And içən günü mən
düzmənə kəfən biçmişəm!..
... Ortalığa qan salacam
Mən intiqam alacam...
mən intiqam alacam!..
Düşmən üzərində
Q Ə L Ə B Ə çalacam!..
İşğaldan azad edib torpağımı
bayrağı sinəmə sıxacam
başım üzərinə qaldırıb
onu Şuşa qalasına
öz əlimlə özüm taxacam!
Ən uca zirvədən
vətənimə məğrur baxacam!
Ey Vətən!
Məni sən
Şəhid etsən
nə dərdim?!
Aparsan şəhidliyə
mən də gedərdim!..
Qələbə üçün sənin uğrunda
şəhadətə yetərdim
Şəhid gülü adında
müqəddəs torpağında

şəhid olsam...
şəhid olsam nə b i t ə r d i i m...
Ey Vətən!
Məni sən
Şəhid etsən
nə dərdim?!
Şəhid gülü adında
müqəddəs torpağında
şəhid olsam...
şəhid olsam nə b i t ə r d i i m...

## Zamanın hökmü

Tarixi parçalayıb didim-didim didəcəm...
tarixi parçalayıb didim-didim didəcəm
Onu doğrayıb qırıq-qırıq edəcəm
Hökmü zaman verir
mən zamanam...
Hökm mənim əlimdədir
hökmü icra edən bir insanam.
...Hər yerdə istila...
işğal...
əsarət
Dünyanın sonuna yoxdu nəzarət!..
Gözləyirəm...
bir gün gələcək
Yer üzündən mən siləcəm qanlı tarixləri
Mən bilirəm...
Haqq özü yüksələcək
onda,
qardaş malı tək tən böləcəm şanlı tarixləri!..





Sülhü bərqərar edib
haqqı'ədalətlə bir qaytaracam
bütün Yer kürəsinə...
yazacam şanlı tarixləri
Hər şeyi dərbədər edib
yatırım yatıracam
bu Dünyanın gərdişinə
pozacam qanlı tarixi.
...Əməlimlə mən özüm pozacam
ləkəli qanlı tarixləri
Hökmümlə mən özüm yazacam
şərəfli şanlı tarixləri
Çünki, mən Zamanam...
mən icraçı bir İnsanam!..
Gedəcəm lap dərinə
pozacam ləkəli qanlı tarixləri
Bil ki, onun yerinə
yazacam şərəfli şanlı tarixləri
Pozacam...
pozacam qanlı tarixləri!..
Yazacam ancaq şanlı tarixləri!..

## Dünyanın tarazı

Dünyamız...
Taraz yüklü bir atdı
gəlin görək taraz
necə əyildi,
dünya necə batdı...
Birimiz
onun üstündə gedirik,

qalanlarımız yanınca...
Gedə-gedə,
hərəmiz bir cürə
dünyamızı
özümüz əyirik
"haa" - deyib
"haa" eləyib
mənzil başına çatınca...
Mənzil bilirsən hardadır?
Deee... bax orda,
yəni gorda...
Yanınca gedənlərin
biri yükün bu tayından
yeyə-yeyə harınlaşır,
yük əyilir o biri tərəfə
biri də o biri tayı sökür
zənginləşir
yük bu dəfə
əyilir o biri tərəfə...
Görənlərdən biri oğurlayır,
biri tamah salır
biri bir şey qoparmaq üçün
yükdən bərk sallaşır!..
Hərə bir şey aparır,
biri haramlaşır,
biri halallaşır...
Yenə taraz
düz dayanmır,
yenə pozulur...
belə olan halda
heç kəs oyanmır





dünyada
hər şey əyriyə yozulur...
Dünya dediyimiz bu at,
insana oxşayan camaat
məcbur qalıb
yükü əyri aparır
çünki, hərə yüklü taydan
əlinə keçən bir şey qoparır...
At belində oturan
uzaq mənzilə yük aparan
onlarla
nə bacarır
nə də yük qoruya bilir
Yük
gah bu tərəfə,
gah o tərəfə əyilir...
o, özü də bilir ki, ac qala bilməz
ac qalsa onun
öz dünyası düzəlməz
O da bir xardal toxumu qədər
yükdən bir az
azuqə götürdü
ac qalmasın deyə
bir təhər
mədəsinə ötürdü...
Bu dəm onda baş verdi
bir qanazlığı
daha da çox pozuldu
taraz yükün
tarazlığı...
...Çox danışdım

nəysə,
deyim xülasə...
Gördüyün dünyanı,
dünyanın tarazlığını
əvvəl bilə-bilə qəsdən
özümüz
öz əməllərimizlə əyirik
Sonra gileylənərək hərdən
özümüz bu dünya qəti
düzəlməz deyirik!
Dünya, göyün nurunu sök,
yerin təkini sök...
bol olsun nemət,
düzəlsin qəddi-qamət!
Gözləri tök
heç kəs heç nə görməsin,
Qır ayaqları heç kim
heç nə gətirməsin
Əllərini kəs
heç kim heç nə götürməsin
Ağızları tik,
yemək növlərini kəs
heç kim heç nə yeməsin
düzəlsin dünya,
dünya
bir də əyilməsin...
Dünyaya dəyən zərbə
onu əyənə dəysin
Nə dünyanın tarazlığı,
nə də taraz yükü əysin...
Bir də pozulmasın





nizam-tərəzi,
bir də pozulmasın
dünya tarazı—
Heç kəs
heç harda
heç nədən
qalmasın narazı...
olsun hamı yaşamağa
yaşamağa razı

### Halal adam rütbəsi

Qırx adam toplandı
şahın tapşırığıyla
Bişmiş toxum paylandı
halal adam axtarışıyla...
40 adam şah olmaq niyyətində
40 toxum əkdilər
40 günün müddətində
40 cür zəhmət, zillət çəkdilər!..
Dolayı yollarla birtəhər
toxumu bitirdilər
bu şad xəbəri bir səhər
şaha,
şaha yetirdilər...
40 halal adam saraya cəmləndi
onların içində biri,
biri çox qəmləndi...
Çünki, hamı gülü bitirib gəlmişdi
Məsələ məlum:
Şah çıxdı taxtına

Dedi halalların qırxına:
"Bişmiş toxum, deyin, necə bitərdi?!..
... içinizdə halal adam bircə nəfərdi!!.."
... Haram yolla gül bitirən haramlar
el içində çox alçalıb
alçaqda qaldı
Gül bitirə bilməyən
o bircə nəfər yüksəlib
"halal adam" rütbəsi aldı...
Hələ üstəlik
halallığa görə
şaha varis secildi
Şah oldu
şah taxtına qədər
halallıqla ucaldı
Yenə ədalətli və...
halal olaraq
halallıqdan güc aldı
Elə halallıqla da
şah taxtında qocaldı!..

**İnsanın insandan fərqi**

İnsanın biri hey... qurub yaradır
O biri insansa söküb dağıdır
Digər bir insanın zehni bağlıdır
Şüurdur insanla insanın fərqi

Göydə min-min ulduz yanır parlayır
Dünyaya işığı Günəş paylayır
İnsanı həyata insan haylayır
Şüurdur insanla insanın fərqi





Tarixdən uludur, zamandan qoca
Qayadan möhkəmdir, dağlardan uca
Qılıncda kəsərdir, zindanda baca
Şüurdur insanla insanın fərqi

Qaranlıq tərəfi insan gizlədir
Aydınlıq tərəfi onsuz üzdədir
Kimliyi—keçdiyi yolda-izdədir
Şüurdur insanla insanın fərqi

Alimlik, cahilik həyat naxışı
Görən iki gözün fərqli baxışı
Bir şeydə çox pisdir, bir şeydə yaxşı
Şüurdur insanla insanın fərqi

İnsan var ölümdən qorxur, çəkinir
İnsan var ölümü bixəbər gəlir
İnsan var ölümə şəst ilə gedir
Şüurdur insanla insanın fərqi...

Duyğusal insanın duyumu dərin
Ürəyi məskəni olub dərdlərin
Gözü yeri olub çox sevinclərin
Şüurdur insanla insanın fərqi...

Dahilər, şairlər kəlam divanı
Müdriklər, cəsurlar tutar cahanı
Acgözlər, quldurlar yeyər dünyanı
Şüurdur insanla insanın fərqi

Həyatda arzusuz bir insan yoxdur
Eyvazın arzusu çoxdan da çoxdur
Mən acgöz deyiləm, gözlərim toxdur
Şüurdur insanla insanın fərqi

## Yoxdan bəla gəlməz

Zaman düz demir ki haqqı düzünə
Tarix ləkə yaxır özü-özünə
Vaxt susur... boylanır insan gözünə
Haqdan cəza gəlir Yer kürəsinə!
Harınlıq insanı məst eləyir ki,
Nifrət məhəbbəti üstələyir ki,
Yaranan həyata qəsd eləyir ki,
Düzgün qəza gəlir Yer kürəsinə!

Eyvaz! Bu dünyanın qarnı yırtılsın...
Qoyma qalan qalsın üzü sırtılsın
Hay sal... qaçan qaçsın canı qurtulsun
Qeybdən hoza gəlir Yer kürəsinə!

## Dünyanın haqq-hesabı

Sən kiminlə yatdın nəfəs-nəfəsə
Qorxuya haqq-hesab vermədin, dünya?!
Haqq deyəni tutub saldın qəfəsə
Doğruya bir savab vermədin, dünya!

Haqsızlıq nədəndir?.. Soruşdum səndən
Qorxmadın... söz açdın əməllərindən
Səninlə qətiyyən barışmaram mən
Sorğuya düz cavab vermədin, dünya!





Meydan sulatdırdın qan içən qıza
Gör neçə ərəni verdin güdaza
Niyə gor qazdırdın Avşar Eyvaza?
Oğruya min əzab vermədin, dünya!

## Qəm qalası

Güc gəldi dərd mənə əydi qəddimi
Dərd çəkə-çəkə mən ikiqat oldum!
Qəmlənə-qəmlənə aşdım həddimi
Ürəkdə, ciyərdə qoşa çat oldum!

Fürsət tapdı fələk durdu qəsdimə
Baxmadı təpəmdən çıxan tüstümə
Kədər qoşun... qoşun çəkdi üstümə
Özüm də bilmədim necə mat oldum!

Parçalaya bilməz gülüş qüssəmi
Təpinib qorxutma zülmü, sitəmi
Yara bilməz sevinc mühasirəmi
Qəmdən qala qurdum... çox rahat oldum!

III Bölüm

# MİNİATÜR SƏPKİLƏR





## Ad günü

Məqsəd qoydun qarşına
dost-tanışı yığdın başına
Sevinə-sevinə qeyd etdin
təm-təraqla
ad gününü keçirtdin...
Pis olub kədərlənmə qəti
sadəcə onu bil ki
Yaşının üstünə bir yaş da gəldi
Taledən olan ömrün
bir il gödəldi...

***

Dünya bir qəfəs...
bizi bura kim salmış?..
niyə qapanmışıq?!..
Elə biz
burda doğulub,
burda yaranmışıq
Bura bizə bir məhbəs...
burdan biz ayrılsaq,
yaşaya bilmərik!..
Yaşamasaq ölmərik...
Yaşamaq ən böyük həvəs...
bu həvəslə biz məhbəsdə,
qəfəsdə olsaq da
sevgi-məhəbbət bizimlədir
daima o
bizimlə dolaşacaqdır
Bizi indiyə qədər
o yaşadıb...
o da yaşadacaqdır!

***

Ən acı həqiqətin dadı
onun şirinliyindədir...
Çünki,
onun qüvvəsi
kökünün dərinliyindədir!..

* * *

Qolu güclünün güclü qolu,
zoru varsa,
zəifin də iti kamalı
güclü tədbiri var
Güclü kimisə, nəyisə qırsa,
aciz qalıb bir gün də o,
zəifə uduzar...
Gücünü gücsüzə
göstərən güclü
sanma ki, sonda
qalib qalacaqdır
Zəif bildiyin kəs
güclü tədbir ilə qisasını
sonda güclüdən
iki qat üstün alacaqdır!

***

Yalan çox yüyrəkdir
onun sürəti
əyriboyun dəvənin
ləngərliyindədir
Həqiqət daha ürkəkdir
onun teli
əsən mehin
fəndgirliyindədir!..





***

Ana
evin dünyası
Ata
sütunu...
heç kəs görməsin
onların tabutunu
Onların qədrini
sağlığında bil
Əgər onlar dünyadan köçsə,
həyatın dözülməz,
çox ağır keçsə
daddıracaq sənə...
daddıracaq zəqqutunu!..

# IV Bölüm

# TƏHLİLNAMƏ





## Həqiqət danılmaz

Nadana, cahilə istəyirsən bir,
İstəyirsən on min kəlmə de...qanmaz!
Abırsızı volfram sayağı bişir...
Burda yanmasa, heç gorda da yanmaz!

Ad-san keşiyində durmuşam sərvaxt
Əyriləri əyib burmuşam çox vaxt
Yox!.. Nə düz, nə əyri deyil baxtabaxt
Əyrilər özünü heç əyri sanmaz!

Məcburi qaydada... qanmaz qansa da
Olmazın əzabla... yanmaz yansa da
Varlığını Eyvaz danmaz... dansa da
Ömründə həqiqət özünü danmaz!

## Haqq itkisi

Ağırdır zaman
Xəstədir dövran
Neyləsin insan?
Haqlı öz haqqını ala bilmir...
Yoldan çıxanlar yola gəlmir...
axı, neyləyəsən ki,
kimi teyləyəsən ki...
Haqsızı otuzdurasan öz yerinə?
Haqlının öz haqqını
qaytarasan özünə?
... Heç nə yoxdur bu ölçüdə,
bu biçimdə

Haqq itib... Tapılmaz yüz ilə
Çox çətindir zalım insanların içində
piyləyib zamanı,
piyləyib tutasan dilə
Haqsızı kölə edib
otuzdurasan öz yerinə
Haqlını şah seçib, şah qoyasan Yer kürəsinə
Nə hakim tapılır, nə də loğman
Tapılmır dərdlinin dərdinə dərman
Bu nədir?.. Nədəndir bir an
nə ölən dayanır, nə də öldürən?
Kimdir quran, kimdir uçuran?
Gücünü kimdir kimə bildirən?
... baxın, dünyanı insan izləyir
Baxın, baxın dünya bizi gözləyir!..

**Əyləşib**

Haqqım var ölkəmdə göyərim, bitim
Ümidim bir qara daşda əyləşib
Dövlət tərəfindən yetiməm, yetim
"Xala"lı, "Bibi"li başda əyləşib

Xəbis dürrü necə dərə bilər ki?!..
Sözü baqqal nə cür hörə bilər ki?!..
Ləli misgər necə görə bilər ki?!..
Göz öz yerində yox... qaşda əyləşib

Kürsüyə yüksəlib gözündən gülən
Tanınmır Vətənin dərdindən ölən
Bir qələm yazıdır... əlimdən gələn
O da göz nurumda—yaşda əyləşib





**Mən kiməm**

Mən suyam...
İki tərkibdə bir formulam
Biri yanıcı, biri yandırıcı
nə yananam, nə yandıran.
...Mən ancaq...
yananları söndürməyə lazımam
Mən eşqəm...
İki cür yaranıram
nifrət və qəzəbdən doğuram
sevgi axtarıram...
yol ayrıcında
dururam...
Tapan kimi mütləq məhəbbət oluram!
Mən çırağam...
iki qüvvə ilə yanıram
Həyat durduqca yanacağam
zülməti işıqlandırmağa
hamıya lazım olacağam
Mən nəfəsəm...
iki səsli bir həvəsəm
biri gedən
biri gələn
dura bilmirəm
Çox çalışıram
bircə dəfə qoşa duram
ara vermirəm
Çünki bütün canlıları
mən yaşadıram.
Mən dəyərəm...
İki məhfumla ölçülürəm

biri saf-çürük, biri dolu-boş
biri az-çox, biri var-yox
biri xeyir-şər,
biri...
...müxtəsər
Mən dəyərə qiymət verərəm
haqq var, haqqa gələrəm
haqla yüksələrəm
çünki mən dəyərəm...
Mən insanam...
iki əməllə tanınanam
biri özüm kimi
biri özgə kimi
Özgə yaddır mənə
necə yəni?
Mən yad olanam?
Dəyişmərəm özümü...
olduğum kimi qalanam.
Mən maqnitəm..
iki qütbdə bir cazibə qüvvəsiyəm
biri itələyici
biri çəkici
Mən məcbur olsam da
qəlbən istəsəm də,
özümə onu mən çəkmərəm
İstədiyimi məcbur da alsalar
mən ondan əl çəkmərəm
Mən bayrağam
iki varlığa bir dayağam
biri Xalq,
biri Dövlət





Xalqım nə qədər var
mən onunla olacağam
Mən ancaq Dövlət üçün
yüksəlib ucalacağam
Mən Eyvazam
Mən Avşaram-Eyvaz adım,
Avşar elim,
mən kiməm?
Nə bilim?
Onu bilirəm ki, həyatda varam
iki adı üstümdə ömür boyu
mən yaşatmaram...
Mən bir adda yaşayıram
Xeyirxah olmaq üçün
çox işlərə qarışıram...
Kimisə, nəyisə yaşatmaq üçün
heç kimə mən daş atmaram
İki adı üstümdə
ömür boyu mən yaşatmaram
İki adı üstümdə
ömür boyu mən yaşatmaram...

*1996-ci il*

## Ən varlı acgöz

Qırnaşıb yaxamdan nə bərk yapışdın
Bəlkə bir borcum var sənə... bilmirəm?
Baş aparan, zəhlə tökən, geri dur
Boş yerə xərcim var yenə... bilmirəm?

Qaraçı kimi nə qırsaqqız oldun
Of-şivən qopartdın, başını yoldun
Sanki sən tək ayaq, tək göz, tək qoldun
Fağır tək keçirsən önə ...bilmirəm?

Sənin hər şeyin var...nəyin çatışmır?
Bandromlu pulların pula qarışmır
Qızılın,zinətin ələ sığışmır
Görəndə yanıram...sönə bilmirəm

Bəs mənim nəyim var? Varlı kimiyəm
Dəryada yelkənsiz, pərsiz gəmiyəm
Şax dursam da dərdlə qəmin cəmiyəm
Dərd gəlir dərdin üstünə... bilmirəm?

Mən Avşar Eyvazam, çox vüqarlıyam
Əlini tutdumsa, səndən varlıyam
Varın var...sən acgöz, mən qürurluyam
Qürura gələrlər mənə!... Bilmirəm?

**Namərdə aman versən**

Düşmənlə namərddə fərq axtarırsan
Düşməndə kişilik, mərdlik tapırsan
Cəmiyyət içindən pisi atırsan
Namərdə dəymirsən tayı çoxalır

Keçdiyin yollara gizli tor qurur
Zərbəni həmişə arxadan vurur
Bilmirsən...qarşında maskada durur
Namərdi yıxırsan sayı çoxalır

Namərdin namərd tək arxası var ki
Batanda–dartmağa"qağa"sı var ki
Hər iki qulaqda sırğası var ki
Namərddən keçirsən payı çoxalır





**Varlı kimdir?**

Acgöz deyilsənsə, demək varlısan
Sən əyilmirsənsə...çox vüqarlısan
Qeyrət çəkirsənsə, daha karlısan
Həyatın meyarı insanlıqdadır!

İnsanlıq böyükdür, ölçüyə gəlməz
İnsanlıqdan çıxan yuksələ bilməz
İnsan varlığını ikiyə bölməz
İnsanın dəyəri insanlıqdadır!

Mən Avşar Eyvazam, haqqdan gəlirəm
Həyatı sevirəm, eşqi sevirəm
Hər cürə ölçürəm...sonda bilirəm
Ölçünün qədəri insanlıqdadır!

**Yazıq**

İnsafı, mürvəti, ədaləti yox
Yoxluğu donduran insana yazıq!
İslamiyyətindən kafirliyi çox
Çoxluğu dolduran insana yazıq!

Istəsən özündən verməz bir sədəf
Özünü müqəddəs bilən naxələf
Allaha xoş getməz işlərə tərəf
Meylini artıran insana yazıq!

Xeyirxah danışıb, bədxahlıq edən
Yaxşılıq söyləyib, pislik törədən
Mərhəmət deyibən, fəqir incidən
Haqqını pozduran insana yazıq!

Qohumla, qardaşla küsülü ölən
Ölənin dalınca əl çalıb gülən
Bir insanlığını ikiyə bölən
Adını batıran insana yazıq!

Vicdanında ləkə, əlində naqan
Gözündə küdurət, dilində böhtan
Beynində ədavət, qəlbində şeytan
Bəsləyib yatıran insana yazıq!

Özünü yaxmaqçün ayaq iyləyən
Bir qarın yeməyə qapı sümsünən
Boğazı xaltalı yedəkdə gəzən
Tulanı andıran insana yazıq!

Boyu, bazburutu, gərdəni gərdən
Vücud sür-sümükdən, şişman dəridən
Üstündə hərləyib bir baş, bir bədən
Ayağı yorduran insana yazıq!

Şər qüvvə altında dühazar olan
Bacarsa, insanı ilan tək çalan
Arvad tumanına başını salan
Gizlənib oturan insana yazıq.

Düz işi qəsd ilə çəpinə dartan
Yaxın ətrafına tikan batıran
Cəmiyyətə ağır ziyanlıq vuran
Ağlını azdıran insana yazıq!





Özgənin mülkünü özünə çəkən
Tabeçiliyində olanı əzən
Yoluna çıxanın başını kəsən
Yurdunu yandıran insana yazıq!

Baxın...baxın onda olan qeyrətə
Günah etdi, batdı ağır töhmətə
Sərfə bazarında ucuz qiymətə
Namını satdıran insana yazıq!

Çox olsa məsələ tənlik qurular
Məsələ həlliylə tez həll olunar
Bir məsələnin tək...bircə həlli var
Eşşək tək anqıran insana yazıq!

Mən Avşar Eyvazam, mərdəm, mərdə mərd
Bacarmaz mənimlə hər yetən namərd
Namərdə dözülməz dərd verirəm, dərd
İçini dərd qıran insana yazıq!

**Özündənçıxan!**

Nəyinsə xətrinə dosta daş atma
Daşa basılanda dözməyəcəksən!
İnsanlığı ucalt...üz parıldatma
Qınansan xoş üzlə gəzməyəcəksən!

Ləkəsiz adına ləkə gətirmə
Eyibli eybini gizlədə bilməz
Qoru mənliyini qoru, itirmə
Alçalan bir daha yüksələ bilməz

Üstün tuta-tuta uzaq yadları
Yaxın tanışları bəyənməmişik
Doğrulda bilməzdik etimadları
Qardaşımıza da güvənməmişik

Doğma qardaş dönub ögeyləşəndə
Əlbəttə sel səni aparacaqdır
Qohumlar soyuyub özgələşəndə
Tək qalsan yel səni aparacaqdır

Başın sığallansa yad əlləriylə
Dabanınla təpik atma qardaşa
Danlansan Eyvazın bəd dilləriylə
Daha tez ayılıb düşərsən başa

## Molla

Şərt o deyil ki tək "Quran" oxuya
O gərək pak ola, cənnət qoxuya
Təpədən dırnağa qanun-qaydaya
Öyrədə oğlunu-qızını molla!

Özündən heç nəyi etmədən məsrəf
Hamıdan, hər şeydən güdür ki, bir nəf
Qızınmaqdan ötrü özünə tərəf
Çox eşir ocağın közünü molla!

Zülmətdən işığa heç tələsməyir
İki göz əyrini düzdən seçməyir
Gözü görə-görə ağlı kəsməyir
Yüz faiz kor edir gözünü molla!





Həqiqət görəndə qalırsa çaş-baş
Nahaqdan atırsa hərəyə bir daş
Əməldə şeytana olursa yoldaş
Göstərir hər bir üzünü molla!

Hörmətə, izzətə darlıq edirsə
Dostluğa, ülfətə yadlıq edirsə
Kini-küdurəti təbliğ edirsə
Dərk etmir hələ ki özünü molla!

Haqq işi doğru-düz deyə bilməyir
Hamıya hər şeyi yalan söyləyir
Daldada Şümürə biət eyləyir
Tanımır yəqin ki özünü molla!

Düz tuta nəfsini, ibadətini
Tanıda nəslini nəcabətini
Göstərə rəhmini, kəramətini
Bax, onda cəlb edir yüzünü molla!

Allahı tanıyıb sitayiş etsə
O, Peyğımbər, İmam yoluyla getsə
Pak, təmiz əməllə ölümə yetsə
Yaşadar hər an gündüzünü molla!

Kamalın varsa diz üstə sürünmə
Layiq olmadığın yerdə görünmə
Eyvaz, haqqı söylə...heç vaxt ərinmə
Öyrənsin hər şeyin düzünü molla!

## Manyakdan kələkbaza

Hiyləgər, kələkbaz əl çəkən deyil
Düşənədək özü öz kələyinə
Biqeyrət şarlatan qol bükən deyil
Dəyməyincə balta öz biləyinə

Əlləri əyrinin əli sökülməz
Barmaqlar dirsəkdən bir-bir qopmasa
Əyriağızlının ağzı tikilməz
Sözü danışmağa adam tapmasa

Xain gözlü paxıl qəlbli həsədlə
İçindən-içindən çox pis alışır
Yalançı, böhtançı hansı məqsədlə
Heç özü də bilmir kimə çalışır

Qandığından artıq qanmaz qanmayan
Tappatapla ona paz vurulsa da
Yandığından artıq yanmaz yanmayan
Çırthaçırtla ocaq–od qurulsa da

Bütün varlığıyla çalışır demək
Manyak hər bir gözəlliyin məhvinə
Manyakı ayaqdan asasan gərək
Gördüyü dünyanı görsün tərsinə





## Kafirdən namərdə

Şeytana, kafirə lənət oxuyan
Dəyişik görünür qiyafəsində
Yol kəsən, tor quran, cələ toxuyan
Gizlənib dayanır haqq kölgəsində

Bilə-bilə naqis yolunu azar
Elə qarşı çıxan olar dühazar
Mərdə məzar qazar hər mərdiməzar
Paxıl, satqın durur künəlgəsində

Cahil anan deyil dünya yaxıla
Namərd yanan deyil dünya sıxıla
Eşşək qanan deyil dünya dağıla
Nadürüst görünür binəlgəsində

## Mərdiməzara nə lazım?

Yox yerdən yaranmır ki mərdiməzar...
Anası, atası, əcdadı vardır
Genindən keçmədir ona
bu azar
Mərdə məzar qazar-bu aşikardır

Mərdiməzar kimdir? Necə adamdır?
Şeytana şükür!-deyib ona söyərlər
Mərdiməzarı ha
yandır, ha qandır
Qanan deyil...ondan uzaq gəzərlər.

Elə zərbə vur ki mərdiməzara
Unuda bilməsin o dünyada da
Ləkə yedirt...
salsın içinə yara
Acı dadla gəlsin damağı dada!

**Zəmanə gədaları**

Çox şeyi bilərsən oda düşərsən
Bilikli olmasan yaxşıdı, canım!
Oda çox meyl etmə qarsar, bişərsən
Töhmətdə qalmasan yaxşıdı, canım!

Cəmiyyət xəstədir sağalan deyil
Dərdlinin dərdinə ağlayan deyil
Sarıyıb bir yara bağlayan deyil
Qəhərdə solmasan yaxşıdı, canım!

Qanunlar verilir qovluqda qalır
Həm də camaatı dərd-sərə salır
İş görən rüşfəti qabaqcan alır
Cəncəli salmasan yaxşıdı, canım!

Ölkəmiz hər işdə siyasiləşib
Məmurlar bir başa çox dahiləşib
Qaydalar seçilib siyahılaşıb
Başını yolmasan yaxşıdı, canım!

Haqqına biganə qala bilməzsən
İstəmə, haqqını ala bilməzsən
Zəfər marşını sən... çala bilməzsən
Yollarda ölməsən yaxşıdı, canım!





Çaşıb haqqı desən, səni satarlar
Nahaqdan zindana tutub atarlar
Yeməyə qəsd edib zəhər qatarlar
Payını bölməsən yaxşıdı, canım!

Bu həyat güc gəlir Avşar Eyvaza
Dərdini söyləməz o hər qanmaza
Gədalar ağzını verərlər boza
Heç fikrə dalmasan yaxşıdı, canım!

**Alçağı alçalt**

Adam var özünü tanımır hələ
Aləmə bəs səni necə tanıtsın?
Adam var özünə gəlmir yüz ilə
Əlacı: o dünyaya:-gecə tanıtsın...

Cahillə əlaqə qurma, batarsan
Xələl gətirərsən olan ağlına
Nadanla qəflətdə birgə yatarsan
Ləkə bağlayarsan təmiz adına

Alçağı bir az da alçaltmaq lazım
Zirvəyə qalxana dəstək gərəkdir
Namərdi namərdə tapşırmaq lazım
Mərdi mərd atında görmək gərəkdir

## Şair olunca

Cavan vaxtlar idi, şeir yazırdım
Biri: Gələcək var, yaz, yarat dedi:
Bəzi sətirləri cızıb, pozurdum
Senzura əngəli.. qır, qopart dedi

Biri də: əməkdən, eldən, obadan
Keçmişdən, torpaqdan, nənə-babadan
Dəmiri əridən zavod-sobadan
İlhamın götürsün bərk start dedi

Sən yaz... həyatdan yaz, təbiətdən yaz
Eşqdən yaz, sevgidən, məhəbbətdən yaz
Vətənə quluqdan, sədaqətdən yaz
Təbini silkələ, sən çağlat dedi

Dedim:sifarişlə yaza bilmərəm
Məcbur ağlamaram, məcbur gülmərəm
Təbim çağlamasa təbə gəlmərəm
Gərək özü gələ pay, barat dedi

İndi də yazıram orta yaşımda
Baharı duyuram qarlı qışımda
Şairlik xülyası qalır başımda
Sözü sözə cala, düz parlat dedi

Duyğumu dünyayla bölmək istədim
Şeiri cəm halda görmək istədim
Kitab çıxartmağa kömək istədim
Biri:Vaxtın keçib... get, cır, at dedi





Eyvazam, həyatdan tamam doymadım
Qələmi həsrətdə, darda qoymadım
Yandım, şeir yazdım... söndüm, soymadım
Təbim: ağ vərəqi yaz, qaralt dedi

## Öz bəxtim

Üzümə taleyin üzü gülmədi
Burulğan dünyaya güc çatmaz dedim
İllərim dalbadal düz düzülmədi
Şirinin yerinə acını yedim

Arzuya əl çatmaz yoxsul günümlə
Yoxdu var-dövlətim, olmadım zəngin
Səs sala bilmədim kasıb ünümlə
Vardan məhrum oldum, yaşadım gərgin

Uşaqsız bir ömür yetməsin sona
Övlad olsun təki: -ya oğlan, ya qız
Bala dadı dadsın atayla, ana
Ər-arvad yetim tək solmasın yalqız

Ömrümü yaşadım oğlan eşqiylə
İki bir, iki bir: beş qız doğuldu
Oğlum olmasa da oğul vəsviylə
Qızların hərəsi bir oğul oldu

Başın baş dərdi var, ayağın ayaq
Qismətdir: prezident olan deyiləm
Ailədə başam, olmuşam mayak
Bəxtimi heç kəslə bölən deyiləm

Ortada qorusun Allah-Təala
Eşitsin xoş niyyət olan ərzimi
Qabağa qaçmadım, qalmadım dala
Yaradan pozmasın həyat tərzimi

İstər tale, istər övlad, istər var
Tanrı verib, Tanrı payına şükür!
Olanın özünə bəsdir o ki, var
Eyvaz! Sənin halal mayana şükür!

**Dada yetən**

Vətəni mən
səndən də artıq sevirəm
Çünki, Vətənimə
qələmimlə xidmət edirəm...
Sən vəzifə düşkünü,
var, pul düşkünüsən
Pul olmayan gün
sən Vətən küskünüsən...
Asılı olmasan
xeyir verməzsən heç kimə
Neyləyim ki yoxsul
bir qələm əhli olmaq
düşüb mənim püşkümə
...xeyir verməzsən
yaxın ətrafına
faydan yox qohum-əqrəbana
Sən xidmət edirsən,
xidmər edirsən
ancaq özünə,





bir də doğma
özəl nəslinə...
...Dövlətdən faydalanıb
yığırsan varı-dövləti
altına yığıb
kürt toyuq kimi
üstündə oturursan...
göstərmirsən səxavəti
Əksinə,
yoxsuldan rüşvət,
pay umursan...
ondan aldığını
halal mal kimi
boğazından içinə ötürürsən
Mən bilmirəm,
mən bilmirəm bu günahı
niyə,
hansı vicdanla
üstünə götürürsən...
...Xalqın adından,
Vətən adından
birdən elə danışır,
elə bağırırsan ki,
adamın lap əti tökülür
qəfil bilə-bilə
elə iyrənc
əməl törədirsən ki,
adamın durduğu yerdə skeleti sökülür...
...Sənin kimiləri çoxdan, çox...
yığır, bərk tutur
varı dövləti

hələ səndən betər
olanlar da var
onların əvəzi yoxdur, yox...
Saxlayıb,
ötürürlər əmanəti
onlar öz özəl yurdunda
gələcəkdə bitən övladına
...Qəti sərf etmir,
bir manat da vermir
qeyri bir Vətən övladına
Göstərmir yardımı,
köməyi, səxavəti
çünki, ona çatır
onun hünəri,
onun ləyaqəti,
qeyrəti
...Söz hikmətdir,
söz tərbiyədir...
...söz ibrətdir...
Məndə qələm var,
kəlam var
bir irs qalacaq məndən
yaxşı bir irs-təməl
Səndə bir kin var,
bir kin var ki,
o yaxşıya nifrətdir
yalnız o nifrət
qalacaq səndən...
...bir də ən pis əməl...
...Bu Vətən,
bu mən,





bu da sən
Deyim?...
Bəlkə özün biləsən?
Mən pay verdim,
Vətən pay aldı məndən
Sən isə,
sən isə pay aldın Vətəndən
Vətən
mənə görə bezmədi səndən
iki bizik bir Vətən
iki bizik bir Vətən ...
Bax, gör kimdi
kimin dadına yetən...

**Sən yazar, mən yazar...**
**Bəs, kim üstün yazar?**

***Anara***

Meydan yox sözümü deyəm, tanınam
Künc-bucaqda qalıb çürüyürəm mən!
Mən şeir yazmadım yersiz qınanan...
Yazar! Yerinə üz bürüyürəm mən!

Xainlik edərmi yazar yazara?
Rəqabət aparar bazar bazara
Şairlə duranda nazar nazara
Fəlsəfi fikrimlə səyriyirəm mən!

"Əmi"li, "dayı"lı irəli çıxır
Min yazar Eyvaz tək kənardan baxır
Adımı yazmağa tarix darıxır
Məqsədə yetməyə həyriyirəm mən!

## Haqq boş iddia deyil

*Anara*

Ey yazarlar yazarının yazarı!
sözüm sənədir...
sözüm nə xoş,
nə səmimi,
nə tənədir...
...Mənim heç nəyim olmasa da
sənin özün boyda
dünyana sığmayan
kainat ənginliklərindən də
geniş bir ürəyim var ...
Özümdən sonraya
varsa bir sözüm,
varsa bir izim
demək dirəyim var...
Səninsə
mənim bapbalaca
ürəyim boyda
bir ürəyin sənin ürəyinə
girə bilməyəcəyi qədər
dar ürəyin var...
Deməli sənin
nəyəsə güclü bir diləyin,
nəyəsə çox böyük
dirəyin var...
...Haqsızsan,
haqqımı almağa
haqqım var
lazım gəlsə məndə





zalımı çalmağa
zəqqum var...
Mən haqqam,
mən özüməm
özümdən böyük
iddiaçı deyiləm
Həqiqət,
haqq-ədalət carçısıyam
mən öz sözüməm
Hardasa,
nəyəsə,
kiməsə zənn etmə əyiləm...
Sanma ki,
məni kimsə əzəcək
Bil ki, səndən sonra
məni dünya gəzəcək.
Ey yazarlar yazarının yazarı!
sözüm sənədir
sən neçə sözə...
bəs kimə...
hansı tarixdə
hansı tarixə
qazırsan məzarı?!...
Sözüm nə xoş,
nə də tənədir
Ey yazarlar yazarının yazarı!
birinci özünə qaz
qazmaq istəsən məzarı
sözüm sənədir
demə tənədir...

***

Ümid gözəldir,
ümid yaşadır insanı
Ümid
çox zaman gerçəkləşdirir
insanın bütün arzularını.
Ümidlə,
ümidlə yaşayır hamı
ümidə bağıdır
həyatın tempi
və... ömrün davamı...

***

Doğuldu,
böyüdü,
qayğıdan canı qurtardı.
Onun arzusu, ümidi
təzə-təzə,
indi-indi açırdı.
Ölüm...
ölüm gəldi, haqladı...
ölüm yaman tələsdi...
çiçək vaxtı yarıda
onun
amanını kəsdi...
bütün arzusunu,
ümidini doğradı, qırdı...
vaxtsız aparıb
əbədi ölümün qoynunda
aparıb özüylə yatırdı...





***

O yandan bəri,
ta qədimdən
vəfa görüblər:
atdan,
arvaddan
və... itdən...
onları çox tərifləyiblər,
çox öyüblər...
Bəs, buna,
bəs, buna necə inanaq?..
Vəfa və etibarda
necə dayanaq?
Keçmişdə də,
elə indi də
belə bir deyim də var:
"Ata, itə, arvada yox etibar"
bilmirəm bu kişilər
neyləyiblər...
sözü ikili—iki mənada
niyə belə deyiblər?!..

***

Bilmirəm,
bilmirəm nədir bu qara fikirlər
girib içimə
elə bil ürəyimi sökürlər
Ağlım,
şüurum var
axı, mənim
Qisasımı alım gərək

axı, var düşmənim...
Mən yaşamaq istədiyim,
istədiyim kimi dünyada
yaşamaq istəyir,
qoy yaşasın o da.
O düşmən əgər
məni yaşamağa
qoymasa demək,
qabaqlayıb düşməni
Mən...
mən məhv edim gərək!..

***

Sevgi döyüşdür
baxma ki arada
məhəbbəti var.
Məhəbbət gülüşdür
ortada
bir nifrəti var.
Nifrət söyüşdür
baxma ki arada
hikməti var.
Hikmət yürüşdür
ortada
ədaləti var
Ədalət varsa,
hər şey özü
öz yerində durar
təslim olar dünya,
dünya bərqərar olar!..





## Sağa pul... Soldan pul...

Sağ əlim gicişdi
ahaa, əlimə
pul gələcəkdir!
Keyfim yenə
yüksələcəkdir!
Sol əlim gicişəndə
pul gedir əlimdən...
bunu xoşlamıram,
olmur ürəyimdən...
Sağ əlimdə ovcumun
içi gicişəndə
əlimə
daha çox pul gəlir...
çox ehtiyacım
ödənilir...
Eyniylə sol gicişəndə
pul daha çox gedir
xərcin vaxtı yetişəndə
xərc tez gəlib
əlimi didir.
Bax, bax...
pulun gəlişinə,
gedişinə...
Gör, yaradımı
kasıbın
bir işinə?!..
Kasıbın bir gözü
görmədi pulu,
bir gözü gördü
yıxır ancaq kasıbı
pulsuzluq dərdi!..

***

...Mən danışanda
camaat gülür...
" Ana", "Vətən" sözünü dilimdə
mən necə işlədim ki,
kimsə güləndə
mən xəcalətlənməyim?
Camaat
quşun dilini bilir...
Azərbaycan dili nədir ki,
onu mən bilməyim?!

## Günahlı... günahsız

Öz yoluyla
qida dalınca
gedən qarışqanı
fil gəlib ayaqladı,
əzdi onu
az qaldı bitə
həyatın sonu!..
Qarışqada kin,
qisas hissi yarandı
vaxt keçdi...
fırlandı
Fil gələndə
bu səfər, indi
qarışqa filin
üstünə mindi...
Güclü, nəhəng,
o boyda filin acığına





qisas üçün girdi
qarışqa onun qulağına...
Yeridi beyninə tərəf
o yavaş-yavaş
gicəlləndi fildə
silkələndi baş...
Yedikcə qarışqa beyin
uğuldadı,
fır-fır fırıldadı...
Beyini pozulub əsəbləşən
və... ölümcül hala düşən
fil
zar-zar, zır-zır zırıldadı...
Fildə beyin zədələndi
idarəetmə funksiyası
tamam tükəndi
Yerə yıxılan fil
çox böyürdü,
qışqırdı...
axırda ölərək canını
qarışqaya tapşırdı!
...Çox qəribədir,
qəribədir həyat
biri sevinir,
biri kədərlənir, heyhat
Nəhayət,
qisas alındı...
günahkar cəzalandı!..

# V Bölüm

# TƏNQİDNAMƏ





## Kəpənək və hörümçək

Bir ağac əkilmiş güllü bağçada
Tor qurmuş hörümçək həmin ağacda
Ağacın yanında, gül-çiçəklikdə
Gülləri sayrışan göy çəmənlikdə
Bir xallı kəpənək həvəslə uçur
Aramla çiçəkdən-çiçəyə qonur
Kəpənək ağaca qonmaq istərkən
Düşdü hörümçəyin toruna birdən
Xeyli vaxt güc verdi qanadlarına
Qanad da çatmadı onun dadına
Çırpındı…Çırpındı…
Lakin nə fayda?
Kəpənək asılı qaldı budaqda…
O, yorub özünü həlak eylədi
Ancaq tordan xilas ola bilmədi…
Qurtula bilmədi düşdüyü tordan
Qurtula bilmədi zavallı heyvan
"-Bu nədir?
Nə yaman ilişdim tora
Lənət bunu quran mərdiməzara
Bilmirəm mən buna rast gəldim hardan"-
Deyib öz-özünə qəmləndi bir an
…Xallı kəpənəyi torunda görcək
Sevindi bu işdən torçu hörümçək
Yaxına gələrək o gülə-gülə
Xallı kəpənəyə söylədi belə:
"-Mən fikir verirdim bayaqdan sənə
İndi sən, söylə bir, ey qoçaq mənə

Uçub çəmənlikdə qanad sərirsən
Gəzirsən özünçün — əcəb edirsən-
Arada bəs neçin söz gəzdirirsən?
Sən xəbər aparıb söz gətirirsən
Çəmənin sirrini açırsan niyə?-
Çiçəyin sözünü deyirsən gülə:
Güldən eşitdiyin sözləri isə
Gedib söyləyirsən başqa çiçəyə
Bir bax ...gör nə qədər mehribandılar...
Çox möhkəm bir ülfət bağlamış onlar
Heç bilirsənmi sən...
nə etdiyini?-
Açırsan onların gizli sirrini...
Dostluğu qırırsan bununla ancaq
Onlar arasına salırsan nifaq
Xəlvəti açırsan bütün sirləri
Bəs sənə bu işin nədir səməri?
Tutduğun işlərin faydası nədir
Onların sirrini açırsan bir-bir?
...Sən, sən ancaq dava qızışdıransan...
Pis itlər tək ara vuruşduransan...
Ədavət yayırsan bu işlərinlə—
Bu alçaq, yaramaz əməllərinlə
Vicdanı əyrilər axır bir dəfə
Öz işi ucundan düşər tələyə
Bilirsən, tələni qurarlar kimə?—
Ancaq bircə sənin kimilərinə...
Əgər olmasaydın bu dünyada sən
Heç toru bu cürə qurardımmı mən?
Zərrəcə sözümdə yoxdur bir yalan
Amma sən bu tora düşmüsən yaman...





Düşdüyün bu tordan çıxarsan çətin
Quruyub qalacaq bircə cəsədin...
...Çoxlu xəbərçilik etdiyin üçün
Özün də bilmədən sən tora düşdün
Ey xəbərçi dostum...
gözləri göyçək
Yaxşı bil...bu, sənin öz cəzandı, çək"...
O belə deyərək dayandı bir az
Bir dayan işə bax, ey Avşar Eyvaz,
Hörümçək sözünü yetirsin sona
Qoy ibrət olsun bu, bəzi insana

***May 1980***

## Biləydim

Namərdin şərinə düşən bir mərdin
Qurtuluş yolunu tapa biləydim!
Böhtançı haqsıza haqlı deyənin
Dilini qoparıb qapa biləydim!

Günahı özgənin üstə yıxanı
Tər-təmiz adama qara yaxanı
Adı el içində naqis çıxanı
Altımda at kimi çapa biləydim!

Bu Avşar Eyvaza sipər çəkənin
Zalımlıq eyləyib bellər bükənin
Mərdiməzarlıqla çörək tökənin
Alnına bir damğa yapa biləydim!

## Olmusan

Şümür ilə qoşalaşdın
İmansıza tuş olmusan!
"İmansızın öhdəsindən
Dinsiz gəlib"—çaş olmusan!

Şər böhtanı daşlamırsan
Tutduğunu boşlamırsan
Başqa rəngi xoşlamırsan
Qara rənglə xoş olmusan!

Eyvaz sənə çox sərt olub
Kafir yaman pis pərt olub
Vicdan səndə "abort" olub
Artıq içi boş olmusan!

## Payıma dəymə

Durursan qarşımda bir sual kimi
Dik tutma başını koramal kimi
Yeyirsən dövləti qaramal kimi
Mənim: öz payıma sən dəymə, dəymə!

Özünü hamıdan güclü bilirsən
Sosial yardımı yarı bölürsən
Əməldə hamıya kələk gəlirsən
Otur...düz sayıma sən dəymə, dəymə!

Dövranın dövr edər, bu dövrün dönər
Cövlanın cövr edər, o çarxın çönər
Bil, Eyvaz qövr edər, çırağın sönər
Qanun – Köz: dayıma sən dəymə, dəymə!





## Varmı?

Mahalda ədalət axtaran nakəs
Özündə bir damcı ədalət varmı?
"Haqsızlıq baş alıb gedir" deyən kəs
Sözündə bir kəlmə həqiqət varmı?

Marığa yatırsan,fürsət gəzirsən
Şər-böhtan atırsan...qürrələnirsən
Daim haqqa hədə-qorxu gəlirsən
Qəlbində bir misqal mərhəmət varmı?

Sən özün haqlı ol...haqqın batmasın
Dürüst ol, haqsızlıq sənə çatmasın
Düz ol... haqqına nahaqq qatmasın
Tək bir əməlində kəramət varmı?

Düşmən ola bu gün qardaş-qardaşa
Sorğu-sual varmı kəsilən başa?
Tez-tez rast gələsən bir qudurmuşa
Bundan da betər bir müsibət varmı?

Nə qədər nəsihət versən qanmaza
O qədər söz batmaz dil anlamaza
Sınarsan, toxunma Avşar Eyvaza
Genində bir zərrə dəyanət varmı?

## Böhtançı müxbir

Günah qoxuyursan başdan ayağa
Günahkar məxluqsan, böhtançı müxbir!
Qoymursan toxuna dilin dodağa
İftirasan, şərsən, yalançı müxbir!

Əyrini düz, düzü əyri yazırsan
Dərdlinin dərdinə guya yanırsan...
Bu dünyanı alabəzək sanırsan
Boyaqçı, duvaqçı, tiyançı müxbir!

Pul verəndə çoxlu tərif yağdırır
Heç bir pay almasa yaxıb-yandırır
Öz günahlarını örtür, basdırır
Təpədən dırnağa dilənçi müxbir!

Yalanı toplayıb üst-üstə qurar
Uydurma işlərlə qiyam qaldırar
Haramla halalı üz-üzə qoyar
Şeytanı talayan talançı müxbir!

Eyvaz deyir ağa qara yaxırsan
Haqqı ədaləti, aşkar danırsan
Həyatın dəmini dəbdən salırsan
Cəmiyyətə yuksən, yabançı müxbir!





## Dünyan sənə nə verdi, nə?

Şər-böhtana şux büründün
Quyruqlarda çox süründün
Xəcalətlə tox göründün
Dünyan sənə nə verdi, nə?!

Qardaşların küskün getdi
Onları sən üzdün... getdi
Şeytan ömrü sürdün, getdi
Dünyan sənə nə verdi, nə?!

Ürək paxıl-qara qanlı
Kimlə oldun qohumcanlı
Harda durdun adlı-sanlı
Dünyan sənə nə verdi, nə?!

Tale səni yaman sıxdı
Cərgələrdən atdı-çıxdı
Hikkən səni atdan yıxdı
Dünyan sənə nə verdi, nə?!

Dost-tanışı acıladın
Qohumlara diş qıcadın
Dizlərini qucaqladın
Dünyan sənə nə verdi, nə?!

Arxasıza"xox"etdin sən
Əl açana yox dedin sən
Mənliyini çox yedin sən
Dünyan sənə nə verdi, nə?!

## ŞərBəy

Daldada enlənib şeşələnirsən
Yanımda dinməzsə köşələnirsən
Dərd-qəmin içində eşələnirsən
Çürük əqidəli bir fərdsən, ŞərBəy!

Dostluqda,vəhdətdə etibarın yox
Özün mərdiməzar yönlü adın yox
Geninə çəkmisən fərli qanın yox
Ailən üçün də pis dərdsən, ŞərBəy!

Yer kürəsi boyda böhtan atırsan
İynə ucu boyda haqq axtarırsan
Sən mərdlik etməzsən nə qədər varsan
Peşəkar xislətli namərdsən, ŞərBəy!

## Keyvəşər

Daxili xislətin üzünə çıxıb
İçinin hikkəsi gözünə baxıb
Dikbaşlıq ləkəni alnına yaxıb
Əməlinə qurban oldun, Keyvəşər!

Ayağın yüyürdü, əllərin çaldı
Bədxahlıq niyyətin gözündə qaldı
Düşdüyün bu hallar söylə nə haldı?
Möhnət dəryasında soldun, Keyvəşər!

Güvəndin gücünə, uydun şeytana
Zəifləri əzməyi saldın plana
Qan yığdın, içi boş can tuluğuna
Nifrətlə qəzəbə doldun, Keyvəşər!





Mələklər yazdığı əmələ-hala
Düz cavab vermədin sorğu-suala
Oturdun, qapıldın dərin xəyala
Gərəksiz başını yoldun, Keyvəşər!

Zəhləmi çox tökdün bu cırhacırla
Qəflətdə yatdın sən bu zırhazırla
Söylə,nə qazandın bu vurhavurla
Kolsan, əvvəllər də koldun, Keyvəşər!

## Kişi qarğışı

Gücünü gücsüzə göstərən kəsin
Yetimin malına göz dikən kəsin
Qurulmuş yuvanı sökdürən kəsin
Qolu bir, gözü kor, evi tar olsun!
Ona gor vaxtından əvvəl qurulsun!

Elin matəminə hər kəs gülürsə
Zəlildən bir kimsə bir nəf güdürsə
Hər kim şeytan kimi ömür sürürsə
Oğlu cızz, qızı bezz, nəsli dazz olsun!
Tək-tənha baxmaqdan gözü yorulsun.!

Vicdanı, "Quran"ı, Haqqı dananın
Qudurqan, dalağan, qanmaz nadanın
Şərəfi, namusu, adı satanın
Haqqı heç, zehni puç, özü köç olsun!
Qan udan cisminə qamçı vurulsun!

Xalq adından saxta libas geyənin
Şərlə silahlanıb böhtan deyənin
Vətən çörəyini hədər yeyənin
İşi xərc, gücü borc, qarnı ac olsun!
Canı dirigözlü qurdla sorulsun!

Haqdan, dardan, gordan qorxan qorxağın
Eyvazın qəsdinə duran alçağın
Hara gəldi ora girən yaltağın
Dərdi çox, səsi yox, yemi "xıx" olsun!
Dağlansın sinəsi, boynu vurulsun!

## İmansız

Sitat: *Özündən xoşlanan adamlar ki,var*
*Adamlıqda onlar harda dayanar?*
***Avşar Eyvaz***

Qohuma-qardaşa xəcalət olan
Özü tərəfindən xəsarət alan
Bilərək özgəni böhtana salan
Olsa "Quran" əhli:-xəbəri varmı?
Allah o kəsləri bağışlayarmı?

Arzuda, məqsəddə pislik törədən
Nəslinə, kökünə söyüş yedirdən
Günahsıza qəsdən günah gətirdən
Qalsa dinə-şəhli:- xəbəri varmı?
Allah o kəsləri bağışlayarmı?





"Quran"ı oxuya nadanlıq edə
Bilə-bilə əyri yollarla gedə
Zərər yetirməklə xeyrini güdə
Salsa iman cəhli: -xəbəri varmı?
Allah o kəsləri bağışlayarmı?

## Din-imanın harda qaldı?

Bir eldə yaşadın eldən aralı
Məkrli şeytansan qəlbi qaralı
Çıxdaş oldun eldən yaslı, yaralı
Çənin harda qaldı, dumanın harda?

Mərdin adətidir: -Bəxtindən küsər
Namərddə qaydadır, yıxarsa kəsər
Xəsislər var üstə ölüncə əsər
Gönün harda qaldı, umanın harda?

Bilirsən ki, yüzü haqlayıb yaşın
Tutduğun işlərdən çıxmayıb başın
Səndən üz döndərib qohum-qardaşın
Genin harda qaldı, gümanın harda?

Şər işdən nə tapdın? -Söylə bilim mən
İfrazat malı ye, iylə, gülüm mən
Bundansa öl qurtar, yasa gəlim mən
Dinin harda qaldı, imanın harda?

Etdiyin günahdan olursan şakir
Allaha agahdır, şahiddir bakir
Mən yazıq Eyvazam, sən gavır Zakir
Ünün harda qaldı, amanın harda?

## Yapışqanlar kimi

Kölgə arxasında daldalanırlar
Millət, Xalq qeydinə qalanlar kimi
Danışanda yaman lovğalanırlar
Şuşa qalasını alanlar kimi

Öküz qədər əkin əkib şumlamır
Uzunqulaq qədər odun tığlamır
Qorxudub it qədər də mırıldamır
Yurd yerində məskən salanlar kimi

Əzabkeş, həvəskar balçı arıyıq
Bir günə biz bir damcı bal yığırıq
Yeyəndə durub gendən baxırıq
Bal görüb ağzı sulananlar kimi

Ayı da yekədir... ancaq bağırır
Kaftarlar sürüylə gödən dağıdır
Cumulur quzğunlar, bəlkə yağıdır
Namusa, qeyrətə dolanlar kimi

Donuz var, tülkü var... var boz canavar
Əqrəb, timsah... akula--balina var
Billəm, daha qorxunc nəysə yenə var
Qan gölündə çalxalananlar kimi

Gör nə bərk yapışıb zəli udlağa
Çanaqda şütüyür cılız tısbağa
Gənə xasiyyətli o hakim ağa
Fısıldayır çalan ilanlar kimi





Bilmirəm, çörəyi nə üzlə yeyir
Sözünü nə kəskin, nə də sərt deyir
Yumruq düyür, elə döşünə döyür
Andı Eyvaz andı olanlar kimi

## Biganə məmur

Ey şeirə, sənətə biganə olan!
Ey şeirin, sənətin
qədrini bilməyən insan!
Qulaq asma mahnıya
sözləri mənimdi...
mənim kimi bir şairin...
Dəyərini bilmirsən,
bilmirsən o şeirin!..
... nə də baxma kinoya
O da mənim tək bir yazarındır
Məmur postu tutmaq,
Satılaraq hər dona girmək
sənin genlə gələn ən köhnə
insan ziyasına,
insan elminə
şeirinə, sənətinə, sözünə
hətta onun özünə
zülm vermək
sənin anadangəlmə azarındır!..
Dinləmə, sən bir mahnını,
nə də bir simfoniyanı
çünki, o da bir bəstəkarındır.
Hiss etdiyin,
etmədiyin ideyalar

Gözünə görünən,
görünməyən bütün materiyalar
səndən şox böyük olan
adına İNSAN deyilən
bir sənətkarındır!..
...ən xırda, ən xırda
rəsm əsərinə də baxma
çünki,
o da bir yaradanındır!
Oturma kabinetdə,
nə də bir kürsüdə
işin olmasın internetdə,
nə də bir güzgüdə
onu da icad edən var...
minib gəzmə maşında,
əl atma silaha,
sözün çəp gəlib sən dalaşanda
onun da yiyəsi tapılar...
Ey qədirbilməz biganə insan!
toxunma telefona...
bilmirəm sən
havaxt qanacaqsan
Girmə geyindiyin paltara,
girmə, girmə müxtəlif dona
Qidalanma,
heç bir söz demə
qidalanma, biganəsən
çörəyi havayı yemə!..
Çünki, onu da
istehsal edən var
Etdiyin hər əməldə





bir sual güdən var...
Ey şeirə laqeyd,
sənətə biganə,
Ey özünə ən gözəl
karyera quran divanə!
Kitaba, kağıza dəymə
toxunma möhürə, qələmə...
çünki, onlar da
bir alimindir
Ey biganə insan!
bütün bunlara toxunsan
bacar, onları qiymətə mindir
...Qoy birini də deyim
saxla yadında:
bil ki, üstündə Allah var
biganəsən,
boynunda çox günah var!..
Haqq haqdır Haqqın adında
O göydən baxır sənə...
sənin əməllərinə
... bir zaman gələcək...
hər yaşayan öləcək!..
Amma, sən öləndə
qoyma,
qoyma üstündə halalıq üçün
"Quran" oxuna
çünki, sən, çünki, sən
sənətə biganəsən
onun, yəni
"Quran"ı oxuyan sənətkarı
onu oxuyan sənətkarı

buraxma yaxına
"Quran"ı da nazil edən,
yazıb-yaradan olub
Görən sənin kimi,
görən sənin kimi biganələr
niyə...
niyə məhz mənim dövrümdə
məhz mənim dövrümdə
anadan olub???...





# VI Bölüm

# MİNİATÜR DAMLALAR

Harda,
nə zamansa.
itirmişəm...
itirmişəm eşqimi
İtirmişəm aşiqlərin yığıncağında
...Bilirəm o eşqim
yaşayır hardasa
sahibsiz yetim kimi
Yaşayır kiminsə ürəyinin
gizli sığınacağında...
Ha axtarıram,
ha axtarıram
onu tapa bilmirəm
Mən səhlənkaram...
çox səhlənkaram
onu tapa bilmirəm,
bilmirəm
onu tapana qədər
yenə səhlənkaram
Onu axtarana qədər
asan ölümlə gedib
yıxılıb bir yerdə ölmürəm...
...Mən çox səhlənkaram,
səhlənkaram
onu tapmayınca
yıxılıb bir yerdə ölmürəm...





***

Qarışqanı
ayaqlayıb əzməklə
fil gücünü bildirdi
Qulağına girib
beynini zədələməklə
qarışqa
fili öldürdü!..

***

Sevgi döyüşdür...
baxma ki arada
məhəbbəti var!
Məhəbbət gülüşdür
ortada
bir nifrəti var!..

***

Dünyanı xəlvət-xəlvət çapıb,
malını açıq-aşkar talayıb,
arxayın halda
xımır-xımır yeyirik
sonra, bu dünya
birdəfəlik əyilib,
qəti düzəlməz deyirik .
Özümüz qəsdən,
bilə-bilə
basıb dünyanı əyirik
hələ,
"xəbərimiz yox"-deyib
dəmirdən don geyirik!

***

Bu milləti
az sümürün, yeyin
maaşın çoxdur
...ya gəlirin?!

***

Toxunma,
dəymə mənə
əyilərsən, sınarsan...
Mən sənə dəyib
toxunsam,
parçalanarsan,
hətta, yanarsan!..

***

"Mən də varam..."
demə, xəyanətkaram
sənin kimi...
Baax!.. Qolumun biri yoxdur...
qəlpə var sinəmdə
rentgen və... lazerlə də
heç bir iz, bir əlamət,
bir nişanə görünmür səndə
sənin daxilində..
Heç
dərd də çəkmirsən
mənim kimi...
çıx... yaşama
mənim vətənimdə!
Yediyin-geyindiyin





geyidiyin
mənim pulum-paramdır
Aldığın nəfəs də,
hava da haramdır...
Yaşama,
sadəcə Vətənimdə yaşama
Vətən mənim gorgahımdır.
Gorgahımda,
kəfənimdə yaşama!

***

İlanın ağzında
bir qurbağa
gücü ancaq yetirdi
zarıyıb bağırmağa
Təzyiq etdim ilana
qurbağanı boşladı
pisliyimə görə
quyruq üstə qıvrılıb
ilan mənə baş əydi!
...Qurbağa üstümü
tez tullanıb yaşladı ...
görünür...
bu yaxşılığım
qurbağanın xətrinə dəydi!

***

Yeyib,
yarama qurd salmasaydı,
ürəyimi bulandırmasaydı
qurtarardım milçəyi

hörümçəyin torundan...
...İndi ləzzət verir mənə,
həzz alıram
milçəyin iniltili ahu-zarından!..

***

Görmə, görmə!..
yum gözlərini
görmə qırğınları
qırğınla axan qanları...
Qana qan etməyəcəksənsə,
açma,
qəti açma gözünü...
Sükunətli bir otağa gir...
gir, qaranlıq bir yerə
qapa, qapa özünü!..
Bərk yum,
qəti açma gözünü!

***

Eşitmə...
eşitmə, tut qulaqlarını
eşitmə
doğmalarının fəryadlarını...
Eşitsən...
qisas almayacaqsan,
billəm ki, sən...
fəryad edənlərin
ölkəsində
daha qalmayacaqsan!





***

Dərdi ürəyinə salma
varsa, ürəyin ağrıyar!..
Əsir vətənlə yaralı torpaq
dada yetib,
ürəyini sarıyar!..

***

Baş işlətmə...
başın qarışar...
harınlığı,
zənginliyi unudarsan...
...fikir inlətmə,
başına dərd-qəm dırmaşar
varın,
varidatın gedər
lüm-lüt oturarsan!..

***

Neynirsən eee...
çəkmə Vətən dərdi,
torpaq dərdi...
Dərd çəksən,
görən başına nələr gələrdi
Çəkmə, çəkmə millət dərdi
çəkmə qeyrət dərdi... ...

***

Eeeeheey hara gedirsən
dərdli ilə dərdi
burda qoyub?

Elə bilmə, yaralıların
yarası soyuyub...
Bəs, onda sən
getdiyin arada
yetimə-yesirə
çarəsiz zəlilə...
yoxsula-kasıba
kim əl tutacaq?
Onlara kim kömək edəcək?
onlara
yiyə çıxan olacaqmı?
Bir kimsə tapılacaqmı?

***

...bahalı kafel,
ətirli tualet...
sauna
Avtomaşından düşmə
nəysə dəyər fonuna
avtomaşından düşmə
torpaq üstünə
ayağına palçıq bulanar,
ayağına toz qonar
İkimiz də yetimik—
həsrətli yetim...
Mən
səndəki vara-dövlətə
və...
səndən gələn bu yüksək
səsə, sorağa...
Sən isə yetimsən





məndəki gücə-qüvvətə
və,..
mənim ətrafımda olan
palçığa,
toza-torpağa...
Yetim tək
sən də yaşayırsan, mən də
yetim tək
mən də ölmürəm, sən də!

***

Mərdə məzar qaza-qaza
namərd
ad aldı, san çıxartdı...
mərd isə
namərdin alnını yaza-yaza
ora damğa basdı,
onu xalqa tanıtdı!..

***

Birindən verilən buyruq
birini xeyli işlətdi...
və...
nazir dedi hambala:
-- verdim...
daha nə istəyirsən,
haqqın nə... bala?..
Çənə altdan dəyən yumruq
dili dişlətdi
dilin tən yarısı
yerə düşdü

Hambal irişdi
və...
dedi nazirə:
Get, al...
al, qurbanını kəs...
artıq qalanını da
get, ver nəzirə!..

***

Gedirsən,
get yığıncağa
kimisə qarşılamağa...
Bax, ağzını açma haaa...
birdən danışarsan
o yan, bu yan...
hətərən-pətərən...
O saat
yetişərlər yanına
hərəsi girər bir qoluna
Çoxdur adam götürən,
nə çox adam itirən...

***

Dərdini açırsan
peşiman olursan
o saat
düşürlər üstünə:
"—etmə, eləmə..."
Açmırsan,
naçar qalırsan
deyirlər:





"—gözümüzə külələmə..."
Yuxarıları duyuq salırsan
işin düşür gümana
dərdinə
çarə axtarırsan
çarən özü batır dumana!

***

Şikayətimi, dərdimi
deyirəm
müəyyən dairələrdə
hamı sakitcə,
diqqətlə baxır,
lal-diməz durur
Mən kömək umur,
və yardım gözləyirəm
lazımi yerlərdə
...əvəzində dediklərimi
bütünlüklə onlar
sən demə, qulaqardına vurur!

***

... Pul qoyub,
pul götürürəm
Mən...
kimə zərər yetirirəm?!

***

İşə düşüb, dövlət orqanlarından
narazı qalanlar:
"Dəvədən böyük fil də var" deyir

klienti narazı yola salanlar,
və...
filə bağlı olub,
fildən dəstək alanlar:
"Noolar, get... qarşında
ay da var, il də var" deyir!

***

Çox, çox çətindir
ilanla ünsiyyətdə,
dostluqda qalmaq
Tam qətiyyətindir
ən sevimli ilanın
əziz peşəsi çalmaqdır,
çalmaq!

**Nəvə və baba**

Nəvə:
--Bu nə işdi,
dən diri gəldi dəyirmana?
Baba:
--Adı dəyişdi,
üyündü! Çevrildi una...
Nəvə:
--Bacarsam, dünyaya
doğulub gəlməzdim bir daha
Baba:
--Niyə? Səni qorxudan nədir,
ay mənim cəngavər balam!
Nəvə:





--İnsanlar qırğın törədir...
hər şeyi əzir
batır günaha!
Mən belə yerdə qalmam...

***

Kimin əlinə harda
nə keçdi
basıb yeyir...
"Vətənin dərdi"nə,
"Torpağın yarası"na
baxan
və...
"Millətin qeydi"nə
qalanam?—deyir!

***

Nahaqdan ən çox
kim olmuşsa Avşar Eyvazla
cəng həvəsində
həmişə o sınıb,
məğlub olmuş,
sıxılmış...
Eyvazın söz məngənəsində

***

Çoxları söz savaşında
hirslənib Eyvaza
çox əl-qol atmış....
Avşar Eyvazın
acı həqiqət...

və haqq sözüylə
ona əl-qol atanların
köpü yatmış...

***

Çirkin,
məkrli niyyətlə...
özün özünə xəsarətlə...
de görüm, harda,
necə bahalanacaqsan?..
bircə onu bilirəm,
bircə onu bilirəm ki,
qınağa düşüb
sən özün
alçala-alçala
cəzalanacaqsan!..

***

Genlə gələn
bu murdar qanla
şər-böhtan ata-ata
hara gedirsən?..
Ay məsləksiz,
bu görkəmdə əyri vicdanla
ləkəyə bata-bata
hardan gəlirsən??..





# VII Bölüm

# İTHAFNAMƏ

## Nə tez köcüb dünyadan Müşfiq

*Şairin əziz xatirəsinə*

Vətənə,
insana,
xalqa,
zəhmətə-
Eşqə
məhəbbətə,
gücə,
qüdrətə-
Həyata söz qoşmaq eşqilə
elə hərarətlə,
elə həvəslə
Həmişə döyünüb
Müşfiqin qəlbi
Onun qəlbindən keçən
ən ülvi hissiyyatları
Olduğu kimi ifadə etməyə-
eynilə yazıb yetirməyə
Acizlik göstərib ki,
Müşfiqin dili…
Dünyadan tez gedib…
Onun qəlbindən keçən
ən ülvi çırpıntıları
Olduğu kimi ağ kağıza köçürməyə-
eynilə yazıb yetirməyə
Acizlik göstərib ki,
Müşfiqin əli…
Dünyadan tez gedib…
Onun ürəyilə bərabər
tən gedə bilməyib ki,





Müşfiqin ağzında dili…
Dünyadan tez gedib…
Onun ürəyilə bərabər-
tən gedə bilməyib ki
Müşfiqin əldə qələmi…
Dünyadan tez gedib…
Onun ürəyi uzun müddət
döyünüb…
döyünüb…
döyünüb
heç yorulmayıb
Döyündükcə…
hərarəti artıb,
döyündükcə
şiddəti artıb,
döyündükcə
sürəti artıb.
Lakin onun şair ürəyi
heç yorulmayıb.
Müşfiq o döyüntülərdən
heç beşcə kəlmə deməmiş…
dili yorulub...
O hərarətdən
kükrəyib dili
O şiddətdən
titrəyib dili
O sürətdən
büdrəyib dili
Müşfiq o döyüntülərdən
heç üçcə qatar yazmamış
əli yorulub...
O hərarətdən təntiyib

ilişib əli
O şiddətdən
səhv yazıb
çaşıb əli
O sürətdən
tam heydən düşüb əli...
Müşfiqin hərarətlə döyünən qəlbi
şiddətlə döyünən qəlbi
sürətlə döyünən qəlbi
Öz əlinin gücsüzlüyünü
öz dilinin acizliyini
belə görəndə-
bunlara dözə bilməyib-
Həmin o hərarətdən tövşüyüb
Həmin o şiddətdən çırpınıb
Həmin o sürətdən partlayıb
Tövşüyə-tövşüyə
çırpına-çırpına
partlaya-partlaya
ancaq bircə bunu söyləyə bilib:
"Eheyy…ey şairlər!
Siz bilin…
Bu gündən belə…
yazmadı Müşfiq…
Ürəyinin bu cür döyünməsinə…
dözmədi Müşfiq…
İnsan arzusunun yaratdığı
bu yeni dünyada
Bu azadlığı,
bəxtiyarlığı
görsün gözünüz,
tükənməsin sözünüz.





Siz hər nə etsəniz də…
Vətəni satmayın yada!
Dözmədi Müşfiq…
siz dözün barı…
Yazmadı Müşfiq
siz yazın barı…
Ürəyinin bu sözlərilə
Mikayıl Müşfiq
Şairlərin boynuna qoydu
ən ağır bir yük...
Öz ürəyinin döyüntülərinə
dözə bilməyib
Onçun da tez köçüb
dünyadan Müşfiq
Öz ürəyinin döyüntülərini
yaza bilməyib
Onçun da tez köçüb
dünyadan Müşfiq.
Yox!..
Ölməyib Mikayıl Müşfiq-
o şair
hələ yaşayır
Yox!..
Ölməyib Mikayıl Müşfiq
Yaşayır hələ…
yazır…
o şair
hələ yaşayır

***Mart 1981***

## Kişilər niyə ağlayır?

*Qarabağ dəhşətlərini görəndə videolentə köçürərkən ağlayıb hönkürən və bu səbəbdən, bu dərddən öz ölümünü qabaqcadan hiss edən Çingiz Mustafayevin əziz xatirəsinə*

*Deyirlər bütövdür, kişi ağlamaz*
*Fəlakət baş verər, kişi ağlasa...*
*El sirrini eldən gizli saxlamaz*
*Zəlalət hökm sürər sirri saxlasa...*

***Avşar Eyvaz***

Qürurlu kişini heç nə dağlamaz
Səfaləti görən kişi ağlayar!..
Fəlakət görməsə, kişi ağlamaz
Fəlakəti görən kişi ağlayar!..

Diri-diri şişlə dağlananlar var
İsməti, qeyrəti, qırılanlar var
Canı qıyma-qıyma doğrananlar var
Zəlaləti görən kişi ağlayar!...

Dəhşətə ağlayıb hönkürdü Çingiz
Dəhşəti yaddaşa köçürtdü Çingiz
Dəhşəti dünyaya ötürdü Çingiz
Qiyaməti görən kişi ağlayar!..

Malı, mülkü, yurdu qapılan zaman
Körpəsi, qocası çapılan zaman
Dil kəsik, göz çıxmış tapılan zaman
Rəzaləti görən kişi ağlayar!...





Vətənin nisgili—torpaq yarası
Qarabag nalәsi—ana ağrısı
Xocalı fəryadı—bala yanqısı
Məşəqqəti görən kişi ağlayar!...

Acizlik göstərən müstərdir, müstər...
Vətən vətəndaşı hünər göstərər
Çingizin göz yaşı intiqam istər
Müsibəti görən kişi ağlayar!..

Eyvaz inamlı ol...düşmən batacaq
Ana yurdda hamı sərbəst yatacaq
Bayrağı el sancıb, bayram çatacaq
Bu haləti görən kişi ağlayar!...

## Yaqub

***Muğam ustası Yaqub Məmmədova həsr edirəm***

Qarabağ yurdunda muğam oxunur
Əzəldən muğama bağlıdır Yaqub!
"Segah"ı ruhlara hopur, toxunur
Axı, özü Qarabağlıdır Yaqub!

Oxuyarkən zildən "Mənsuriyyə"ni
Saxlatdırır göydə hər səyriyəni
Mahnıda söyləyir ruhlar deyəni
Həvəsdə bir bahar çağlıdır Yaqub!

Dünyaya yayılıb səsi sorağı
Vətəndir məsləki, böyük dayağı
Musiqi dilində dili-dodağı
Sanki, not sehri-nağılıdır Yaqub!

Mütəllimdən, Xandan bitkin dərsi var
Bənzərsiz, qaltanlı, şaqraq səsi var
Könüllər titrədən zəngüləsi var
Qafqaz oğlu, Qafqaz dağlıdır Yaqub!

Nəğməkar oğludur obanın, elin
Ustasıdır muğam səltənətinin
Fəxri, qürurudur Ağcabədinin
Eyvazın qələmi yağlıdır, Yaqub!

## Məşədi Əli

Qarabağ elindən...Avşar balası
Atası, balası elin mollası
İbrətli söhbəti-hikmət qalası
Yüz ölçür, bir biçir Məşədi Əli

Allah bağışlasa bəndə qurtulur
Ona xeyrül-əməl gətirir qürur
Zəlilə, yetimə çox kömək durur
Savabla nur saçır Məşədi Əli

Hər doğulan imam Əli olmadı
Xeyirxah insanın Əlidir adı
Eldə birdir ona qohumu,yadı
Sınaqdan çox keçir Məşədi Əli

Haramı halala heç vaxt qatmayır
Hüququnu bilir, tapdalatmayır
El görür... nahaqqa haqqı satmayır
Yolunu düz seçir Məşədi Əli





Əlinin zikrinə diqqətlə baxın
"Quran"ı sevərək ürəyə sıxın
Avşar Eyvaz kimi buraxmır yaxın
Günahlardan qaçır Məşədi Əli

## Elcanlı oğlan

***Avşar kəndinin xeyriyyəci oğlu***
***Müşrüd (Kərim) Cəfərova həsr edirəm***

Adı Mürşüd, Kərim kimi tanınır
Sayəsində neçə insan dolanır
El yolunda canı oda qalanır
Bir elin fəxridir elcanlı oğlan

Öz gücüylə kənddə məscid tikdirir
Zəlilə, yetimə yardım göstərir
Kimsəsiz kəslərə əl də yetirir
Kənd üçün, el üçün hər yanlı oğlan

Nəfsini hər yerdə tam cilovlayır
Qurban vaxtı qurban kəsib paylayır
Dəstəkləyir, el onu haylayır
Ad-sana layiqdir ad-sanlı oğlan

İş adamı kimi məktəb ucaldır
Kömək verir yola asfalt saldırır
Hər yerdə elinə rəğbət yaradır
Çox mehriban, istiqanlı oğlan

Avşar Eyvaz bilir bu gündən belə
Vətəndə orduyla tutar əl-ələ
Xeyirxah tək çox iş görəcək hələ
Bir adın var: Azərbaycanlı oğlan!

## Günəş nurlu insan

***Məhəmməd Peyğəmbərə (s.ə.s)***

Saysız-hesabsız ulduzlara,
göyə bax,
işığı yox, istisi yox...
Gümüşü rəngdə bərq vuran
aya bax,
işığı az,
istisi, tüstüsü yox
Günəş təkdir, amma
nuru çox,
işığı çox, istisi çox..
Dedim Günəş birdir...
bircə dənədir
onun yanında ulduz da,
ay da hədərdir...
Günəşin işığı,
istisi elə Günəş qədərdir
Elə... insanlar da belədir...
Milyardda biri bənzəyir Günəşə
Ona bərabərdir
Var belə bir nəfər:--
--Onun adı--
Məhəmməd peğəmbər (s.ə.s)!..





## Nankor övladlı ana

***Dostum Zakirə***

Qız köçər, qayıtmaz ata evinə
Kimə ev qaraltdı ana ürəyi?
Oğulsa tez uydu arvad felinə
Bu dərddə saraltdı ana ürəyi

Ömrünü balaya həsr edən ana
Xoş gün arzüladı öz balasına
Alqışı qarışar haqq duasına
Bir nisgil yaratdı ana ürəyi

Doğma anasını bumbuz otaqda
Naəlac, xəstəhal qoydu yataqda
Bir övlad kəlməsi solğun dodaqda
Bir fəryad qopartdı ana ürəyi

Nə qədər sevinib övlad sayına
Böyüyüb çatacaq onun hayına
İndi möhtac qalıb oğul payına
Oğlunu axtartdı ana ürəyi

Bir ana haqqını itirən övlad
Ata əməyini batıran övlad
Öləndə özünü yetirən övlad
O saat partlatdı ana ürəyi

Haqqını oğlundan geri almağa
Haram etdi qıza saçı yolmağa
Qadağa da qoydu yada salmağa
Qəbrini çatlatdı ana ürəyi

Eyvaz çox acıyır...Zakir, halına
Nə, nə deyək nankor övladlarına?
Ana ocağına, ata yurduna
Bəd qarğış yağdırtdı ana ürəyi





# VIII Bölüm

# ŞİKAYƏTNAMƏ

## Aç bağlı yolu

Zamanın hökmünə sinə gərirsən
Millətin halını özün görürsən
Çox sayda sərəncam, fərman verirsən
Mənə də bir yol aç!..Haqqımı alım!

Bir şair babayam, səsimə hay ver
Ölkənin mülkündən mənə də pay ver
Yetiməm, yiyə dur... haqqımı say, ver
Mənə də bir yol aç!..Haqqımı alım!

Bəxtimiz fərqlidir... hökmün quluyuq
Dəyərli sərvətlə əli doluyuq
Sən də, mən də vətən oğluyuq
Mənə də bir yol aç!..Haqqımı alım!

## Millət anasına məktub

Salam!
Ay millətin anası,
Mehriban xanım!
var olsun
qoy çiçəklənsin Sizinlə
doğma Azərbaycanım!
İnkişaf etsin
İlhamla irəli
imza atın ərizəmə
əliniz olsun pir əli
Respublikanın
birinci xanımı,





UNESKO və...
İSESKO-nun
xoşməramlı səfiri,
millət vəkili,
H.Əliyev Fondunun prezidenti,
canyandıran, xeyriyyəçi—
bu qədər
titullar ki Sizdə var...
yardım göstərin
heç olmasa
bir kitabım çıxsın
Noolar!..
... Şeirlər kitabının
mincə manat xərci var
mənim Vətənə,
Vətənin də mənə borcu var!
Qoy əsərlərimi
gələcək nəsillər də
oxusun
Azəri xalqı
ədəbiyyatına
mənimlə bir ilmə
bir inci toxusun!

## IX Bölüm

# İSRARNAMƏ





### Zaman məni isitmir

Onsuz da zamanın qulağı dolub
Nə qədər qışqırsam eşidən deyil!
Soyuyub, dövranın gözü tutulub
O məni bir kərə isidən deyil!

Zəmanə keçibdir naqis əllərə
Əllərdə öyrəşib pis əməllərə
Paslı kilid vurub iblis illərə
Dövranın açarı heç itən deyil!

Zamanın nəbzini necə tutum mən?
Ayırıb qoparım insan əlindən...
Özümü qoruyum hər kələyindən
Mərhəmət Eyvaza yetişən deyil...

### Haqqım var giley etməyə

Eşitmir səsimi əsrin qulağı
Əsrin qulağını kəsib atacam!..
Məni görmür dövrün gözü, işığı
Dövranın gözünə mil tək batacam!..

Zaman məndən qorxur, atını minmir
Zaman pis gündədir, halı bilinmir
Zaman çox keyləşib... onsuz da dinmir
Dinsə... dinən günü onu tutacam!..

Dilsiz qulaqsıza fərd deməsə vaxt
Gözsüz başbilənə bərk deməsə vaxt
Sözü qaydasında— sərt deməsə vaxt
Vaxtın xaşılını özüm qatacam!..

Nəsimi soyunan dərini geysəm
Əsrə qamçı vuran Sabiri öysəm
Ayağıma qədər diplomat əysəm
Yəqin ki tarixdə mən də yatacam!..

Mən Avşar Eyvazam... yurd sərvətiyəm
Şairlik peşəmdir... çap həsrətiyəm
Azəri oğluyam... türk qeyrətiyəm
Haqqı haqqı alan haqqa satacam!..

## Haqdan çıxanlar

Dövrandan zamana gileylənirəm
Haqq yolu tuturam, haqla gedirəm
Borcludan haqqımı tələb edirəm
Sıxır məni haqdan çıxan insanlar!

Haramçıl heç vaxt öz payını yemir
Dindirirsən Tanrı deyəndən demir
Qırnaşıb şeytanın südünü əmir
Sıxır məni haqdan çıxan insanlar!

Eyvazı ölkədə vətəndaş saymır
Xəzinəni yeyir, dağıdır, doymur
Hər kəsin payını özünə qıymır
Sıxır məni haqdan çıxan insanlar!





## İlahi! Yarıtma əməlbetəri

Elə çat verib ki yara... bitişmir
Dərd-qəm bəsləns ə də barı yetişmir
Yayın yay günündə qarı ötüşmür
İlahi!.. Yarıtma əməlbetəri!

İblislər sevinir alim pasına
Cahillər inanır falçı tasına
Xainlər şadlanır igid yasına
İlahi!.. Yarıtma əməlbetəri!

Haqsızlıq dünyanı bürüyüb basıb
Haqsızlar haqlını baş-ayaq asıb
Varlılar qudurub, alçalıb kasıb
İlahi!.. Yarıtma əməlbetəri!

Başbilən fəryadı, səsi eşitmir
Qarğışlar, nalələr onu üşütmür
Taxtı da çevrilib onu düşürtmür
İlahi!.. Yarıtma əməlbetəri!

Verim, qəbul eylə nəzir-niyazı
Eşit bircə kərə Avşar Eyvazı
Yarıt əməldüzü, yandır haqsızı
İlahi!.. Yarıtma əməlbetəri!

# X Bölüm

# İQRARNAMƏ

***Dünya hərəkatı haqqında***





## Vətən əmri

***Ana Vətənin süd əmən doğma oğluna birinci əmri***

***Dünya hərəkatı haqqında***

Düşmən torpağını basdı, taladı
Artıq yatma oyan... oyan, dur, oğlan!..
Od vurdu... yurdunda ocaq qaladı
Tədbir tök, baş işlət, plan qur, oğlan!..

Yağılar baş kəsdi, evləri yardı
Uşağı, böyüyü doğradı, qırdı
Neçə qız-gəlini girov apardı
Tərpən get, düşmənə qan uddur, oğlan!..

Qeyrətə gəl, qisas yolları axtar
Vətənin haqqını özünə qaytar
Düşdüyü bəladan milləti qurtar
Nisgili Eyvaza unutdur, oğlan!..

## Vətən sərəncamı

***Boya-başa yetirdiyi övladına Vətəninin birinci sərəncamı***

***Dünya hərəkatı haqqında***

Bəxtin çəkib ölkənin başında dursan
Özünə vətən mülkündən xaniman qursan
Qayğı göstər vətənin şərəfini
ucaldan insana
Ruh ver, qoy dönsün
onların hər biri
bir qəhrəmana

Qabaqca fikir ver
ölkənin aliminə, şairinə
fikir ver əsl sənətkarın
ən zəifinə...
...Süd vermişəm ki döşümdən sənə
Vicdanla xidmət edəsən anan Vətənə
Ölkədə haqq-ədalət yarat...
axı, sənin hökmün var
olar ki səsi,
əli çatmaz sənə
birdən kiminsə haqqı daldalanar!..
özgə-ögey münasibət bəsləmə
doğma xalqına
eyni gözlə bərabər bax
bütün vətən övladına
Olar ki dost-tanışı,
qohum-əqrabanı
toplayıb yığarsan başına...
İtirərsən ana haqqımı
birdən fikir verməzsən ölkənin
küncdə qalan fərsiz vətəndaşına
Onda... onda əmdiyin südü
sənə halal etmərəm...
Haram edib onu sənin burnundan
gətirərəm...





## Vətən fərmanı

***Ağzını söykəyib ana südünü əmən doğma övladına***
***Ana Vətənin birinci fərmanı***
***Dünya hərəkatı haqqında***

Yeyə-yeyə vətən mülkünü
yeyib qudursan
Tərəfkeşlik edib
kiminsə tərəfində dursan
Haq deyənin haq səsini boğsan
Haqsızın ayağı altına
haqlını yıxsan
Bil ki, səni yerlə-yeksan edərəm...
Səni alçaldıb ən rəzil insan edərəm
Çünki, mənim yetərincə
hünərim var, cəsarətim var
gücüm var, qüdrətim var
Xalqdan ibarət
xalq boyda qoşunum var mənim
İstənilən anda işə düşən,
əzə bilən maşınım var mənim
Əsir-yesir edərəm
ayaq altda torpaq da yandırar səni
Xalqa deyərəm... xalqa deyərəm...
elə çıxdığın yolda qandırar səni
Ana dediyin torpaq da qəbul etməz
sənin murdar cəsədini
Üstəlik, tarix də silər
tarixdən sənin nəsil-nəcabətini!!..

# XI Bölüm

# AZƏRİNAMƏ





## Ən böyük günah

I

Yağı düşmən əlindən yara almışsan
Sanki oğulsuzmuşsan...
Oğlun ola-ola oğulsuz qalmısan
Yaranı sarımamışam...
Mən sənə yarımamışam...
Günahkaram qarşında...
günahkaram qarşında
günahım çoxdur...
Səndən başqa başqa anam yoxdur
Səni anlamadım
səni duymadım...
Bəs, şirin yuxularıma
niyə, niyə qıymadım?!
Dünyanın çirkin əməlinə
mənfur fitnə-felinə
Vaxtında vermədim fikir...
Yatdım... yatdım ayılmadım!
Yatağan olduğum üçün
Anam öz dərdini unudub
ancaq, ancaq mənim dərdimi çəkir!..
...Dünya sakini—
İNSAN dediyimiz insanı
bu qədər xain,
bu qədər riyakar bilməzdim...
Dünya torpağı bir süfrə—
              süfrə zamanı
süfrəyə
mən olsam İNSAN kimi
Xəyanətkar gəlməzdim...

...Mən nə bilim xəyanət var,
xain var
mən nə bilim fürsət düşən kimi
fürsət yoxsulu yara vurar...
...Yara almısan...
yaralı qalmısan
Ey Vətən! Yaranı sarımadım
Bir oğul tək mən sənə yarımadım...
Çox acizəm... çox acizəm
qanlı dava yarışında
Günahkaram,
günahkaram qarşında
Ay Ana!... Ay Ana!..
Günahımı tənə ilə alqışla
Axı, sən anasan ana
ana tək,
ana tək məni bağışla...
Ay Ana!.. Ey Vətən!..
Bağışlanmaz günahımı
bağışlasan nə dərdim?
Onu bil ki, bağışlansam
bu günahı yumaq üçün
ayağına qədər
dizin-dizin sürünərdim...

**II**

Anan ölsün
Anan ölsün, ay bala
Yatdın...
günaha batdın...
yatdın, oldun dərdə mübtəla!





Dörd dəfə dörd yerdən dörd yara aldım
Təbib yox, loğman yox... çarəsiz qaldım...
Zamanmı dönükdür? İnsanmı qəddar?
insanla İNSAN arasında
müharibədirmi ən ali rəftar?
Yaralandım, oldum ən ağır xəstə?
Düşmən gəzir sənə süd verdiyim
sinəmin, döşümün üstə...
Oğul! Ay oğul, ağılın, kamalın olsun?
Hay sal qardaşın qeyrətə dolsun!..
Gəlsin,
gəlsin düşmən ayağını kəssin...
qoymasın o ayaqlar
təkrar-təkrar sızlada məni...
Neyləyir eləsin... neyləyir eləsin
yağının qəddini əysin
qoymasın yağılar
dərd içində... dərd içində
qovura, bələyə, gizlədə səni!..
Qoymasın düşmən ayağı
əzib sızlada məni...
sızlada məni!
Qoymasın dərd içində,
dərd içində bələyə,
gizlədə səni,
gizlədə səni!..

## Vətən

Ana bətni, ana torpaq vətəndi!
Sülh əkilən yerdə bayraq bitəndi!
Ağır gündə dada qardaş yetəndi!
Dan sökülən anda zülmət itəndi!

Hər bir ana bətni, bu Yer kürəsi
Ata yurdu, ana torpaq vətəndi
Zülmü boğa bilsə insan zümrəsi
Sülh əkilən yerdə bayraq bitəndi!

Sükunəti gülüş sıxar ayılar
Əsarəti zəncir boğar bayılar
Qaranlıqdan işıq doğar yayılar
Dan sökülən anda zülmət itəndi!

Oğul Dövlət qurar bayraq qaldırar
Düşmənin ağzından torpaq saldırar
Qardaş qardaşına zəfər çaldırar
Ağır gündə dada qardaş yetəndi!

Ana bətni, ana torpaq vətəndi
Sülh əkilən yerdə bayraq bitəndi!
Ağır gündə dada qardaş yetəndi
Dan sökülən anda zülmət itəndi!

***1995***





## Vətən Vətəndir

Nədir həyat fəlsəfəsi
Odur yaşamaq həvəsi
İçə çəkmə boş nəfəsi
Yaşa, gərək ol Vətənə!

Qəlbən sev ki,sevim səni
Şirin yeyim hər kəlməni
Ələ əl ver, bərk tut məni
Yaşa, gərək ol sən mənə!

Öl de, bax gör, necə ölləm
Əmrinə mən öncə gəlləm
Ölkəm, səni Vətən billəm
Yaşa, gərək olum sənə!

## Vətəndir

Özünə ata yox, ana deyərlər
Diz çöküb torpağa başı əyərlər
Tamlı çörəyini halal yeyərlər
Şərəfim, şöhrətim, şanım Vətəndir!

Yaşamaram yardan ötrü... bataram
Vətənə görə mən yarı ataram
Vətəni hər şeydən üstün tutaram
Eşqim, məhəbbətim, canım Vətəndir!

Mən Avşar Eyvazam, yükü çiynimdə
Dəyəri, sərvəti, gücü əynimdə
Məramı, məqsədi, zehni beynimdə
Məsləkim, vicdanım, qanım Vətəndir!

## Qarabağ həsrəti

Çox böyükdür,
çox ağırdır
mənim Qarabağ dərdim
İnanan olmasa
dünyanın gözü önündə
onu çəkərdim
Dərdin təraziyə
sığmayan hissəsini,
yüz milyonda birini-
yəni milyonda bir nisbini
dünyanın öz ürəyinə tökərdim...
Onda
görüm mən çəkən dərdi
dünya özü çəkərdi?...
...Apara bilsəydim
həmin dərdi
aparıb dünyanın
ən hündür nöqtəsində
ən uca zirvəsində
əridərdim...
Elə əridərdim,
elə əridərdim ki,
ərinti səpilsin,
yayılsın bütün dünyaya
Yer üzünü dərd bürüsün
sonuncu dərdsiz insanı da
dərd sürüsün...
Dərdlinin dəhşətli səsi
dəhşətdən yaranan
qorxulu əks-sədası





qalxsın ərşi-səmaya
Dərdi anlasın
insana dərd verən insan
dərd salsın ürəyinə
birinci onu qanlasın
verdiyi fərman...
...O insana əlim çatsa,
onu didim-didim didərdim
axı, çox ağırdır,
həddən çox ağırdır
mənim Qarabağ dərdim
olduqca ağırdır
Qarabağ dərdim...
Dünyanı bir-birinə
qatsa da
Günahsız əlim
nahaq qana batsa da
bütün dərdi götürərdim
dünyanın öz ürəyinə ötürərdim
baxardım görəm mən çəkən dərdi
dünya özü necə çəkərdi...
Çəkə bilməz,
çəkə bilməz dünya mən çəkən dərdi
Çünki, onun mənim qədər dözümü yoxdur
Dünya dərd çəkə bilsə
O çoxdan məhv olub gedərdi
Çünki, dünyanın
əzəldən bəri
nizamı, dözümü yoxdur
Dünyanın mənim qədər
dözümü yoxdur...
dözümü yoxdur...

## Zəlzələ elə, Qarabağ

Qarabağ!
Neçə illərdir
dözürsən...
iniltiylə yaşayırsan
Vətənin ürəyində...
sağlam ürək kimi
döyünürsən...
təmiz qanla axırsan
üfunətli dövrün,
xəstə zamanın
məkrlə vuran nəbzində...
Qarabağ! Sən özün igid ol,
Vətənində
İnsafa gəl, qeyrətə dol
qoyma düşmənin
gəzə üzərində...
Bizdən sənə kömək yox...
haray yox...
bağlı yollar daha çox...
Güman qalıb sənə...
sənin ozünə...
Neyləyirsən, elə,
özün elə...
bilmirəm neylə,
neyləyirsən özün elə
elə zəlzələ...
zəlzələ elə...
Tərpət dünyanı məhvərindən
tüğyan elə





üsyan elə
dünyanı oynat yerindən
Ağzından od püskür,
od ələ...
elə zəlzələ...
zəlzələ elə...
dünyanı fəlakətə sürüklə
ya alışsın yansın,
ya da oyansın
Heç kəs günah görməsin səndə
Haqqını göstər əməlində...
Haqqını almağa
özünü özünə qaytarmağa
neyləyirsən elə
bilmirəm neylə
elə zəlzələ...
dünya gəlsin lərzəyə
...Batır onları–
düşmənləri–işğalçı azğınları
lazım gəlsə özün də bat,
bir möcüzə yarat!...
... axır ki, biz yaşamayan torpaqlarda
Dünyanın gözü O Qarabağda
onlar da yaşamasın
biz yaşamırıqsa orda
Hər kəsi göm,
hər kəsi göm
getsin yaşasın gorda...

## Qərənfil yağışı

Yeriyib üstümə zirehli maşınla
Şəhərimi bombardmana aldılar!
Duraraq qəsdimə silahlı qoşunla
Millətimi gülləbarana saldılar!

Yeddi rəngin beşi itdi, yağmalandı
Qara ilə Qırmızı rəng mənə qaldı...
Yeddi notun beşi getdi... yağmalandı
Matəm marşı, zəfər marşı... yenə qaldı!

Qara bayraq Şəhidlərə yas saxladı
Şanlı tarix yazdı Qırmızı Qərənfil...
Matəm marşı Qəm içində Qan ağladı
Çaldı ölkəm zəfər marşını... müstəqil!

Ölümlü dünyanın ən dar küçəsində
Qurban verdi, məğrur durdu Azərbaycan!
90-cı ilin Yanvar Gecəsində
Qalib oldu, Dövlət qurdu Azərbaycan!

## Qara Yanvar

Yaşadı Azərbaycan
20 Yanvar faciəsini...
Güc aldı bu qırğından
qoydu azadlıq bünövrəsini
Dəhşət bürüdü aləmi Vətəndə
Şəhid oldu Vətən övladları
Qanı ilə yazdı tarixə
Bütün olanları





Fəth elədi şəhidlik zirvəsini
Sevgisini Vətənə bildirmək üçün
Fəth elədi...
...məhəbbətini
səadətini
Vətənə qurban etdirmək üçün
Əliyalın getdi,
sinə gərdi toplu tankın önünə
cəsarətlə, mətin yeridi
toplu tankın önünə
...Rəşadəti ilə yumruq göstərdi
tankı kənardan idarə edənlərə
Qəzəb, nifrət göstərdi
dəyanəti ilə cumdu
insanlıqdan çıxan
insan üstünə
Hayxırıb tüpürdü tankı sürənlərə
Vətən azadlığı uğrunda
sevə-sevə qurban verdilər canlarını
Axıtdılar canlarını yaşadan
qızıl qanlarını
Şəhid etdilər özlərini
ölümü ilə dedilər sözlərini
O günahsız 132-lər
şəhidlik toxumu əkdilər
dönə-dönə tapşırdılar
sonrakı nəsilə
vəsiyyət etdilər...
"Qoruyun Vətəni...
qoymayın
keçə əldən-ələ"dedilər
90-nın Qara-Qırmızı Yanvarında

Şəhid olsa da 137-lər
Azadlıq mücadili olub
Vətən torpağında bitdilər...
Qara bir ...gecə
Qara bir gecə
bax beləcə
əl-ələ tutdular
güllələrə sipər çəkdilər bədənlərini
Xalqı oyatdılar...
oyatdılar sadəcə
Qara Yanvar gecəsində
Azərbaycanın paytaxtı Bakının bir küçəsində
Gülləyə sipər çəkdilər bədənlərini
Qara Yanvar gecəsində
Qara Yanvar gecəsində
Azad etdilər Vətənlərini!...

**Vətən zərbəsi**

Özünü və...
öz oğlunu gizlədirsən
çəkirsən geriyə...
Məni və...
mənim oğlumu
Vətən adından çağırırsan ,
göndərirsən hərbiyə!
Çünki, hökm öz əlindədir
Vətən
yolunda qabağa çıxmamaq
əməlindədir!!...
Zamanla axırsan...
çirkin yolla yığırsan





İstədiyin dövləti, varı
İmkanın var,
pulun var
Satın alırsan hökmdarı!
Vətən...
Vətən həm sənindi,
həm mənimdi,Vətən
Söylə, görüm bəs, onda nədən?
Son əzaba qatlaşıb
son damla qanıma qədər
Vətəni qorumaq
Mənə və...
mənim oğluma düşüb!
Çox rahatca...hədər
Qorxusuz, ürküsüz,
əziyyətsiz, filansız
bütöv yağlı tikəni
Vətəndə udmaq
Sənə və...
sənin öğluna bişib!
...Kasıbın oğlu getdi...
Getdi
Vətən qorumağa
Vətənin keşiyində
canla-başla,
möhkəm, mətin durmağa...
Öldü...
ömrü Vətən uğrunda
bitdi...
ölüsü gəldi...
Ehtiyac duyuldu
yas aparmağa

...Yenə sən və... sənin oğlun
qaçıb gizləndi, çıxmadı üzə...
Heç olmasa
ehsan üçün çox ucuz xərclə
çay süfrəsini oğlunla gəl,
oğlunla gəl
böyük həvəslə
barı sən bəzə...
oğlunla gəl,
oğlunla gəl barı sən bəzə...
"Birik...
qanun qarşısında
bərabərik" demə!
Əməllərin birər-birər
yığılıb ələnməlidir!...
Əməllərin birər-birər
yığılıb ələnməlidir!...
"Ən gözəl...
furavan bir həyat
sürürük" demə
Ən birinci
sənin payın
sıxılıb bölünməlidir!
Ən birinci
sənin payın
sıxılıb bölünməlidir!





## Şəhid olsam...

*.Vətənin unudulmaz şəhidlərinə*

Kaş bir şəhid ömrü qədər
ömrüm olaydı...
Vətən yolunda şəhadətə yetəydim
qanım axaydı,
torpağımı qan sulayaydı
Vətən gülü adında
Vətən torpağında
mən də bitəydim...
Çünki, şəhid məzarı önündə
and içirlər...
Vətənin ən dar günündə
candan keçirlər!..
Qürrələnsə də...
Şəhid üstünə şəhid versə Vətən
onları anıb sarsılır!
Kədərlənsə də...
Yağı düşməni
üzərində gəzən görsə Vətən
pörşələnib için-için
yanıb qarsılır...
... Vətən!.. Vətən!..
ölməmişəm, bil ki varam...
şəhid olmadan mən
düşməni ayaq altda yalvardaram
Axı, mən bayraq götürüb
Şəhid önündə and içmişəm...
And içən günü mən
düçmənə kəfən biçmişəm!..
... Ortalığa qan salacam

Mən intiqam alacam...
mən intiqam alacam!..
Düşmən üzərində
Q Ə L Ə B Ə çalacam!..
İşğaldan azad edib torpağımı
bayrağı sinəmə sıxacam
başım üzərinə qaldırıb
onu Şuşa qalasına
öz əlimlə özüm taxacam!
Ən uca zirvədən
vətənimə məğrur baxacam!
Ey Vətən!
Məni sən
Şəhid etsən
nə dərdim?!
Aparsan şəhidliyə
mən də gedərdim!..
Qələbə üçün sənin uğrunda
şəhadətə yetərdim
Ey Vətən!
Məni sən
Şəhid etsən
nə dərdim?!
Şəhid gülü adında
müqəddəs torpağında
şəhid olsam...
şəhid olsam nə b i t ə r d i i m...





## XII Bölüm

# EŞQNAMƏ

## Ürəyimdə

Ürəyimdə qəmim var
Çöllərimdə zəmim var
Bu dünyada, sevgilim,
Səndən başqa kimim var?

Ürəyimdə sözüm var
Bircə səndə gözüm var
Dərdə salma, sevgilim
Məndə dərdə dözüm var?

Ürəyimdə ağım var
Güllü bağçam,bağım var
Üz döndərmə, sevgilim,
Düşmənim var, yağım var

Ürəyimdə ahım var
Sənə qurban canım var
"Sevgi" adlı, sevgilim,
Sevimli bir mahnım var

Ürəyimdə barım var
Alma, heyva, narım var
Nə dərdim var, sevgilim?-
Sənin kimi yarım var

Ürəyimdə sözüm var
Ocağım var, közüm var
Görüşə gəl, sevgilim,
Həsrət çəkən gözüm var





Ürəyimdə abım var
Ovçu olsam "avım" var
Darıxmışam, sevgilim,
Ayrılığa tabım var?

Ürəyimdə dözüm var
Yolarında gözüm var
Bir bizə gəl, sevgilim,
Deyiləsi sözüm var

Ürəyimdə arzum var
Göylərdə ulduzum var
Sənin kimi, sevgilim,
Qara gözlü quzum var

Ürəyimdə dözüm var
Bağçamızda üzüm var
Ürək dolu, sevgilim,
Sənə çoxlu sözüm var

***Mart 1980***

## Eşqimi söndürə bilməz

Səninlə alıram həyatda nəfəs
Qəlbim səndən ayrı yaşaya bilməz!
Ən qorxulu olan hər hansı bir səs
Mənim bu eşqimi söndürə bilməz!
Mənim bu eşqimi söndürə bilməz!

Sən eylə, gözəlim, əhdinə vəfa
Sevəcəyəm səni... olsa da cəfa
Bizim aramızda düşsə də dava
Mənim bu eşqimi söndürə bilməz!
Mənim bu eşqimi söndürə bilməz!

Parlasa da şimşək, olsa da boran
Qopsa da fırtına, qopsa da tufan
Çaxsa da ildırım, yağsa da leysan
Mənim bu eşqimi söndürə bilməz!
Mənim bu eşqimi söndürə bilməz!

*Aprel 1980*

## Sevgilim

Dolanım başına, alım ağrını
Xəyalla keçir hər anım, sevgilim
Sevgi atəşinə sənin eşqinlə
Bəs nə vaxta qədər yanım, sevgilim?

Sənsən ümid yerim, sənsən təsəllim
Sənsən sevinc payım, sənsən kədərim
Sənsən arzu-kamım, sənsən diləyim
Yoxdur ikinci bir canım, sevgilim!





Eyvazam, hüsnünə olmuşam aşiq
Mənə ruh verirsən, elə yaraşıq
Qəlbini qəlbimə eylə sarmaşıq
Donmasın damarda qanım, sevgilim!

*Sentyabr 1979*

## Bir axşam

Mən bir axşam aydın gecədə
Gördüm sənin şümşad boyunu
Gözlərini demirəm hələ
Oldum kipriyinin vurğunu

Mən bir axşam ay işığında
Gördüm sənin gül camalını
Uçurduram uca göylərdə
Yenə sənin xoş xəyalını

Mən bir axşam tutqun gecədə
Gördüm sənin qara gözünü
Gözünü yox, sanki səhərin
Gördüm parlaq dan ulduzunu

Mən bir axşam qara gecədə
Gördüm sənin o ay üzünü
İşıqlı ay kimi yenə də
İşıq etdin bu yer üzünü

Mən bir axşam solğun gecədə
Gördüm sənin al yanağını
Günəş oldun elə bil ki sən
İşıq etdin bütün dünyanı.

Mən bir axşam səni dindirib
Gördüm sənin şirin dilini
Sevdim səni o vaxtdan bəri
Sən də sevdin o vaxtdan məni

Mən bir axşam rast gəldim sənə
Gördüm sənin ipək saçını
İcazə ver, ayüzlüm, mənə
Sığallayım—çəkim nazını

Mən bir axşam çıxdım qarşına
Gördüm sənin bal dodağını
Çağır, çəkil söyüd altına
Qonaq eylə "öz qonağını"

Mən bir axşam soyuq gecədə
Duydum sənin qaynar qanını
Ruh ver, yaşat Eyvazın sən də
Sənə lazım olan canını

*Aprel 1980*

## Yaralı qoyma

Onsuz da sən məni yaralamışsan
Gəl yaralı qoyma, gözəlim, məni.
Bir ürəyimi sən paralamışsan
Gəl yaralı qoyma, gözəlim, məni

Yaralandım səni gördüyüm gündən
O xoş saatdan, xoş dəqiqədən
Gəl,sən üz döndərmə, maralım, məndən
Gəl yaralı qoyma, gözəlim, məni





Sən öz əlinlə gəl, gəl al canımı
Ya öldür—su kimi axıt qanımı
Ya öz əlinlə gəl, bağla yaramı
Gəl yaralı qoyma, gözəlim, məni

## Ucuz tutmayın sevgimi

Ürəyimdə eşqin, dilimdə adın
Odur ki, könlümdə göyə ucaldın
Oynatdın qəlbimi... bəs niyə atdın?
Zülm edərmi yar da yara, sevgilim?
Qaşları, gözləri qara, sevgilim

Bir zaman özünə çəkdin meylimi
Bir sənə salmışdım olan mehrimi
Niyə ayaqladın?... əzdin sevgimi?
Gedirsən indi bəs... hara, sevgilim?
Qaşları, gözləri qara, sevgilim

Aldanma heç zaman vara-dövlətə
Uyma nə altuna, nə də şöhrətə
Axır ki Eyvazı salma möhnətə
Gəl mənə sən vurma yara, sevgilim
Qaşları, gözləri qara, sevgilim

*May 1980*

## Bildinmi niyə incidim?

Kimindir o üzük—barmaqlarında?
Bəs sırğa kimindir—qulaqlarında?
Bildinmi mən səndən niyə incidim?
Bildinmi mən səndən niyə incidim?

Əl yeri görünür—o saçlarında
Mübarək o təzə—daraqların da
Bildinmi mən səndən niyə incidim?
Bildinmi mən səndən niyə incidim?

Dodaq izi vardır–dodaqlarında
Busə yeri gördüm—yanaqlarında
Bildinmi mən səndən niyə incidim?
Bildinmi mən səndən niyə incidim?

***1979***

## Niyə incidin?

Kim sənə nə demiş... bilmirəm məndən
Sən ona görəmi üz döndərmisən?
Atırsan?... Bəs, bizim o ilk andımız...
"Ölüncə pozmaram" - demirdinmi sən?

Söylə, sən nə üçün məndən incidin?
Indi öz fikrini yoxsa dəyişdin?
Gəlmədim bəlkə mən sənin xoşuna?
Atacaqdınsa,.. bəs... niyə sevirdin?

Eşqimi bir zaman demişdim sənə
Odur ki, etibar etmişdim sənə
Beləmi əzərlər sevən ürəyi -
Sevəndə bir ürək vermişdim sənə?

***Aprel 1980***





## Vəfan budurmu?

Təzələmə köhnə xatirələri
Bu kövrək qəlbimi kövrəltmə barı
Gəl yada salma keçmiş günləri
Xatırlatma mənə bir də onları
Bu kövrək qəlbimi kövrəltmə barı...

Səndən kömək umdum bərkə düşəndə
Get dedin… onda sən… getdim yanından
Başqasıyla oldun görüş yerində
Küsdürdün qəlbimi… çıxmaz yadımdan
Bu kövrək qəlbimi kövrəltmə barı...

Budurmi ilqarın?... Budurmu vəfan?
Hamısını bir-bir demirəm hələ
Eh! Səndən yar olmaz mənə heç zaman
Ömrümü havayı verirəm yelə
Bu kövrək qəlbimi kövrəltmə barı...

Bunları düşünsəm qəlbim ağrıyır
Unutdum mən, unut sən də bunları
Andından dönəndə vəfa olmayır
Hər şeyi sən mənə dedirtmə barı
Bu kövrək qəlbimi kövrəltmə barı...

***Dekabr 1981***

## Sevdiyim də sənsən, seçdiyim də sən

Mənim bu gözümün, ey bəstə boylum,
Ağı da sənsən, qarası da sən...
Mənim hər sözümün, ey qulac qollum,
Bütövü də sənsən, parası da sən...

Bax bu ürəyimin, ey gül dodaqlım,
Diləyi də sənsən, arzusu da sən...
Mənim bu ömrümün, ey ağ buxaqlım,
Günəşi də sənsən, ulduzu da sən...

Mənim bu eşqimin, ey al yanaqlım,
Əzəli də sənsən, axırı da sən...
Mənim bu sevgimin, ey bal dodaqlım,
Əvvəli də sənsən, axırı da sən...

Sevdalı könlümün, ey qara gözlüm,
Ceyranı da sənsən, turacı da sən...
Yaralı könlümün, ey şəkər sözlüm,
Dərmanı da sənsən, əlacı da sən...

Nəğməkar qəlbimin, ey qələm qaşlım,
Amanı da sənsən, günahı da sən...
Günahkar qəlbimin, ey uzun saçlım,
Gümanı da sənsən, pənahı da sən...

Sanılı günümün, ey bağ dənizlim,
Bağbanı da sənsən, çiçəyi də sən...
Mənalı ömrümün, ey ağ bənizlim,
Yalanı da sənsən, gerçəyi də sən...





Alovlu gözümün, ey şirin dillim,
Ölçdüyü də sənsən, biçdiyi də sən...
Sən bil ki Eyvazın, ey incə bellim,
Sevdiyi də sənsən, seçdiyi də sən...

*Oktyabr 1979*

## Aldan demirəm

Sevgisiz bir dünya puç olub gedər
Sevgisiz dünyanı dünya sayma, gəl!..
Eşqin oylağıdır sevən ürəklər
Onun yollarını bağlı qoyma, gəl!...
Sevgisiz dünyanı dünya sayma, gəl!..

Bir cavab almadın sevdiyin kəsdən
Bəlkə sevilmədin… sevdin ürəkdən
Çox uzaq olmusan gözdən, könüldən
Özündən heç zaman razı qalma, gəl!...
Sevgisiz dünyanı dünya sayma, gəl!..

Ən böyük dövlətim—məhəbbətimdir
İnsanlıq şərəfim—ləyaqətimdir
Gözünün işığı—səadətimdir
Ürək səsinə biganə olma, gəl!...
Sevgisiz dünyanı dünya sayma, gəl!..

*1982*

## Sən olmasaydın

Bir gözəli sevib-seçdiyim zaman
Yolunda canımdan keçdiyim zaman
Məhəbbət oduna düşdüyüm zaman
Könlümün sirdaşı sən olmasaydın
Gözəllər ofsuna salardı məni

Eşqimlə ötəndə işığa doğru
Yüyürüb çatanda çırağa doğru
Sevgimlə yetəndə ocağa doğru
Ömrümün günəşi sən olmasaydın
Gecələr zülmətdə saxlardı məni

Bir neçə gözələ mən tuş olanda
Qızların əlində aciz qalanda
Gözəlin birinə mehr salanda
Eşqimin atəşi sən olmasaydın
Ürəklərin ahı tutardı məni

Qəlbim paralanıb sızlayan anda
İçim doluxsunub çağlayan anda
Gözüm hıçqırıqla ağlayan anda
Gözümün gülüşü sən olmasaydın
Qəm-kədər yasa batırardı məni

Eşqini yoğurub eşqə qatmasan
Eyvazın qəlbinə girib yatmasan
Yerini vaxtında gəlib tutmasan
Bəxtimin mələyi sən olmasaydın
Görən kama kim çatıraradı məni?

***1983***





## Ürəyimin ortasında

Məni eşqə salacaqsan
Eşqə dustaq qalacaqsan
Məni məndən alacaqsan
Ürəyimin ortasında

Tər çiçəklər qoxlamışam
Özümü çox yoxlamışam
Sənə bir yer saxlamışam
Ürəyimin ortasında

Axır-məşər gəlib çatar
Dünya tamam itər-batar
Eyvaz təkcə səni tutar
Ürəyimin ortasında

## Tutdum

Məndə həyat eşqi bitməz, tükənməz
Göydə uçar ruhum, göylərdən enməz
Aşiqin sevgisi, həvəsi sönməz
Özümü aşiqə bərabər tutdum

İstəyirəm çiçək yığam, gül dərəm
Dəstə tutub sevdiyimə göndərəm
Sevgimi ətirli gülə döndərəm
Topladım eşqimi sərbəsər tutdum

Mən Avşar Eyvazam, götür-qoy etdim
Götürdüm elçimi yargilə getdim
Qızı nişanladım arzuma yetdim
İşimi sahmanda yerbəyer tutdum

## Bir eşq səndə, bir eşq məndə

Başımdan çıxmayır eşqin havası
Ürəyim olubdur sevgi yuvası
Eşqinlə eşqimin düşər davası
Bir sevgi səndədir, bir sevgi məndə

Qəlbimə tuşlanıb bir eşqin oxu
Duyduqca canımı bürüyür qorxu
Tən tutsaq bilərik kimdədir çoxu
Bir sevgi səndədir, bir sevgi məndə

Gətir eşqimizi dəyişək, bölək
Gəl, bir-birimizin dərdindən ölək
Saf eşqin dadını ikimiz bilək
Bir sevgi səndədir, bir sevgi məndə

## Sevgi qocalmır

Ürəyi bir eşqin həsrəti yaxır
Gözlər bir-birinə zillənib baxır
O saat gözlərdə qığılcım çaxır
Həsrətin odundan güc alır sevgi!

Həsrətdə vüsal var, vüsalda həsrət
Həsrətin özündə yaşanar xüffət
Xüffətdə dadlanar şirin məhəbbət
Həsrətin özüylə ucalır sevgi!

Vüsalda həsrət var,həsrətdə vüsal
Vüsalsiz bir eşqi etmədim xəyal
Yaranır vüsalda belə bir sual
Eyvaz, kim deyər ki, qocalır sevgi?!





## Eşqi soyadlı

Bir eşq tərəfindən üstələnmişəm
Mənə ancaq yarı dərman deyiblər...
Mənə eşq toxunub, xəstələnmişəm
Bir cüt qoşa narı dərman deyiblər...

Bilmirəm sevgimin nə var baxtında
Eşqin xəstəsi tək yatdım taxtında
Gərək mən … əlacı tapam vaxtında
Sinədən nübarı dərman deyiblər...

Hər kim duysa ürəyimin zəngini
O görər öz sevgisinin rəngini
Onda sevər eşqin ən nəhəngini
Mənə o diyarı dərman deyiblər...

Ay qız, hörüyündən asılım,qalım
Ağ balıq baldıra sarılım qalım
İcazə ver, gözünə yazılım qalım
Bax…bu dodaqları dərman deyiblər...

Məhəbbət şirindir, vüsalı dadlı
Canıma sarılıb eşqi soyadlı
Mən Avşar Eyvaza məhəbbət adlı
Həbi—zəhrimarı dərman deyiblər...

## Ürəyindəyəm

Eyy! Odla oynama, odam, yaxaram
Məhəbbət odu tək şimşək çaxaram
Mən o gözlərinə sənsiz baxaram
Bir də görərsən ki, ürəyindəyəm...

İlahi sevgimlə ruhum canlanar
Hər bir canlının bir həyat tərzi var
Eşqim çox dolanar bir qəlbə dolar
Bir də görərsən ki, ürəyindəyəm...

Damla-damla, misqal-misqal olaram
Mən gözdən süzülüb qəlbə dolaram
Xəbərsiz-ətərsiz, səssiz duraram
Bir də görərsən ki, ürəyindəyəm...

Yeri-göyü qarış-qarış axtarsan
Yerimi deməsəm məni tapmazsan
Ürəyini cürət edib sən yarsan
Bir də görərsən ki, ürəyindəyəm...

Al! Götür qızılgül güllərin şahı
Sevgimin rəmzidir onun günahı
Soruşma Eyvazdan verməz izahı
Bir də görərsən ki, ürəyindəyəm...





## Sevənin bağında

Sevənin bağında bir daş olaydım
Daş olsam o daşa yoldaş olaydım
Sirr verib, sirr alan sirdaş olaydım
Çox şirin xəyala dalmışam indi...

Sevənin bağında bir qış olaydım
Canını isladan yağış olaydım
Qoynunda bir qaynar ağuş olaydım
Üşüyə-üşüyə qalmışam indi...

Sevənin bağında bir gül olaydım
Eşq ilə oxuyub bülbül olaydım
"Sevirəm" soyləyən bir dil olaydım
Məhəbbət dəlisi olmuşam indi...

Sevənin bağında bir quş olaydım
Gözəlin birinə bir tuş olaydım
Ləbindən bal dadıb bihuş olaydım
Meylimi sevənə salmışam indi...

Sevənin bağında çiçək olaydım
Ən ülvi sevgiyə dəstək olaydım
Bir himə bənd olan şimşək olaydım
Leysan buludu tək dolmuşam indi...

Sevənin bağında qonaq olaydım
Eşqi oyananda oyaq olaydım
Mən ona... ömürlük dayaq olaydım
Axı, "hə" cavabı almışam indi...

Sevənin bağında bir yaz olaydım
Qəlbində nəğməli avaz olaydım
Sevəydim, mən… Avşar Eyvaz olaydım
"Eşq" adlı bir nəğmə çalmışam indi...

**Eşq yaşadır məni**

Od nə başdan tutur, nə də ayaqdan
Alışır sinədə ürək nahaqdan
Qaçdım ki yapışım odlu dayaqdan
Gördüm elə bu eşq yaşadır məni!

Qəlbimdə qəmim var, könlümdə dərdim
Eşqin atəşində yandım, əridim
Həsrətlə ömrümü başa yetirdim
Gördüm elə bu eşq yaşadır məni!

Baxmadım minnətə: yalvardı yüzü
Necə də bərk imiş sevənin üzü
Mən ölüb qurtulmaq istədim düzü
Gördüm elə bu eşq yaşadır məni!





## XIII Bölüm

# MİNİATÜR MUNCUQLAR

Baxma, baxma
mənə oğrun-oğrun,
nə də ki, xəlvət
məndə
sən axtardığın
nə sevgi var,
nə də məhəbbət...

***

Cüssəli bədənimə
nə baxırsan
yana-yana...
Gəl, gəl səni alım
qollarımın arasına...

***

Ah!...bu gözəllik...
mütənasib,
bu cuanəzənlik!
Hər şey düzgün ölçü-biçimdə
Aldı,
hər şeyimi taladı
qoymadı bir şey qala içimdə!..
... Bəh, bəh...bu cilvə, bu əda
bu cazibədarlıq-
hər şey yerli-yerində
öz görkəmində
çıxartdı ağlımı başdan
ürəyim deyil ki... daşdan
Aldı məni məndən
sevgimi də aldı əlimdən





heç səbrim də qalmadı məndə
ancaq, ancaq bir quru nəfəsim
qaldı bədəndə...

***

Bir oğlan bir qızı
çox bərk sevəndə
əvvəl bilməz neyləsin...
O oğlan o qızı
hər dəfə görəndə
istəyir onu gözüylə yesin

**“Hə”, ”Yox”**

Sataşdı,
gözəllərin içində
gözüm bir gözəl aldı
bir hiss
yarandı içimdə
gözüm o gözəldə qaldı!...
Duyğusal insanam
məhəbbət,
məhəbbət səbrimi kəsdi
Gərək qərarlanam:
yəqin ki,
ona bir işarə bəsdi!..
Baxdım...
gördüm onun gözlərində
könül odum yanırdı
eşqimin alovuyla
onun eşqi alovlanırdı!...
Ürəyimdəki zəngin səsinə

qoşulub
bir eşqin həvəsinə
onun da qəlbində
zəng çalınırdı...
Məhəbbətimlə
onun ürəyinə
yol salınırdı!...
Bilmirəm hələ
o mənə
"hə" deyəcək,
"yox" deyəcək:
suallar qarşısında
nəysə var başımda...
Görən "hə", yoxsa "yox"
deyəcək?!..
"Yoox"-deyib neyləyəcək?
Əgər...
onda ,...
lap sonda
Sevgim, məhəbbətim
onu mühasirəyə salacaq...
Eşqinin qığılcımlarıyla
silahlanıb,
sinəsini dəlib
dalbadal...
köksünü yarıb
misqal-misqal
qəlbinə dolacaq...
... nəhayət, onu
ələ alacaq...
"Yox" varsa





onun qəlbində
onu qoparıb atacaq,
orda yalnız və yalnız
"həə" qalıb yatacaq!...
Bilmərəm
"hə" deyəcək,
"yox" deyəcək?...
"Yoox" -deyib neyləyəcək?
Nə öz eşqini,
nə də mənim eşqimi
qəlbindən silməyəcək...
bunu bilirəm...
O mənə,
o mənə
qəti "yox" deyə bilməyəcək!
O, özü: "həə", "həə" –dir
"yox" nədir? sualını
verəcək
Sevdiyini bildirib
o, özü axırda
öz könlüylə "hə" cavabını
deyəcək!...

## Göz deyəni qəlb də deyirmi?

Baxışlar,
baxışlar nifrət
və...məhəbbət bəsləyir
Gözlər sevdiyini
görməyəndə qəribsəyir
Baxıram gözlərinə
mənə baxır: gülümsəyir

Görürəm dodağın əsir
Onu mən
çox gözəl duyuram:
öpülməyə tələsir...
Ancaq,
amma
və...lakin
qəlbindən
xəbərin yox...
Silkələ, çal sinəmə
kipriyinlə ox...
əl uzat çıxarmağa
tutum əlindən...
Əlin əlimdə ikən
baxsam gözlərinə—
sual dolu nəzərlərinə
o saat bilərəm
nə keçir ürəyindən...
Hələ başımı köksünə sıxsam
qəlbinin tıppıltısında
açıq-aydın qəlbin nə deyir—
biləcəyəm.
Yadına düşən tək
məni çağırsan
qəlbinin adi pıçıltısında
qəlbin istəyir –
Hətta, gələcəyəm
gəlib sevincimi
sevincinlə böləcəyəm!...
Lazım gəlsə qarşında
yıxılıb icazənlə öləcəyəm!..





***

Məhəbbət, sevgi
ürəyimə sarınan zaman
başım oynadı
sevdaya düşdü...
Eşq havası
yeridi üstümə
bulud-bulud, duman-duman
çaşdım,
yol azdım...
"dəli" bilib çoxları
mənə gülüşdü...

***

Eşq otağında
həm yalqız,
həm xəstə idim...
Çıxdım axtarışa,
gözüm bir gözəl aldı
Çəkib onu
aparmaq istədim
getmədi...
gözüm gözəldə qaldı...

***

Yad eldən
bir qız sevdim
çox getdim, çox gəldim
ancaq yol işlədim...
yollar gülüstan oldu!
...Nə öpdüm,

...nə dişlədim...
ancaq,
onu gördüm, gəldim...
sevgim dillərdə dastan oldu!

***

O qız ...o qız
ordan baxdı,
burdan baxdı
axırda canımı
oda yaxdı
Mən...mən
ordan keçdim,
burdan keçdim...
axırda dilə düşdüm...
Söz-söhbət yarandı,
girdi araya dedi-qodular
sonda
qan saldılar araya,
qan qoydular!...

**9 yerə 9 namə**

Məni fikir apardı...
Neyləyim ki,
bir az dağılsın dərdim
Oturub doqquz namə yazıb
doqquz yerə göndərdim
Birini quşa,
birini yelə...
Birini poçta,





birini suya,
birini ələ...
Nə isə,
xülasə
namələr getdi...
çox güman,
ünvana yetdi...
Dedim: "Yatmış bəxtimə
bir gün bir
çarə tapılar..."
...Doqquz günə
doqquz yerdən
elçilər töküldü gəldi
Şad oldum...
taybatay açıldı qapılar...
Bilmədim hansını seçim...
çaşdım ...
necə ölçüm, necə biçim?
özümü itirdim...
ağlımı saldım
oturub yenə də
mən evdə qaldım...
Gör işi...
nə yerə yetirdim...
kəm baxtım məndə
mən də...
mən də evdə qaldım...

### 9 qardaşlı qız

Səni sevdim...
sevdin məni,
ay gülüm, bilirsənmi
başıma gələni?!
Doqquz qardaşın var,
hərəsi maşallah,
bir cəngavər,
bir pəhləvan...
O gün az qalmışdı,
mənə tutalar divan
Yaman hədələdilər məni
sənə görə
Qorudular səni məndən
məni güdə-güdə.
...amma sən məni sevsən,
sən məni desən...
Əlimdən tutub
mənimlə dünyanın
o biri ucuna getsən,
ay doqquz qardaşın bircə,
tək madar bacısı!
Mən səninlə burdakı kimi
orda da
dadmaram bir həyat acısı...
Dadmaram,
dadmaram acı
əgər sən olsan
başımın tacı!...
Əvvəl təkbaşıma





tək döyüşərəm,
doqquz qardaşınla
vuruşaram
...ölərəm,
əl çəkmərəm səndən!
Öz sevgimə qatıb
sənin sevgini
Sevgimizlə...
tək qalib olaram,
əl çəkərlər məndən...
sonra
ağbirçək, ağsaqqal töküb
onların üstünə
onlarla barışaram...
barışaram!...

***

Bir sevgidən artıq
olan sevgi
artıq eşq deyil,
o həvəsdir
O həvəsin,
o sevginin yanında
eşqdən danışmaq əbəsdir...
O eşqdən
eşq ola bilməz
Dəyişkən sevgi ilə
çılğın bir həvəslə
heç bir ürək eşqə
eşqə gələ bilməz!

## XIV Bölüm

# QƏZƏLNAMƏ





### Danışır

Mafiya yaradıcısı cinayətdən danışır
Naqis əməllər törədən rəzalətən danışır

Qəflətindən ayrıla bilməyən nadan və cahil
Aqilə ədəb-ərkandan, mərifətdən danışır

Naəlac millətə azar verib, azara salan
Oturub öz bazarında təbabətdən danışır

Əslini danan, kökünü yada sala bilməyən
Yerindən qalxmamış əsl-nəcabətdən danışır

Torpağı parçalayıb,məmləkəti viran qoyan
Dövlətin uca taxtında siyasətdən danışır

Dara düşəndə baş alıb gözdən itincə qaçan
Daldada gizlənib dildə cəsarətdən danışır

Utanmadan yalan uydurub xəcalətli adam
El arasına çıxıb o, ləyaqətdən danışır

Az kar qulağıyla dili söz tutmayan heç kimə
İmkan vermədən gur səslə tilafətdən danışır

Bacısı ilə baldızını Dubaya göndərən
Barxanada abır-həyadan, ismətdən danışır

Gecələr öz qadınını evdə tapa bilməyən
Gündüzlər çayxanada şərəf-qeyrətdən danışır

Öz evini çox soyuq başıyla yıxıb dağıdan
Durub ölkədə baş verən fəlakətdən danışır

Özündən bixəbər, genində dözümü olmayan
Çox böyük bir fəxarətlə dəyanətdən danışır

Ömründə"Allahu-Əkbər"i düz deyə bilməyən
Mömin bəndələrə namaz, ibadətdən danışır

Udduğu nəfəsi də bəlkə də, yalan yaşayan
Məclisdə doğrular içrə həqiqətdən danışır

Zəlilə təhriz edən, kimsəsiz yetimə gülən
Zəhər diliylə insafdan, ədalətdən danışır

Səqir ilə, fəqirin olanlarına göz dikən
Ac gözlə xeyrül-əməldən, kəramətdən danışır

Gözü ilə gördüyü işi nəql edə bilməyən
Poeziyadan, hər cür seiriyyətdən danışır

Şümrə biət edən Allahsız, şeytansifət insan
Dünyəvi din elmindən, ilahiyyətdən danışır

Bütün varlığında eşqdən bir göz yeri də yoxdur
Kor qəlbi ilə sevgidən, məhəbbətdən danışır

Aslanla çaqqalı, bülbüllə bayquşu tanımır
Palıdı kolla səhv salıb təbiətdən danışır





Davranışı bir insan kimi məntiqə sığmayan
Həşərat tək gözə girir... cəmiyyətdən danışır

Yığdığı dünya malından heç nəyə sərf etməyən
Tamahı qılıncdan iti... səxavətdən danışır

Öz dövlətinin atributlarını tanımayan
Bilməm, necə dövlət sayır... kəmiyyətdən danışır

İbtidai şagirdlər qədər biliyi olmayan
Geniş foyedə elmdən, mədəniyyətdən danışır

Dostla dost dili, düşmənlə düşmən dili bilməyən
Dil bilməz, dil anlamazla ünsiyyətdən danışır

Geyiminin qədrini, ağzının dadını bilməyən
Malın rənginə baxaraq keyfiyyətdən danışır

Ölkənin nazir postunda ola-ola atası
Oğlu zarıya-zarıya səfalətdən danışır

Taqəti yox dayana həyat burulğanlarında
Eyvaz, gör kimlər səninlə rəqabətdən danışır

## Bilməmişəm

Şeir yazmaq başa bəla imiş... bilməmişəm
Sərraf yanında söz qala imiş... bilməmişəm

Qalaq-qalaq, qatar-qatar söz şeirlə getdi
Sən demə ora çox çala imiş... bilməmişəm

Orda durub ki, başbilən qəlyan haqqı alsın
Bir kəlmə: -salam da pula imiş... bilməmişəm

Özü haqda düşünən nadan xalqa yaraşmır
Onun ehtiyacı çula imiş... bilməmişəm

Ağlayana "məmə" yoxdur, Eyvaz! Bu Vətəndə
Onun yolu qalmaqala imiş... bilməmişəm

**Qəzəlxan olmam!**

Asandır, yaza bilirəm mən də qəzəl yazardım
Qəzəl yazsam, onda mən özümə məzar qazardım

Dahi Füzuli ki var... qarşımda keçilməz səddir
Ondan üstün yazmasam, şair yolumu azardım

Dura bilmirəm lirik Vahidin bərabərində
Onda qərar verib mən... qəzəllərimi pozardım

Qəzəl beytində çox dərin fəlsəfi mənalar var
O dəryaya girsəm, zəhmətimi zaya yazardım

Eyvaz, kim çatıb qəzəlçilərdən əsl qəzəlxanə
Utandım, onların yerinə mən özüm qızardım





# XV Bölüm

# POEMA NAMƏ

## Çağırış
***poema***
***(əvəzlik formasında)***

Mən—dünyanın bir rəngi
Sən—dünyanın hər cəngi
O—dünyanın sirr rəngi
Allah—kimin Allahı??!!

Eşq hissini bilincə
Şeir, sənət ölüncə
Haqq yerinə gəlincə
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Baxdın yadlar sözünə
Dağ çəkildi gözünə
Özün etdin özünə
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Satqınları yandıraq
Karı-koru qandıraq
Namərdləri sındıraq
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

İşə düşdü qurğunuz
Çaldı-çapdı oğrunuz
Evlər yıxdı sorğunuz
Sizləri O zarıtsın!
Ağ gününü qaraltsın!





Baş məzarı tərgimir
Qan azarı səngimir
Can bazarı ləngimir
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Duymur dünya, kar olub
Görmür dünya, kor olub
Dünya nə vaxt xar olub?
Allah onu saxlasın!
Günahlını doğrasın!

Vur-tut olan dünyadan
Alt-üst olan dünyadan
Xart-xurt olan dünyadan
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Haqqı verdin nahaqqa
Haram yedin, ay naqqa
Özün elə tavaqqâ
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Yuxuları yozan var
Yolu bir az azan var
Tərəzi var, mizan var
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Qəmsiz sifət yaradaq
Xoşbəxt külfət yaradaq
Möhkəm ülfət yaradaq
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

Fərman verib gəzdiniz
Məzlumları əzdiniz
Qan gölündə üzdünüz
Sizləri O zarıtsın!
Ağ gününü qaraltsın!

İfritədir pərisi
Özü pislik hərisi
Qəpik deyil dərisi
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Adam yeyən gorqurddan
"Mənim" deyən acqurddan
İçi yeyən manqurddan
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Rəvac verdin sən dərdə
Quyu qazdın sən mərdə
Qəhmər çıxdın namərdə
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!





Belə söz var–bulaxay
Hərə bir cür–dəlixay
Bir sillə var–solaxay
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

Qaydaları pozan var
Düzü əyri yazan var
Sağa qəbir qazan var
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Müharibə salan kim?
Marşal adı alan kim?
Ölən öldü... qalan kim?
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Şərə bazar olmusan
Xalqa azar olmusan
Mərdə məzar olmusan
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Zəhləm gedir zənd ilə
Kələk gəlir fənd ilə
Şərə salır bənd ilə
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Səfil həyat sürürük
Nala-mıxa döyürük
Acı günlər görürük
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

Sağa-sola keçdiniz
İnsanları biçdiniz
Şəhid qanı içdiniz
Sizləri O zarıtsın!
Ağ gününü qaraltsın!

Ağlı qırıq kəmdirsə
Altı-üstü nəmdirsə
Şeytansifət kimdirsə
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Vətən dedi baş gəldim
Düşməninə döş gəldim
Nanəcibə tuş gəldim
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Əlləşirəm fərd ilə
Güləşirəm dərd ilə
Dostlaşıram mərd ilə
Allah məni saxlasın!
Üstümü tez haqlasın!





Hökmdar olan pul oldu
Haqq-ədalət qul oldu
Ərsiz vicdan dul oldu
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Dərdi necə çəkək biz?
Qəmi hara tökək biz?
Qəlbi nə cür sökək biz?
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

Oldunuz baş qaxıncı
Çoxu qaldı yavıncı
Etdiniz dil zarıncı
Sizləri O zarıtsın!
Ağ gününü qaraltsın!

Hər sifətdə nur varmı?
Hər xüffətdə şur varmı?
Hər ülfətdə sirr varmı?
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Ürək eşqlə ovuşsun
Qəlb sevgiyə qovuşsun
Könüldən kin sovuşsun
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Div salmamış vəlvələ
Tut pislərlə əl-ələ
Baş verməmiş zəlzələ
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Səs çatdı parlamentə
Dava düşdü planşetə
Qan töküldü planetə
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Nalə ahla yarışır
Cana dərd-qəm darışır
Ara yaman qarışır
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

Ölənləri silirsiz
Satanlardan alırsız
Bölənlərlə bölürsüz
Sizləri O zarıtsın!
Ağ gününü qaraltsın!

Gördüyünü görən yox
Hördüyünü hörən yox
Dərdiyini dərən yox
Onları O qarıtsın!
Batalqanda batırtsın!





Düz danışan dil oldum
Bükülməyən qol oldum
Yaradana qul oldum
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Nə yetirdin, nə yetdin
Nə yedirtdin, nə yedin
Nə itirdin, nə itdin
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Dərya daşar, sel gələr
Qarayaman yel gələr
Kimsə kimə təl gələr
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Bu dünya çalxalanır
İnsanlar damğalanır
Dövr, zaman dalğalanır
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

"Ol", "Qal", "Öl" dilinizdə
"Hökm", "Qanun" əlinizdə
Nə yük var belinizdə?
Sizləri O zarıtsın!
Ağ gününü qaraltsın!

Xeyri azdı, şəri çox
Dili acı, gözü ox
Ağıl qaçıb, beyni yox
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Zülmət yardım, nur aldım
Gülüş yaydım şur saldım
Dağlar tək məğrur qaldım
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Dura bilsən döz, dur gəl
Qura bilsən iz, qur gəl
İşbilməzsən tez sür gəl
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Dünyanı kim... böyütdü?
Zamanı kim... öyütdü?
İnsanı kim... üyütdü?
Allah onu yoxlasın!
Günahlını doğrasın!

İki əlin içiyik
İki dünya köçüyük
İki gücə kiçiyik
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!





Baxan gözü şaxtadı
Bütün sözü saxtadı
Vücud özü taxtadı
Sizləri O zarıtsın!
Ağ gününü qaraltsın!

Kürt toyuq tək qırtlayır
"Çxotka" kimi xırtlayır
Güllə kimi partlayır
Onları O qarıtsın!
Batalqanda batırtsın!

"Xod" yeyilir əl-ayaq
İşə düşüb badalaq
Palıd olur qol-budaq
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Nədən döndün satqına
Dönük çıxdın xalqına
Məruz qaldın basqına
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

İnsan niyə əl kəsir?
Nədən qara yel əsir?
Dünya hara tələsir?
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Gəmi üzər dəryadə
Dərya süzər dünyadə
Dünya düzər ziyadə
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

Yaxşılara dəydiniz
Odda polad əydiniz
Özünüzü öydünüz
Sizləri O zarıtsın!
Ağ gününü qaraltsın!

Pul—yoxsulun dərmanı
Pul—batırar haqq qanı
Pul—yox edər vicdanı
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Kimlə qurdum ünsiyyət-
Verdim ona nəsiyyət
Ölləm, edim vəsiyyət
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Ayrıl işdən, sözə keç
Qaş oynatma, gözə keç
Şişə girsən, közə keç
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!





Zamanı kim soyutdu?
Cahanı kim uyutdu?
İnsanı kim qudurtdu?
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Bu gün dünya dar qəfəs
Qəfəs tutmaq zor, həvəs
Həvəs quru bir nəfəs
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

Ölü qəbri sayğacda
Ölü suyu sayğacda
Ölü yolu sayğacda
Sizləri O zarıtsın!
Ağ gününü qaraltsın!

Zalım, çarxını hərlə
Məzlum, başını girlə
Haqsız, haqlını şərlə
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Dünya yaman çirklənib
Çirklə tamam yüklənib
Adam tək-tək təklənib
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Zərər vurdun yetimə
Tikan çaldın ətimə
Daş da atdın itimə
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Səhər yemi tərgitdi
Günorta tam ləngitdi
Axşam kəmər bərkitdi
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Xalqa yalan deyirlər
Zireh geyim geyirlər
Haqqı məcbur əyirlər
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

Xalqın adı bəlgəniz
Xalqın malı kölgəniz
Xalqın evi bölgəniz
Sizləri O zarıtsın!
Ağ gününü qaraltsın!

İşi tutur çəpinə
Yatmır haqqın ipinə
Gəlmir mıxın dibinə
Onları O qarıtsın!
Batalqanda batırtsın!





Susdum... içim kükrədi
Dindim... səsim titrədi
Dözdüm... dizim büdrədi
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Nə bitirdin, nə bitdin
Nə gətirdin, nə batdın
Nə oyandın, nə yatdın
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Dünya nədən tac oldu
Dünya kimdən ac oldu
Dünya hardan qocaldı
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Əcəl səni dərincə
Torpaq altda sərincə
Üzünü gor görüncə
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Haldan-hala qaçıbdı
Dildən-dilə köçübdü
Əldən-ələ keçibdi
Allah onu yoxlasın!
Günahlını doğrasın!

İşdə haqla arındım
Gücdə haqdan barındım
Durub haqqa sarındım
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Necə girdin meydana
Papaq tikdin şeytana
Ümid yoxur faydana
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Dünya zillət görürkən
Millət sinə gərirkən
Tanrı möhlət verirkən
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Haqq yolunu seçincə
İmtahandan keçincə
Şəhid andı içincə
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Soncuqladan biz oldun
Tapılmayan iz oldun
Tir-tir əsən diz oldun
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın





Yetim, yesir çoxalıb
Bandit-quldur ox olub
İnsaf-mürvət yox olub
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Padoşfason sırtılın
Rezin kimi dartılın
Rütbənizi artırın
Sizləri O zarıtsın!
Allah onu qaraltsın!

Dərdlər, qəmlər azalmır
Göz qorası sozalmır
Haqq yerini düz almır
Onları O yoxlasın!
Günahlını doğrasın!

Ömrü əzrail kəsir
İnkir-minkir suç gəzir
Ölən ölü tam bezir
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Dilin pərgar, gözün kor
Yoxa darsan, vara xor
Sözə karsan, cana çor
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Gecə qara, gündüz ağ
Fikir zülmət, göz çıraq
Ürək irin, bəniz yağ
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Ağız yırtıq, baldır çağ
Vücud xəstə, iştah sağ
Beyin xəstə, ağıl ağ
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Billəm, şeir yazıram
Təbim deyir, yazıram
Oxu! Xeyir yazıram
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Sözü çəkib uzatma
Üzünü çox bozartma
Haqqı artıq qızartma
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Dedi-qodu ev yıxar
Giley-güzar can sıxar
Təhriz-töhmət qəlb yaxar
Allah onu yoxlasın
Günahlını doğrasın!





Dərd-vərəmi dərən yox
Uçuq qəlbi hörən yox
Haqqa qiymət verən yox
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

İlan dili çaldınız
Şeytan dərsi aldınız
İblis yolu saldınız
Sizləri O zarıtsın!
Allah onu qaraltsın!

Varlandıqca varlılar
Kasıblaşır kasıblar
Nəfəsi borc alan var
Onları O yoxlasın!
Günahlını doğrasın!

Söz gülləsi atıram
Söz üstündə yatıram
Sözlə haqqa çatiram
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Təəccüb et bəlaya
Təəssüf qıl fənaya
Məəttəl qal mənaya
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Səndə sevinc üzü yox
Səndə sevgi gözü yox
Səndə eşqin izi yox
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Vətən—elin məbədi
Məbəd saxlar Şəhidi
Şəhid yaşar əbədi
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

Məndə arzu saxlanmaq
Səndə arzu dağlanmaq
Onda arzu doğranmaq
Pisi Allah çürütsün!
Yaxşını O kiritsin!

İki əlim pir olsa
İki gözüm sirr olsa
İki üzüm bir olsa
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Həyat—sevgi, məhəbbət
Həyat—faciə, nifrət
Həyat—dram, komediyyət
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!





Yetim-yesir inləyir
Zaman-dövran dinləyir
Zalım-gavır sinləyir
Onları O zarıtsın!
Batalqanda batırtsın!

Bizim məqsəd yarımaq
Sizin məqsəd zarımaq
Onlarınkı qarımaq
Pisi Allah çürütsün!
Yaxşını O kiritsin!

Torpağın kökü sənin
Torpağın təki sənin
Torpağın mülkü sənin
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Ayaq yüyrək, əl qaçaq
Kəllə tənbəl, dil qoçaq
Tamah qılınc, göz bıçaq
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Gedən gedən olmadı
Gələn gələn olmadı
Ölən ölən olmadı
Bizləri O yarıtsın!
Yaramızı sarıtsın!

İşlə tər tök, qazanc yox
Çarəsizə əlac yox
Toxlar deyir: bir ac yox
Onları O yoxlasın!
Günahlını doğrasın!

Doğru sözün—yüz biri
Yalan sözün—göz tiri
Əyri sözün—düz, diri
Allah səni dağlasın!
Dayaq nöqtən laxlasın!

Ciyər ürkək, qol büdrək
Sinə qorxaq, diz titrək
Hər kim olsa "quşürək"
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Ahlar zarı çürütmür
Nalə dərdi kiritmir
Kədər qəmi əritmir
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Özünü gözə dürtür
Başını yerə sürtür
Bacarır "yaylıq" örtür
Onları O qarıtsın!
Batalqanda batırtsın!





O dünya var, cənnət var
Müsəlmana sünnət var
Bəs sünnətə minnət var?!
Allah onu yoxlasın!
Günahlını doğrasın!

Mən yandırdım yanmazı
Mən sındırdım sınmazı
Mən qandırdım qanmazı
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

Bölürsünüz bölümü
Dərirsiniz ölümü
Edirsiniz zülümü
Sizləri O zarıtsın!
Ağ gününü qaraltsın!

Haqsız yerə öc oldu
Nahaqq işə tac oldu
Qovurmağa sac oldu
Onları O qarıtsın!
Batalqanda batırtsın!

Ad tarixə dönüncə
Həyat eşqi sönüncə
Eyvaz qəbrə girincə
Allah məni saxlasın!
Üstümü tez haqlasın!

## Mündəricat

ŞAİRİN POETİK DÜŞÜNCƏLƏRİ....................3

I Bölüm
TƏSVİRNAMƏ

Əllər var dünyada....................8
Xəstə taleyi....................11
Həkim....................12
Taleyim mənim....................13
İnşaallah, Şükrallah, Maşallah!....................14
Avşar tayfası....................17
Kim kimdir?....................18
Olan olacaq....................22
Ana anadır....................24
Adəm ailəsi....................25
Gələcəyə gedirik biz....................26
Dünya....................27
Elimizə bahar yaraşır....................28
Odlar yurdu....................30
Azadlıq nədir?....................31
Bayatılar....................32
Yazın gəlişi....................35
Təbiətlə insanın yarışı....................36
Məhsul bayramı....................36
Xoşbəxtlik....................38
Dağ çayı....................40
Qurtuluş....................43
Azadlıq....................45
Gözlər görürəm....................46
Azəri xalqının Avşar elləri....................48
Möcüzələr....................50
Ovqat bulağı....................53





II Bölüm
HİKMƏTNAMƏ

İradlı maral....................56
Şair fitrəti....................57
Halallıq....................57
Daş atan....................58
Qardaş hiyləsi....................59
İnsan konseri....................60
Gətirməyən aparmaz....................62
Zamanın dərdi və çarəsi....................64
Zəmanə, yoxsa insan?....................66
Kölgə....................67
Yaş dəyişir....................69
Ayıbdı....................70
Hayıfdı!....................71
Olarsan....................71
Körpə gülüşü....................72
Haqq işığı....................73
Niyə bölündün?!....................74
De ki....................75
Şəhid olsam....................76
Zamanın hökmü....................78
Dünyanın tarazı....................79
Halal adam rütbəsi....................83
İnsanın insandan fərqi....................84
Yoxdan bəla gəlməz....................86
Dünyanın haqq-hesabı....................86
Qəm qalası....................87

III Bölüm
MİNİATÜR SƏPKİLƏR

Ad günü....................89

## IV Bölüm
## TƏHLİLNAMƏ

Həqiqət danılmaz....93
Haqq itkisi....93
Əyləşib....94
Mən kiməm....95
Ən varlı acgöz....97
Namərdə aman versən....98
Varlı kimdir?....99
Yazıq....99
Özündənçıxan!....101
Molla....102
Manyakdan kələkbaza....104
Kafirdən namərdə....105
Mərdiməzara nə lazım?....105
Zəmanə gədaları....106
Alçağı alçalt....107
Şair olunca....108
Öz bəxtim....109
Dada yetən....110
Sən yazar, mən yazar...
Bəs, kim üstün yazar?....113
Haqq boş iddia deyil....114
Sağa pul... Soldan pul....119
Günahlı... günahsız....120

## V Bölüm
## TƏNQİDNAMƏ

Kəpənək və hörümçək....123
Biləydim....125
Olmusan....126
Payıma dəymə....126
Varmı?....127
Böhtançı müxbir....128





Dünyan sənə nə verdi, nə?....129
ŞərBəy....130
Keyvəşər....130
Kişi qarğışı....131
İmansız....132
Din-imanın harda qaldı?....133
Yapışqanlar kimi....134
Biganə məmur....135

## VI Bölüm
## MİNİATÜR DAMLALAR

Miniatür damlalar....139
Nəvə və baba....150

## VII Bölüm
## İTHAFNAMƏ

Nə tez köcüb dünyadan Müşfiq....154
Kişilər niyə ağlayır?....158
Yaqub....159
Məşədi Əli....160
Elcanlı oğlan....161
Günəş nurlu insan....162
Nankor övladlı ana....163

## VIII Bölüm
## ŞİKAYƏTNAMƏ

Aç bağlı yolu....166
Millət anasına məktub....166

## IX Bölüm
## İSRARNAMƏ

Zaman məni isitmir....169
Haqqım var giley etməyə....169
Haqdan çıxanlar....170
İlahi! Yarıtma əməlbetəri....171

## X Bölüm
## İQRARNAMƏ


Vətən əmri.....173
Vətən sərəncamı.....173
Vətən fərmanı.....175


## XI Bölüm
## AZƏRİNAMƏ


Ən böyük günah.....177
Vətən.....180
Vətən Vətəndir.....181
Vətəndir.....181
Qarabağ həsrəti.....182
Zəlzələ elə, Qarabağ.....184
Qərənfil yağışı.....186
Qara Yanvar.....186
Vətən zərbəsi.....188
Şəhid olsam.....191


## XII Bölüm
## EŞQNAMƏ


Ürəyimdə.....194
Eşqimi söndürə bilməz.....196
Sevgilim.....196
Bir axşam.....197
Yaralı qoyma.....198
Ucuz tutmayın sevgimi.....199
Bildinmi niyə incidim?.....199
Niyə incidin?.....200
Vəfan budurmu?.....201
Sevdiyim də sənsən, seçdiyim də sən.....202
Aldan demirəm.....203
Sən olmasaydın.....204
Ürəyimin ortasında.....205







Tutdum.....205
Bir eşq səndə, bir eşq məndə.....206
Sevgi qocalmır.....206
Eşqi soyadlı.....207
Ürəyindəyəm.....208
Sevənin bağında.....209
Eşq yaşadır məni.....210


## XIII Bölüm
## MİNİATÜR MUNCUQLAR


Miniatür muncuqlar.....211
"Hə", "Yox".....213
Göz deyəni qəlb də deyirmi?.....215
9 yerə 9 namə.....218
9 qardaşlı qız.....220


## XIV Bölüm
## QƏZƏLNAMƏ


Danışır.....223
Bilməmişəm.....225
Qəzəlxan olmam!.....226


## XV Bölüm
## POEMA NAMƏ


Çağırış.....228

**HƏSƏNALIYEV EYVAZ MUXTAR OĞLU**

**"KİM KİMDİR"**

Yığılmağa verilib: 05.08.2013
Çapa imzalanıb: 08.10.2013
Kağız formatı: 60*84 1/16
Həcmi: 15,5 ç.v.
Sifariş 03
Tiraj 150 ədəd

"VP" mətbəəsində çap olunmuşdur
Tbilisi pr.,57

Art-275432

